Əhli-beyt ilə səhabələr arasında olan
isti münasibətlər silsiləsindən (5)

# Əhli-beytlə üç xəlifə arasındakı münasibətlərdə dostluq və sədaqət bağlılığı

**“Hamını ötüb keçən ilklər” *adlı* üçüncü**
**konfransa təqdim olunan mükəmməl bəhs**

**(Hicri, 10-13 Cumədə -əl-Əvvəl, 1435-ci il – Miladi, 11-13 mart, 2014-cü il)**

**Küveytin vəqflər və İslam işləri nazirliyi ilə Dünya İslam birliyinin birgə əməkdaşlığı**


**Əli bin Həməd bin Muhəmməd ət-Təmimi**
“əl-Məbərra” elmi araşdırmalar mərkəzinin sədr müavini


**Tərcümə edən: Əbu Zəkəriyyə**

بسم الله الرحمن الرحيم

## Mündəricat Səhifə

Mündəricat .......... 20
Müqəddimə .......... 20
**Giriş: Əhli-beyt və səhabələrlə bağlı müqəddimələr** .......... 20
**Birinci bəhs:** Əhli-beyt kimlərdir? .......... 20
Peyğəmbərin ﷺ xanımları Əhli-beytdəndir .......... 20
**İkinci bəhs:** Əhli-beytin fəzilətləri .......... 20
**Üçüncü bəhs:** Müsəlmanların Əhli-beytlə bağlı etiqadlarının bəyanı .......... 20
**Dördüncü bəhs:** Səhabələr, onların fəziləti və müsəlmanların onlarla bağlı etiqadları .......... 20
Səhabələrin fəzilətinə dair dəlillər .......... 20
Pak sünnədə onların fəziləti ilə bağlı varid olanlar .......... 20
**Birinci fəsil: Əbu Bəkr əs-Siddiqin رضي الله عنه Əhli-beytlə əlaqəsi** .... 20
**Birinci bəhs:** Əbu Bəkrlə Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər .......... 20
İmam Muhəmməd əl-Baqirin tərifləri .......... 20
İmam Zeyd ibn Əli ibn Hüseynin tərifləri .......... 20
İmam Abdullah ibn Həsən ibn Həsən ibn Əlinin رضي الله عنهم tərifləri ... 20
**İkinci bəhs:** Əhli-beytin Əbu Bəkrin رضي الله عنه fəzilətləri ilə bağlı rəvayət etdikləri hədislər .......... 20
İzzət və Cəlal Sahibi olan Allahın onu xəlifə təyin etməsi ilə ümməti şərəfləndirməsi .......... 20
Rəsulullahdan ﷺ sonra ən xeyirli rəhbər o idi .......... 20
O, Peyğəmbərin ﷺ əməllərinin bənzərini etmiş və onun yolu ilə getmişdir: .......... 20
Peyğəmbər ﷺ xəstəlindiyi vaxt insanlara namaz qıldırması ..... 20
Əbu Bəkr رضي الله عنه Rəsulullahın ﷺ qardaşı və dostu idi .......... 20
Əbu Bəkrin evinin qapısından başqa bütün qapıları bağlayın .... 20
İbn Abbasın رضي الله عنهما Əbu Bəkrə رضي الله عنه verdiyi təriflər .......... 20
Hər zaman Rəsulullahla ﷺ birlikdə olması .......... 20

İbn Abbas رضي الله عنهما qeyd edir ki, Ömər Əbu Bəkri özündən üstün sayardı ... 20
Quranı ilk dəfə bir arada toplayan ... 20
Mələklərin Bədr döyüşündə onunla birlikdə döyüşməsi ... 20
Əli رضي الله عنه Əbu Bəkrin رضي الله عنه doğrudanışan olduğunu vəsf edir ... 20
Əlinin رضي الله عنه Əbu Bəkr və Ömərin رضي الله عنهما xilafətini təriflməsi ... 20
Əbu Bəkrlə Ömər رضي الله عنهما Cənnət ağsaqqallarının hörmətliləridir ... 20
Əbu Bəkrin رضي الله عنه Peyğəmbərdən ﷺ sonrakı məqamı ... 20
**Üçüncü bəhs:** Əhli-beytin öz övladlarına Əbu Bəkr əs-Siddiqin kunya və adlarını verməléri ... 20
1. Əbu Bəkr ibn Əli ibn Əbu Talib ... 20
2. Əbu Bəkr ibn əl-Həsən ibn Əli ibn Əbu Talib ... 20
3. Əbu Bəkr Əli (Zeynulabidin) ... 20
4. Əbu Bəkr ibn Musa (əl-Kazım) ... 20
5. Əbu Bəkr Əli (ər-Rida) ibn Musa (əl-Kazım) ibn Cəfər (əs-Sadiq) ... 20
6. Əbu Bəkr Muhəmməd (əl-Mehdi əl-Muntəzar) ibn əl-Həsən əl-Əskəri, ləqəbi Əbu Bəkr idi ... 20
7. Əbu Bəkr ibn Abdullah ibn Cəfər ibn Əbu Talib ... 20
8. Əbu Bəkr ibn əl-Həsən (əl-Musənnə) ibn əl-Həsən (əs-Sibt) ibn Əli ibn Əbu Talib ... 20
9. Əbu Bəkr ibn Əbul-Əzm ibn Abdullah ... 20
**Dördüncü bəhs:** Əhli-beytlə Siddiqin رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri ... 20
1. Allahın Rəsulu Muhəmməd ibn Abdullah ﷺ ... 20
2. əl-Həsən ibn Əli ibn Əbu Talib ... 20
3. İshaq ibn Abdullah ibn Cəfər ibn Əbu Talib ... 20
4. Muhəmməd (əl-Baqir) ibn Əli (Zeynulabidin) ibn əl-Hüseyn ... 20
5. Musa (əl-Cəun) ibn Abdullah (əl-Məhd) ibn əl-Həsən (əl-Musənnə) ibn əl-Həsən (əs-Sibt) ibn Əli ibn Əbu Talib ... 20
6. İshaq ibn Abdullah ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib ... 20
**Beşinci bəhs:** Fədək şübhəsi ... 20
Hədisin rəvayətləri ... 20

Şübhənin dəf olunması ........................................................... 20
Əli رضي الله عنه öz xilafəti dövründə Fədəki Fatimənin övladlarına verмədi ......................................................................................... 20
**İkinci fəsil: Möminlərin əmiri Ömər ibn əl-Xəttab** رضي الله عنه ............ 20
**Birinci bəhs:** Ömərlə Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər ......................................................... 20
İmam Muhəmməd əl-Baqirin tərifləri .......................................... 20
İmam Abdullah ibn Həsən ibn Həsən ibn Əlinin رضي الله عنهم tərifləri ... 20
Əli رضي الله عنه Ömərə رضي الله عنه nəsihət edir! ................................................. 20
**İkinci bəhs:** Əhli-beytin رضي الله عنهم əl-Faruq Ömər ibn əl-Xəttabın رضي الله عنه fəzilətləri barədə rəvayətləri ........................................ 20
Peyğəmbərə ﷺ Əbu Bəkr və Ömərlə رضي الله عنهما məşvərət etmək əmr olunmuşdur ......................................................................... 20
Hər zaman Peyğəmbərlə ﷺ birlikdə olması ................................ 20
Ömərin رضي الله عنه söylədiklərinə müvafiqlik ........................................ 20
Sükunət Ömərin رضي الله عنه dilindən danışır ........................................ 20
Peyğəmbərlə ﷺ Əbu Bəkr əs-Siddiqdən رضي الله عنه sonra bu ümmətin ən xeyirlisi Ömərdir ................................................................ 20
Əbu Bəkrlə Ömər رضي الله عنهما Cənnət ağsaqqalların hörmətliləridir ........ 20
Dostlarından nəsihət qəbul etməsi ............................................... 20
İbn Abbasın رضي الله عنهما Ömərdən رضي الله عنه çəkinməsi və onun elmindən faydalanmağa hərisliyi ......................................................... 20
İzzət və Cəlal Sahibi olan Allahdan çox qorxması ....................... 20
Ömərin رضي الله عنه yüksək məqamı ......................................................... 20
Əlinin رضي الله عنه Öməri رضي الله عنه tərifləməsi ................................................. 20
**Üçüncü bəhs:** Əhli-beytin öz övladlarına Ömər adını verməlƏri ... 20
Ömər əl-Ətraf ibn Əli ibn Əbu Talib ............................................ 20
Ömər ibn əl-Həsən ibn Əli ibn Əbu Talib ..................................... 20
Ömər ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib ................................... 20
Ömər (əl-Əşraf) ibn Əli (Zeynulabidin) ibn əl-Hüseyn əş-Şəhid .... 20
**Dördüncü bəhs:** Əhli-beytlə Ömərin رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri ........................................................................ 20
1. Allahın Rəsulu Muhəmməd ibn Abdullah ﷺ ........................ 20
2. Ummu Gülsüm bint Əli ibn Əbu Talib ................................... 20

**Üçüncü fəsil: Möminlərin Əmiri Osman ibn Əffan** رضي الله عنه ........... 20
**Birinci bəhs:** Osmanla Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər ........................................................................ 20
Əlinin Osmanı رضي الله عنهما tərifləməsi ........................................................ 20
**İkinci bəhs:** Əhli-beytin Zin-nureyn ləqəbli Osman ibn Əffana رضي الله عنه verdiyi təriflərlə bağlı rəvayətlər ............................................ 20
Osmandan رضي الله عنه mələklər belə utanırdı ............................................ 20
İnsanlar Osmanın رضي الله عنه qanını tələb etməsəydilər başlarına daş yağardı ........................................................................................................ 20
Əlinin Osmanı رضي الله عنهما sevməsi və onun qanından uzaq olması ....... 20
Osman رضي الله عنه Allah tərəfindən əzəldən ən gözəl aqibət yazılmış insanlardandır ........................................................................................ 20
Osman رضي الله عنه iman gətirib *Allahdan* qorxan, sonra yenə iman gətirib *Allahdan* qorxan kimsələrdəndir ................................................ 20
Əli və Aişə Osmanı رضي الله عنهم qətlə yetirənləri lənətləmişlər ................ 20
**Üçüncü bəhs:** Əhli-beytin öz övladlarına Osman adını vermələri ........................................................................................................ 20
1. Osman ibn Əli ibn Əbu Talib رضي الله عنهما ............................................... 20
2. Osman ibn Əli ibn əl-Hüseyn رضي الله عنهم ............................................. 20
**Dördüncü bəhs:** Əhli-beytlə Osmanın رضي الله عنهم ailəsi arasındakı qohumluq əlaqələri ............................................................................... 20
1. Peyğəmbərin صلى الله عليه وسلم qızları Ruqayyə və Ummu Gülsüm رضي الله عنهما .... 20
2. Ummu əl-Qasim bint əl-Həsən ibn əl-Həsən ibn Əli ibn Əbu Talib ................................................................................................ 20
3. Fatimə bint əl-Hüseyn (əş-Şəhid) ibn Əli ibn Əbu Talib ........ 20
4. İshaq ibn Abdullah ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib ......................................................................................................... 20
5. Ummu Gülsüm bint Abdullah ibn Cəfər ibn Əbu Talib ........ 20
6. İbrahim ibn Abdullah ibn əl-Həsən ibn əl-Həsən ibn Əli ibn Əbu Talib ................................................................................................ 20
**Son söz** ........................................................................................................ 20
Ən mühüm məxəzlər və mənbələr ................................................... 20

# Müqəddimə

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Biz Ona həmd edir, Onu köməyə çağırır və Ondan bağışlanma diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Allaha pənah aparırıq. Allah kimə hidayət verərsə o doğru yolda olmuş sayılar, kimi də azdırsa onu doğru yola yönəldən tapılmaz. Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur. Həmçinin şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Həmd olsun o Allaha ki, öz kitabında buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. *Allah* onlar üçün altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur."**[1]

İzzət və Cəlal Sahibi olan Allahın səhabələrə verdiyi tərifdən artıq tərif, razılığından artıq razılıq ola bilərmi? Uca Allah onlara gözəl şəkildə tabe olmağı hidayətin və Allahın razılığının əlamətlərindən buyurmuşdur.

Tarixi təhrif etməyə çalışanlar iddia edirlər ki, Peyğəmbərin ﷺ səhabələri ilə Əhli-beyti arasında ədavət olmuşdur. Əslində isə onlar Uca Allahın buyurduğu kimi idilər: **"Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər."**[2] Həmçinin əl-Hədid surəsində buyurur: **"Sizə nə olub ki, *malınızdan* Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən *mallarını Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir."**[3] Allah isə öz vədinə əsla xilaf çıxmaz.

---

[1] ət-Tovbə surəsi, 100.
[2] əl-Fəth surəsi, 29.
[3] əl-Hədid surəsi, 10.

İzzət və Cəlal Sahibi olan Allahın: **"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz"**[1] **–** ayəsindən sonra hansı müsəlman bu ayəyə görə öz Rəbbini yalançı sayar? Həmçinin Peyğəmbərinin ﷺ: "İnsanların ən xeyirlisi mənim zamanımda olanlar, sonra onlardan sonra gələnlər, sonra da onlardan sonra gələnlərdir."[2] – sözünə görə *hansı müsəlman* onu yalançı saya bilər?

Məgər Əhli-beytlə səhabələr رضي الله عنهم başqalarını dində ötüb keçənlər deyildilərmi? Məgər ən xeyirli zamanda yaşayanlar qəhrəman fatehlər sayılan mühacirlər və ənsarlar deyildilərmi? Onlar eyni toplumun nümayəndələri deyildilərmi?

Allaha and olsun ki, onların arasında yalnız sevgi, hörmət, qarşılıqlı tərif, qohumluq əlaqələri və bir-birilərindən qız alıb qız vermə olmuşdur. Habelə onlar Allahın dinini uca tutmaqda, Onun Rəsuluna yardım etməkdə və batil əhlinə qarşı cihad etməkdə birgə iştirak etmiş və bütün bunlar da hər kəsə məlumdur. Aqil və öz dininə həris olan kəs gərək onlar barədə nalayiq ifadə işlətməkdən həzər etsin.

Növbəti səhifələrdə Peyğəmbərin ﷺ Əhli-beyti ilə üç xəlifə Əbu Bəkr, Ömər və Osman رضي الله عنهم arasındakı əlaqələrlə bağlı, həmçinin onların Əhli-beytə verdikləri təriflərlə bağlı bəzi şəri dəlilləri və tarixi faktları nəzərinizə çatdıracağıq. Həmin faktlar onların arasında sevgi və ehtiramdan başqa heç bir şeyin olmadığını bir daha sübut edir. Başqa cür ola bilərmi? Onlar Peyğəmbərin ﷺ Qədir xum[3] günü Əhli-beytlə bağlı etdiyi aşağıdakı vəsiyyətinə əməl etmişlər: "Allah xatirinə əhli-beytimi sizə tapşırıram, Allah xatirinə əhli-beytimi sizə tapşırıram. Bunu üç dəfə təkrar etdi."[4]

Həmçinin Əhli-beyt رضي الله عنهم səhabələrin dinə nə qədər yardım etdiklərini, hicrət etdiklərini, habelə dinin adını yüksək tutmaq və aləmlərin Rəbbinin Rəsuluna ﷺ dəstək verməк üçün əhli əyalını və övladlarını tərk etdiklərini bilirdi.

---

[1] Ali İmran surəsi, 110.

[2] Hədisi Buxari (3650, 3651) "Səhabələrin fəzilətləri" kitabının "Peyğəmbərin ﷺ səhabələrinin fəzilətləri" fəslində rəvayət etmişdir.

[3] Məkkə ilə Mədinə arasındakı bir yer.

[4] Səhih Muslim, № 2408, Əli ibn Əbu Talibin fəzilətləri fəsli.

Bu səhifələrdə (Küveyt Dövlətinin Vəqflər və İslam İşləri Nazirliyinin üçüncü "Hamını Ötüb Keçən İlklər" Konfransının müqəddiməsi) bəlli bir məsələyə aydınlıq gətirir, məlum bir məsələni açıqlayıram. Əslində bu məsələnin dəlilə ehtiyacı yoxdur!

Əsasları köməkçi məsələlərdən ayırdıqda,
Günəş şamlarsız keçinə bilməz.

Başqa birisi demişdir:

Kimin yeri günəşin üzərindədirsə
Onu qaldırıb endirən bir qüvvə olmaz.

Ola bilsin ki, gizli məsələlərdə dəlil-sübut gətirmək doğru hesab olunsun. Amma barəsində ittifaq olunmuş aydın və zahiri məsələlərdə bunları sübut etmək üçün xüsusi bir dəlil-sübuta ehtiyac yoxdur.

Məgər hörmətli Quranın tərif etdiyi, habelə Peyğəmbərin ﷺ tərbiyə etdiyi kəslər üçün dəlil gətirilməsinə ehtiyac varmı? Onlar son nəfəslərinədək dinin bayrağını uca tutmaq üçün cihad etmişdilər. Cihadda qanları axıdılan, bədənləri ilə Peyğəmbərə ﷺ yaxın olmuş və hicrət etmiş, mallarını *Allah yolunda* xərcləmiş, evlərini *Peyğəmbərə* ﷺ qohum etmiş kəslər üçün dəlil gətirilməsinə nə lüzum var?

Onların arasında mehriban münasibətlərin olmasına dəlilmi gətirəcəyik!

Allahın tərifindən sonra nə tərif ola bilər ki!
Peyğəmbərin ﷺ hədisindən sonra şəfa ola bilərmi!
Zehinlərdə əsla doğru olmaz,
Gündüzə dəlil tələb olunması.

Kaş ki, bütün bu fitnələrin baş alıb getməsi, ədavətin artması, bəlaların ayaq açıb yeriməsi və müharibələrin alovlanması olmayaydı!

Bunun səbəbləri və məqsədləri bəllidir. Bu fitnənin daha da alovlandırılmasına səy göstərən qüvvələr məlumdur. Onlar fəsad yayaraq böhtan atıb saxtakarlıq edirlər. Bu səbəbdən bəzi məsələlərə aydınlıq gətirməyi lazım bildim.

Onların arasındakı sevgi və ehtiram əlaqələrinə dörd yöndən dəlillər gətirmək istəyirik:

1. Onların arasındakı tərif, ehtiram və qarşılıqlı müdafiə. Çünki insanı yalnız sevən kəs tərif, yardım və müdafiə edə bilər.

2. Əhli-beytdən üç xəlifə barədə nəql olunmuş hədislər. Əhli-beyt onlardan razı olmasaydı onları bu cür tərif edib məqamlarını uca tutmazdı.

3. Onların adlarını öz övladlarına vermələri. Belə ki, nifrət edən kəs nifrət bəslədiyi adamın adını yaxınlarına əsla qoymaz.

4. Nəsildən-nəsilə onların arasında davam etmiş qohumluq əlaqələri. Belə ki, onlar arasında olan məhəbbət o dərəcəyə çatmışdır ki, onların nəsil-nəcabəti bir-birinə qarışmışdır.

Bundan əlavə tamamilə əsassız olsa da belə Əbu Bəkrin Fatiməyə Fədək məsələsində haqsızlıq etməsi şübhəsini gətirən zülm şəbəkəsinə cavab verməklə bu məsələyə də aydınlıq gətirdim. Çünki bu barədə boşboğazlıq edənlər çoxalıb. Onlar bununla nəyəsə nail ola biləcəklərini güman edirlər.

## Bəhsi ön söz və üç fəsilə böldüm:

**Giriş: Əhli-beyt və səhabələrlə bağlı müqəddimələr.**

Birinci bəhs: Əhli-beyt kimlərdir?

İkinci bəhs: Əhli-beytin fəzilətləri.

Üçüncü bəhs: Müsəlmanların Əhli-beytlə bağlı etiqadlarının bəyanı.

Dördüncü bəhs: Səhabələr, onların fəziləti və müsəlmanların onlarla bağlı etiqadları.

Beşinci bəhs: Xilafət məfhumu.

## Birinci fəsil: Əbu Bəkr əs-Siddiqin رضي الله عنه Əhli-beytlə əlaqəsi.

Birinci bəhs: Əbu Bəkrlə Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər.

İkinci bəhs: Əhli-beytin Əbu Bəkrin رضي الله عنه fəzilətləri ilə bağlı rəvayət etdikləri hədislər.

Üçüncü bəhs: Əhli-beytin öz övladlarına Əbu Bəkr əs-Siddiqin kunya və adlarını vermələri.

Dördüncü bəhs: Əhli-beytlə Siddiqin رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri.

Beşinci bəhs: Fədək şübhəsi.

## İkinci bəhs: Möminlərin əmiri Ömər ibn əl-Xəttab رضي الله عنه.

Birinci bəhs: Ömərlə Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər.

İkinci bəhs: Əhli-beytin رضي الله عنهم əl-Faruq Ömər ibn əl-Xəttabın رضي الله عنه fəzilətləri barədə rəvayətləri.

Üçüncü bəhs: Əhli-beytin öz övladlarına Ömər adını verməlləri.

Dördüncü bəhs: Əhli-beytlə Ömərin رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri.

## Üçüncü fəsil: Möminlərin əmiri Osman ibn Əffan رضي الله عنه.

Birinci bəhs: Osmanla Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər.

İkinci bəhs: Əhli-beytin Zin-nureyn ləqəbli Osman ibn Əffana رضي الله عنه verdiyi tariflərlə bağlı rəvayətlər.

Üçüncü bəhs: Əhli-beytin öz övladlarına Osman adını verməlləri.

Dördüncü bəhs: Əhli-beytlə Osmanın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri.

Allah bizlərə onları sevməyi, onlara gözəl bir tərzdə tabe olmağı nəsib etsin, bizləri onlarla birlikdə Firdovs cənnətlərində Peyğəmbərlə ﷺ bir yerə cəm etsin... Amin.

# Giriş

**Əhli-beyt və səhabələrlə bağlı müqəddimələr.**

**Birinci bəhs: Əhli-beyt kimlərdir?**

**İkinci bəhs: Əhli-beytin fəzilətləri.**

**Üçüncü bəhs: Müsəlmanların Əhli-beytlə bağlı etiqadlarının bəyanı.**

**Dördüncü bəhs: Səhabələr, onların fəziləti və müsəlmanların onlarla bağlı etiqadları.**

**Beşinci bəhs: Xilafət məfhumu.**

# Birinci bəhs

## Əhli-beyt kimlərdir?

Bu məsələ barəsində alimlər müxtəlif fikirlər səsləndirmişlər. Lakin daha üstün rəy ondan ibarətdir ki, Əhli-beyt deyildikdə Haşimi övladları nəzərdə tutulur. Çünki sədəqə almaq onlara haram buyurulmuşdur.[1] Muslim "Səhih" əsərində Zeyd ibn Ərqamın ﵁ belə dediyini rəvayət etmişdir: "Bir gün Rəsulullah ﷺ Məkkə ilə Mədinə şəhəri arasında Xum adlanan yerdə bizə xütbə verdi. O Allaha həmd sənalar etdikdən sonra bizə moizələr verib *bəzi şeylər* xatırladı, sonra da belə buyurdu: "Ey insanlar! Şəkk yoxdur ki, mən də bir insanam. Ola bilsin ki, Allah öz elçisini (mənim canımı almaqdan ötrü) göndərsin və mən də ona tabe olum. Sizə iki şeyi qoyub gedirəm. Onlardan birincisi Allahın kitabıdır, onda hidayət və nur vardır. Allahın kitabına əməl edərək ondan möhkəmcə yapışın." Beləcə o, insanları Allahın kitabına təşviq etdikdən sonra buyurdu: "Sonra Əhli-beytimdir. Allah xatirinə Əli-beytimi də sizə tapşırıram, Allah xatirinə Əhli-beytimi də sizə tapşırıram, Allah xatirinə Əhli-beytimi də sizə tapşırıram." Hədisin ravilərindən biri Husayn soruşdu: "Ey Zeyd! Peyğəmbərin ﷺ Əhli-beyti kimlərdir? Məgər onun xanımları Əhli-beytdən deyillərmi?" O dedi: "Bəli, Peyğəmbərin ﷺ xanımları da Əhli-beytdəndirlər. Lakin ümumən Əhli-beyt deyildikdə Peyğəmbərdən ﷺ sonra özlərinə sədəqə qəbul etmək haram buyurulmuş kəslər nəzərdə tutulur." O, yenə soruşdu: "Onlar kimlərdir?" O, dedi: "Əlinin ailəsi, Əqilin ailəsi, Cəfərin ailəsi və Abbasın ailəsi…"[2]

Başqa bir dəlil də odur ki, Abdulmuttalib ibn Rabiə ibn əl-Haris ibn Abdulmuttəlib və Fadl ibn Abbas ﵄ Peyğəmbərin ﷺ yanına gəlib evlənmək üçün sədəqə almalarına icazə istədikdə Peyğəmbər ﷺ onlara belə cavab verdi: "Şübhəsiz ki, sədəqə insanların artığıdır. Bu isə Muhəmmədin ailəsinə yaraşmaz."[3]

---

[1] Kim bu məsələnin təfsilatına varmaq istəyirsə əs-Səxavinin "İrtiqa əl-Ğuraf" əsərinə, səhifə 127-yə baxsın.

[2] Muslim, "Səhabələrin fəzilətləri" kitabı, "Əlinin fəzilətləri" fəsli № 2408.

[3] Muslim, "Peyğəmbərin ailəsinə sədəqədən istifadə etməyin qadağan olunması" fəsli № 1076.

Bu dəlillərə əsasən Əlinin, Cəfərin, Əqilin, Abbasın, Əbu Ləhəbin, Haris ibn Abdulmuttalibin övladları kimi, Peyğəmbərin ﷺ İslamı qəbul etmiş bütün əmisi oğulları, Peyğəmbərin ﷺ Əhli-beytindəndirlər.

## Peyğəmbərin ﷺ xanımları da Əhli-beytdəndirlər

İzzət və Cəlal Sahibi olan Allah buyurur: **"Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Rəsuluna itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir."**[1] Ayə açıq-aşkar xanımların Əhli-beytdən sayıldıqlarını göstərir. Lakin bu yalnız onların Əhli-beytdən sayılmaları anlamında deyil. Sadəcə bu məqamda onlar xüsusi olaraq qeyd olunurlar.

İkrimə rəvayət edir ki, İbn Abbas رضي الله عنهما bu ayə barəsində belə demişdir: "Bu ayə Peyğəmbərin ﷺ xanımları barəsində nazil olmuşdur." Sonra İkrimə dedi: "Bu ayələrin Peyğəmbərin ﷺ xanımları barəsində nazil olunması xüsusunda kim istərsə onunla lənətləşərəm."[2]

İbn Qeyyim Peyğəmbərin ﷺ xanımlarını Əhli-beytdən sayanların dəlillərini gətirərək bu fikri "Cəla əl-Əfham" əsərində (səh. 311-333) zikr etmiş və demişdir: "Həmin səbəbə oxşar olduğu üçün ayədə Peyğəmbərin ﷺ xanımları xüsusi olaraq qeyd olunur. Çünki onların Peyğəmbərlə ﷺ bağlılığı nəsəbə görə olmasa da belə həmin xanımların istər Peyğəmbər ﷺ sağ ikən, istərsə də vəfat etdikdən sonra başqalarına ərə getmələri haramdır. Demək onlar Peyğəmbərin ﷺ həm bu dünyada, həm də axirətdə xanımları sayılırlar. Bu səbəbdən də onlarla Peyğəmbərin ﷺ arasında olan bağlılıq nəsəbə görə olan bağlılıq məqamında sayılır. Peyğəmbər ﷺ onlar barəsində özü xəbər vermişdir. Bu səbəbdən də düzgün rəy – İmam Əhmədin dediyi kimi – sədəqənin onlara da haram olmasıdır. Çünki sədəqə insanların artığıdır. Uca Allah isə bu pak adamları insanların artığından yüksəkdə tutmuşdur."

---

[1] əl-Əhzab surəsi, 33.

[2] "Siyər Əlam ən-Nubələ" əsəri, 2/380. Kitabı təhqiq edən alim rəvayətin həsən olduğunu bildirmişdir.

Çox qəribədir! Necə ola bilər ki, aşağıdakı hədislərə Peyğəmbərin ﷺ xanımları şamil olunsun!?

Peyğəmbər ﷺ demişdir: "Allahım Muhəmmədin ailəsinin ruzisini onları doyduracaq qədər et."[1]

Qurban barəsində isə belə demişdir: "Allahım bu Muhəmməd və onun ailəsinin adındandır."[2]

Aişədən رضي الله عنها rəvayət olunur ki, "Muhəmmədin ﷺ ailəsi heç vaxt buğda çörəyindən doyunca yeməmişdir."[3]

Habelə Peyğəmbər ﷺ demişdir: "Allahım Muhəmmədə və onun ailəsinə xeyir-dua ver."[4]

Amma bu hədisə onun xanımları şamil olunmasın?

"Şübhəsiz ki, sədəqə Muhəmmədə və onun ailəsinə haram buyurulmuşdur."[5]

Halbuki, Peyğəmbərin ﷺ xanımlarının insanların artığından uzaq olmaları daha məqsədəuyğundur.

Birdən desələr ki, əgər sədəqə Peyğəmbərin ﷺ xanımlarına haramdırsa onda gərək onların azad etdikləri kölələrə də haram olsun. Necə ki, Haşim oğullarına sədəqə haram olduğu üçün, onların azad etdikləri kölələrə də haram oldu. Amma Səhih hədisdə rəvayət olunur ki, Aişənin رضي الله عنها mövlası (azad etdiyi köləsi) Bəriraya sədəqə olaraq ət verilmiş, o da onu yemişdi. Peyğəmbər ﷺ isə bunun haram olduğunu ona söyləməmişdi.

**Cavab:** Əslində bu Peyğəmbərin ﷺ xanımlarına sədəqə yeməyi caiz görənlərin gətirdikləri bir şübhədir. Bu şübhənin cavabı odur ki, Peyğəmbərin ﷺ xanımları Peyğəmbərin ﷺ kökündən olmadığına görə sədəqə onlara birbaşa haram olmamışdır. Sədəqə onlara

---

[1] Hədisi Muslim "Zəkat" kitabında, "Dolanışıq üçün ğərəkli olan ərzaqlar və aza qane olmaq" fəslində (№ 1055) Əbu Hureyrədən رضي الله عنه rəvayət etmişdir.

[2] Əbu Davudun "Sünən" əsəri, "Həccin ayinləri" kitabı, "Saçları yapışqan bir maddə ilə yapışdırmaq" fəsli № 1750. Şeyx Albani bu hədisi "Səhih" hesab etmişdir.

[3] Bu hədis Buxarinin "Səhih" əsərində, "Yeməklər" kitabının "Peyğəmbərin ﷺ və onun səhabələrinin yedikləri" fəslində bu ləfzə yaxın mənada rəvayət edilmişdir № 5416. Muslimin "Səhih" əsəri, 2970.

[4] Buxarinin "Səhih" əsəri, "Təfsir" kitabı, "Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər" fəsli № 4797.

[5] Muslim № 1072.

sadəcə Peyğəmbərə ﷺ haram olduğu üçün haram olmuşdur. Axı Peyğəmbərlə ﷺ ailə qurmamışdan öncə onlara sədəqə halal idi. Demək Peyğəmbərin ﷺ xanımları bu qadağanın bir qoluna aiddirlər. Azad olunmuş kölələrin ağalarına nəyinsə birbaşa haram olunması həmin kölələrə də şamil olunur. Çünki onlar da bu qadağanın bir qoluna aiddirlər. Odur ki, Peyğəmbərin ﷺ kökündən olduqlarına görə Haşimi oğullarına sədəqə birbaşa haram buyurulduğu üçün bu haramlıq onların azad etdikləri kölələrə də aid edilir. Amma Peyğəmbərin ﷺ xanımlarına sədəqə Peyğəmbərə ﷺ görə haram olduğu üçün bu haramlıq həmin xanımların azad etdikləri kölələrə aid edilmir. Çünki bu həmin qadağanın qolunun qolu hesab edilir.

Uca Allah buyurur: **"Ey Peyğəmbərin zövcələri! Sizlərdən hər kim açıq-aşkar bir çirkin iş görsə, onun əzabı ikiqat artar. Bu, Allah üçün asandır. Sizlərdən hər kim Allaha və Onun Rəsuluna itaət edib yaxşı işlər görsə, ona mükafatını ikiqat verərik. Biz onun üçün bol ruzi hazırlamışıq. Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər *Allahdan* qorxursunuzsa, *yad kişilərlə* nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan kəs tamaha düşər. *Şəriətə* müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Rəsuluna itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, *hər şeydən* Xəbərdardır."**[1]

Bu ayələrdən bəlli olur ki, Peyğəmbərin ﷺ xanımları Əhli-beytdən sayılırlar. Çünki ayələrdəki xitabların hamısı onlara olunur. Odur ki, onları ayələrdəki xitabların heç birindən kənarlaşdırmaq olmaz. Daha doğrusunu isə Allah bilir." İbn Qeyyimin sözləri burada bitir. Güman edirəm ki, Allahın izni ilə onun sözləri kifayət edər.

---

[1] əl-Əhzab surəsi, 30-34.

# İkinci bəhs

## Əhli-beytin fəzilətləri

Uca Allah öz kitabında buyurur: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir."**[1]

Muslimin "Səhih" əsərində Yəzid ibn Həyyanın belə dediyi rəvayət olunur: "Bir dəfə mən, Husayn ibn Sibrə və Ömər ibn Muslim ilə birlikdə Zeyd ibn Ərqamın ﷺ yanına getmişdik. Gəlib onun yanına əyləşdikdə Husayn ona dedi: "Ey Zeyd, sən bir çox xeyrə nail olmusan. Peyğəmbəri ﷺ görmüsən, onun söylədiklərini dinləmisən, onunla birlikdə vuruşmuş və arxasında namaz qılmısan. Ey Zeyd sən bir çox xeyirə nail olmusan. Nə olar bizə də Peyğəmbərdən ﷺ eşitdiklərindən söhbət aç." O dedi: "Ey qardaşım oğlu, mən artıq yaşa dolmuş və qocalmışam. Ona görə Peyğəmbərdən ﷺ eşitdiyim bəzi şeyləri də unutmuşam. Odur ki, sizə nəyi danışsam onu qəbul edin, danışmadığım məsələlərə isə məni mükəlləf etməyin. Bir gün Rəsulullah ﷺ Məkkə ilə Mədinə arasında Xum adlanan yerdə bizə xütbə verdi. O Allaha həmd sənalar etdikdən sonra bizə moizələr verib *bəzi şeylər* xatırladı, sonra da belə buyurdu: "Diqqət edin ey insanlar! Şəkk yoxdur ki, mən də bir insanam. Ola bilsin ki, Allah öz elçisini (mənim canımı almaqdan ötrü) göndərsin və mən də ona tabe olum. Sizə iki şeyi qoyub gedirəm. Onlardan birincisi Allahın kitabıdır, onda hidayət və nur vardır. Allahın kitabına əməl edərək ondan möhkəmcə yapışın." Beləcə o, insanları Allahın kitabına təşviq etdikdən sonra buyurdu: "Sonra Əhli-beytimdir. Allah xatirinə Əhli-beytimi də sizə tapşırıram, Allah xatirinə Əhli-beytimi də sizə tapşırıram, Allah xatirinə Əhli-beytimi də sizə tapşırıram." Hədisin ravilərindən biri Husayn soruşdu: "Ey Zeyd! Peyğəmbərin ﷺ Əhli-beyti kimlərdir? Məgər onun xanımları Əhli-beytdən deyillərmi?" O dedi: "Bəli, Peyğəmbərin ﷺ xanımları da Əhli-beytdəndirlər. Lakin ümumən Əhli-beyt deyildikdə Peyğəmbərdən ﷺ sonra özlərinə sədəqə qəbul etmək haram buyurulmuş kəslər nəzərdə tutulur." O, ye-

[1] əl-Əhzab surəsi, 33.

nə soruşdu: "Onlar kimlərdir?" O, dedi: "Əlinin ailəsi, Əqilin ailəsi, Cəfərin ailəsi və Abbasın ailəsi…" O soruşdu: "Bunların hamısına sədəqə almaq haramdırmı?" O dedi: "Bəli."[1]

Buxarinin "Səhih" əsərində Əbu Humeyd əs-Saididən ﷺ belə rəvayət olunur: "Bir gün Peyğəmbərdən ﷺ soruşdular: "Ey Allahın Rəsulu, sənə necə salavat deyək?" Peyğəmbər ﷺ buyurdu: "Deyin ki: "Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə, onu xanımlarına və zürriyyətinə də xeyir-dua ver. Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə, onun xanımlarına və zürriyyətinə də bərəkət ver. Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!"[2]

Uca Allah İslamın əsas rüknü olan namazda Peyğəmbərin ﷺ Əhli-beytənə salavat deməyi buyurmuşdur. Möminlərin əmiri Ömər ibn əl-Xəttabdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurmuşdur: "Qiyamət günü mənim səbəbimdən və nəsəbimdən başqa bütün səbəblər və nəsəblər qırılacaqdır."[3]

---

[1] Muslim, "Səhabələrin fəzilətləri" kitabı, "Əlinin fəzilətləri" fəsli № 2408.

[2] Buxarinin "Səhih" əsəri, "Dualar" kitabı, "Peyğəmbərdən qeyrisinə salavat gətirmək olarmı?" fəsli № 3660.

[3] Bu hədisi Təbərani "əl-Mocəm əl-Əvsat" əsərində (№ 5606) Ömərdən ﷺ rəvayət etmişdir. Şeyx Albani "Silsilətu əl-Əhadis əs-Səhihə" əsərində, 5/58, (№ 2036) demişdir: "Bu hədis Abdullah ibn Abbasdan, Ömər ibn əl-Xəttabdan, Misvar ibn Məxrəmədən və Abdullah ibn Ömərdən ﷺ rəvayət olunmuşdur."

# Üçüncü bəhs

## Müsəlmanların Əhli-beyt barədə etiqadları

Şübhəsiz ki, Haşimilərin nəsil şəcərəsi ən şərəfli nəsil hesab olunur. Müsəlmanların Haşimi övladlarına bəslədikləri sevgi Peyğəmbərə ﷺ olan sevgilərindən irəli gəlir. Müsəlman olduqlarına, üstünlüklərinə, İslamı ilk əvvəl qəbul etdiklərinə, Peyğəmbərlə ﷺ qohum olduqlarına və Peyğəmbərin ﷺ Əhli-beyt xüsusundakı vəsiyyətinə görə Əhli-beyti sevmək vacib əməllərdən sayılır və hər bir müsəlman bu məhəbbətə görə savab qazanır.

Əhli-beyti sevmək xüsusunda insanlar iki qrupa bölünürlər: ifrata[1] varanlar, təfritdə[2] olanlar. Bunların hər ikisi həddi aşmaq hesab olunur. Düzgün rəy isə onları sevməyin vacibliyini deməkdir. Əslində ifrata və təfritə varmadan onları sevmək elə Peyğəmbəri ﷺ sevmək deməkdir. Peyğəmbərin ﷺ həm dünyada, həm də axirətdə zövcələri sayılan möminlərin anaları da Əhli-beytdən sayılırlar. Əhli-beytin nə qədər böyük fəzilətləri və üstünlükləri olsa da öz aralarında onların bəziləri fəzilət baxımından digərlərini üstələmişdir. Çünki Allahın Rəsulundan savayı heç kəs ﷺ məsum (günahsız) deyildir.

## Əhli-beytdən hesab olunmağın əsas şərtləri:

- Onlar İslam dinində olmalıdırlar. Həmin nəsildən kafir olanları sevib dost tutmaq olmaz. Çünki yalnız qohumluq kifayət etmiş olsaydı Əbu Ləhəbə kifayət edərdi!!

- Onlar Peyğəmbərin ﷺ yoluna tabe olmalıdırlar. Muslimin "Səhih" əsərində belə deyilir: "Agah olun ki, əbu filankəsin[3] ailəsi mənim dostlarım deyillər. Mənim dostum ancaq Allah və əməlisaleh möminlərdir."[4]

---

[1] Həddi aşmaq.

[2] Haqqını verməmək.

[3] Burada qeyri-müsəlmanlar nəzərdə tutulur. Kafir yaxın adam olsa belə, onu dost tutmaq olmaz.

[4] Muslimin "Səhih" əsəri, "İman" kitabı, "Möminlərin bir-biriləri ilə dost olmaları" fəsli № 215.

Mötəbər İslam alimləri də əqidə kitablarında bunun vacibliyini vurğulamışlar. Həmin alimlərdən bəziləri aşağıdakılardır:

* İmam ət-Təhavi öz məşhur əqidə kitabında (vəfatı: hicri 321)
* İmam əl- Bərbəhari (vəfatı: hicri 329)
* Əl-Acurri "əş-Şəriə" əsərində (vəfatı: hicri 360)
* Əl-İsfraini (vəfatı: hicri 471)
* Əl-Qəhtani "ən-Nuniyyə" əsəri (vəfatı: hicri 378)
* İbn Qudəmə əl-Məqdisinin "Lumətul etiqad" əsəri (vəfatı: hicri 620)
* Şeyxul İslam İbn Teymiyyənin "əl-Vasitiyyə" əsəri (vəfatı: hicri 728)
* İbn Kəsir əd-Diməşqinin təfsir əsəri (vəfatı: hicri 774)
* Muhəmməd ibn İbrahim əl-Vazir əl-Yəməni "İsar əl-Haqq Aləl-xalq" əsəri (vəfatı: hicri 840)
* Siddiq Həsən Xanın "əd-Dinul-xalis" əsəri (vəfatı: hicri 1307)
* Abdurrəhman ibn Nasir əs-Sədi "ət-Tənbihət əl-Latifə" əsəri (vəfatı: hicri 1376). Və başqa bu kimi əsərlər.[1]

[1] "İsticlabu İrtiqa əl-Ğuraf Bitəsarruf" səh. 165-178.

# Dördüncü bəhs
# Səhabələr, onların fəziləti və müsəlmanların onlarla bağlı etiqadları

## Səhabələr kimlərdir?

Hafiz İbn Həcər demişdir: "Səhabə barəsində rast gəldiyim ən doğru tərif belədir: Peyğəmbərlə ﷺ görüşüb, ona iman gətirən və müsəlman olaraq ölən kəsə səhabə deyilir."[1]

Bununla da Əhli-beytdən Peyğəmbəri ﷺ görüb İslamı qəbul edənlər də səhabə sayılırlar. Ona görə də əksər kitablarda Əhli-beytlə səhabələrin tərcümeyi halları, onlar arasında fərq qoymadan birlikdə qeyd olunur. Daha doğrusunu isə Allah bilir.

## Səhabələrin fəzilətlərinə dair dəlillər çoxdur. Onlardan bəziləri bunlardır:

Uca Allah buyurur: **"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz."**[2] "Əgər bu ayə ilk olaraq səhabələrə aid deyilsə, onda onlardan sonra kimə aid olacaq?."

Uca Allah buyurur: **"Beləliklə Biz sizi orta bir ümmət etdik."**[3] Orta ümmət deyildikdə ən xeyirlilər nəzərdə tutulur. Bu ümmətdən də ayənin hökmünə girməyə daha layiq olan məhz səhabələrdir. Əhli-beyt də elə səhabələrin daxilindədir.

Uca Allah buyurur: **"Möminlər *Hüdeybiyyədə* ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. *Allah* onların qəlbində olanı bildi, onlara *mənəvi* rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı."**[4]

Allah kimdən razı qalarsa həmin adam bu razılığın tələblərinə də layiqdir. Belə ki, Allahın heç vaxt həmin adama qəzəbi tutmayacaq. Çünki, Allah qeybi bilir və heç vaxt vədinə xilaf çıxmır.

---

[1] "əl-İsabə" əsəri, səh. 8.
[2] Ali İmran surəsi, 110.
[3] əl-Bəqərə surəsi, 143.
[4] əl-Fəth surəsi, 18.

Uca Allah buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar."**[1]

Uca Allah buyurur: **"Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə Allah kifayət edər."**[2]

Uca Allah buyurur: **"*Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Rəsuluna kömək edirlər. Doğru olanlar da məhz onlardır."**[3]

Uca Allah bu ayədə onların sadiq olduqlarını bildirir. Uca Allahın onları sadiq kimi vəsf etməsi dəlildir ki, onlar münafiq olmamışlar. Əgər səhabələrin yalnız hicrətləri, Allah yolunda vuruşmaları, canlarını və mallarını Allah yolunda xərcləmələri, müsəlman olmayan valideyin və övladlarına qarşı vuruşmaları, dində bir-birilərinə nəsihət etmələri, güclü iman və inam sahibi olmaları olsaydı bu üstünlüklər onlara kifayət edərdi.

## Pak sünnədə səhabələrin fəzilətləri ilə bağlı varid olmuş dəlillər

Abdullah ibn Muğaffəldən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Səhabələrim xüsusunda Allahdan çəkinin! Səhabələrim xüsusunda Allahdan çəkinin! Məndən sonra onlara qarşı olmayın. Onları sevən şəxs məni sevdiyinə görə onları sevmiş olar, onlara nifrət edən şəxs də mənə nifrət etdiyinə görə onlara nifrət etmiş olar. Onlara əziyyət verən, mənə əziyyət verər, mənə əziyyət verən də Allaha əziyyət vermiş olar. Allaha əziyyət verəni isə O, məhv edər."[4]

---

[1] ət-Tovbə surəsi, 100.

[2] əl-Ənfal surəsi, 64.

[3] əl-Həşr surəsi, 8.

[4] Tirmizinin "Sünən" əsəri, "Peyğəmbərin ﷺ səhabələrini söyən şəxs barəsində varid olanlar" fəsli, № 3862; Tirmizi demişdir: "Bu qərib hədisdir." Bəzi nüsxələrdə isə Tirmizi demişdir: "Bu həsən-qərib hədisdir." Qərib hədis deyildikdə, digər rəvayətlərdən fərqlənən tək bir ravinin rəvayət etdiyi hədis nəzərdə tutulur.

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Səhabələrimi söyməyin, səhabələrimi söyməyin. Canım Əlində olan Allaha and olsun ki, sizlərdən biriniz Uhud dağı boyda qızıl sədəqə vermis olsa, onlardan birinin verdiyi bir ovuc, hətta yarım ovuc sədəqəyə belə çata bilməz."[1]

Peyğəmbərin ﷺ "Ən xeyirli insanlar mənim dövrümdə yaşayan insanlardır, sonra onların ardınca gələnlərdir..."[2] – hədisi yekdil olaraq rəvayət olunmuşdur.

Bəhz ibn Həkim atasından, o da öz atasından belə rəvayət etmişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Diqqət edin, sizlər yetmiş ümmətin sonuncususunuz və siz Allah yanında onların ən xeyirliləri və ən hörmətlilərisiniz."[3]

## Peyğəmbərlərin ən xeyirlisi Muhəmmədin ﷺ səhabələri barədə müsəlmanların etiqadı

Əvvəldə zikr etdiyimiz Quran və hədislərdəki dəlillərə, habelə zikr etmədiyimiz digər dəlillərə əsasən qəti olaraq deyə bilərik ki, müsəlmanların Peyğəmbərlərin ən xeyirlisi olan Muhəmmədin ﷺ səhabələri barəsindəki etiqadı odur ki, onlar peyğəmbərlərdən sonra məxluqatın ən xeyirliləridirlər.

Müsəlmanlar Rəsulullahdan ﷺ sonra həm səhabələr tərəfindən, həm də Peyğəmbərin ﷺ özünün təşəbbüsü ilə xəlifə seçilmiş Əbu Bəkrin رضي الله عنه xilafətini, onun da özündən sonra xəlifə təyin etdiyi və səhabələrin də təsdiq etdiyi Ömərin رضي الله عنه xilafətini, habelə Ömərin təklifinə görə həm Şura əhlinin, həm də digər müsəlmanların seçiminə əsasən xəlifə seçilmiş Osmanın رضي الله عنه xilafətini, ondan da sonra həm Ammar ibn Yasir, Səhl ibn Huneyf kimi Bədr döyüşündə iştirak etmiş səhabələrin, həm də onlardan qeyrilərinin be-

---

[1] Muslimin "Səhih" əsəri, "Səhabələrin fəzilətləri" kitabı, "Səhabələri söyməyin haram olması" fəsli № 2540.

[2] Buxarinin "Səhih" əsəri, "Peyğəmbərin ﷺ səhabələrinin fəzilətləri" kitabı, "Peyğəmbərin ﷺ səhabələrinin fəzilətləri" fəsli № 3650; Muslimin "Səhih" əsəri, "Səhabələrin fəzilətləri" kitabı № 2533.

[3] İmam Əhmədin "Musnəd" əsəri, № 20041; Şüeyb əl-Arnaut hədisin isnadının həsən olduğunu bildirmişdir.

yəti ilə xəlifə seçilmiş Əli ibn Əbu Talibin ﷺ xilafətini təsdiq edirlər. Habelə onlar səhabələrin ﷺ digər müsəlmanlardan üstünlükləri ilə bağlı bu ayələri deyirlər. Uca Allah buyurur: **"Möminlər *Hüdeybiyyədə* ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı."**[1] Uca Allah buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar."**[2] Odur ki, Allah kimlərdən razı qaldığını təsdiq edərsə həmin şəxs Onun qəzəbinə səbəb ola biləcək əməllərdən uzaq olur. Yaxşı əməllər etdikləri təqdirdə onlara tabe olan tabiinlər də Allahın qəzəbindən uzaq olmuş olurlar. Tabiinlərə tabe olanlardan kimsə yaxşı işlər görməkdən uzaq olarlarsa bu vəsf onlara şamil olunmur.[3]

Həsən əl-Bəsridən səhabələrin arasında baş vermiş çəkişmə barəsində soruşduqda o çox gözəl bir cavab vermişdir. O belə demişdir: "Muhəmmədin ﷺ səhabələrinin iştirak etdikləri döyüşlərdə biz iştirak etməmişik, onların agah olduqlarından biz bixəbərik, onların bir olduqları məsələlərdə onlara tabe olmalı, ixtilaf etdikləri məsələlərdə isə susmalıyıq."

Sələflər, səhabələr arasında baş vermiş fitnə barəsində danışmağı tərk etməyi tövsiyə edərək belə demişlər: "Allah bizim əllərimizi onların qanlarına batmaqdan qorumuşdur. Elə isə gəlin dillərimizi onların qanlarına batırmayaq."[4]

Aşağıdakı ayə bizim üçün örnək olmalıdır:

**"Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!"**[5]

---

[1] əl-Fəth surəsi, 18.

[2] ət-Tovbə surəsi, 100.

[3] Əbu Bəkr əl-İsmailinin "Etiqadu Əimmətil-hədis" əsəri 1/17; İbn Qudəmə əl-Məqdisinin "Lumətul-etiqad" əsəri 1/17; İbn Əbu əl-İzzin "Şərhu əl-Əqiydətu ət-Təhaviyyə" əsəri, 1/485.

[4] "Aun əl-Məbud" əsəri, 12/274.

[5] əl-Həşr surəsi, 10.

# Beşinci bəhs

## Xilafət məfhumu

**Xəlifə:** Bir şəxsin davamçısına deyilir. Bu söz fəilə vəznində olsa belə failə vəzninin mənasında işlənir. Peyğəmbər ﷺ səfərə çıxdığı zaman deyərdi: "Allahım, səfərdə dost, ailəmiz üçün xəlifə (hami) Sənsən."[1] Həmçinin Peyğəmbər ﷺ demişdir: "Allah yolunda döyüşçü hazırlayan kəs döyüşmüş kimidir və hər kim döyüşən kəsin ailəsinin qayğısına qalarsa döyüşmüş kimidir."[2] Uca Allah Qurani Kərimdə buyurur: **"Geri qalan bədəvilər sənə deyəcəklər..."[3]** Həmçinin buyurur: ***"Döyüşə getməyib*** **arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq** ***evdə*** **qalmalarına sevindilər."[4]**

Beləliklə xəlifə sözünün mənası özündən əvvəlki şəxsin davamçısı olmaqdır. Bu məqamda xələf, yəni davamçı sözünün işlənməsi münasib hesab olunur. Əbu Bəkr əs-Siddiq də Peyğəmbərin ﷺ xələfi idi. Belə ki, o, Peyğəmbərin ﷺ vəfatından sonra onun ümmətində onu əvəz edirdi. Hətta Peyğəmbər özü də həcc, ümrə və ya döyüş məqsədi ilə səfərə çıxdıqda Mədinədə öz yerinə müvəqqəti olaraq bir nəfəri xəlifə qoyardı. Bəzən o, öz yerinə İbn Ummu Məktumu, bəzən də başqalarını qoyardı. Təbuk döyüşündə isə o, öz yerinə Əli ibn Əbu Talibi qoymuşdu.

Rəvayət olunur ki, Salman demişdir: "Xəlifə o kədir ki, o, Allahın kitabı ilə hökm verir və kişinin öz ailəsinə qarşı qayğıkeş olduğu kimi xalqa qayğı göstərir." Kəb əl-Əhbar onun bu sözünü təsdiqləyərək: "Doğru deyir." – söyləmişdir.[5]

Şəriətdə bunun əsası Peyğəmbərin ﷺ bu hədisidir:

Abdurrəhman ibn Amr əs-Suləmidən rəvayət olunur ki, o, İrbad ibn Sariyənin belə dediyini eşitmişdir: "Bir dəfə Allahın Rəsulu ﷺ bizlərə elə bir moizə verdi ki, gözlərimiz yaşla doldu, qəlb-

---

[1] Səhih Muslim, 1342.
[2] Səhih Muslim, 1895.
[3] əl-Fəth surəsi, 11.
[4] ət-Tovbə surəsi, 81.
[5] Qasim ibn Salamın "əl-Əmval" əsəri, 1/13.

lərimiz titrədi. Biz dedik: "Ey Allahın Rəsulu, sanki bu vida moizəsidir. Bizlərə tövsiyən nədir?" O, buyurdu: "Sizləri özümdən sonra gecəsi gündüz kimi aydın olan bir yol üzərində qoyub gedirəm, bu yoldan azan həlak olar. Məndən sonra yaşayanlar bir çox ixtilafların şahidi olacaqlar. Sizlərə bəlli olan mənim və hidayətə varmış raşidi xəlifələrimin yolu ilə gedin."[1]

[1] Əhmədin "Müsnəd" əsəri, 28/367.

# Birinci fəsil

## Əbu Bəkr əs-Siddiqin رضي الله عنه Əhli-beytlə əlaqəsi

**Birinci bəhs: Əbu Bəkrlə Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər.**

**İkinci bəhs: Əhli-beytin Əbu Bəkrin رضي الله عنهم fəzilətləri ilə bağlı rəvayət etdikləri hədislər.**

**Üçüncü bəhs: Əhli-beytin öz övladlarına Əbu Bəkr əs-Siddiqin kunya və adlarını verməlləri.**

**Dördüncü bəhs: Əhli-beytlə Əbu Bəkrin رضي الله عنهم ailəsi arasındakı qohumluq əlaqələri.**

**Beşinci bəhs: Fədək şübhəsi.**

## Birinci bəhs

## Əbu Bəkrlə Əhli-beytin ﷺ bir-birilərini tərifləmələri barəsində rəvayətlər.

Budur Əbu Bəkr Əs-Siddiq ﷺ Əhli-beyti layiqli şəkildə tərif edir. əl-Buxarinin "Səhih" əsərində nəql olunan hədisdə Əbu Bəkr ﷺ Əliyə ﷺ belə demişdir: "Canım əlində olan Allaha and olsun ki, Rəsulullahın ﷺ qohumları ilə əlaqə saxlamağım, öz qohumlarımla əlaqə saxlamağımdan daha sevimlidir." [1]

Həmçinin İbn Ömərdən nəql olunan hədisdə Əbu Bəkr ﷺ belə demişdir: "Muhəmmədi ﷺ, onun Əhli-beyti vasitəsilə təqib edin." [2]

Həmçinin Əbu Yəlanın "Müsnəd" əsərində Uqbə ibn əl-Harisin ﷺ belə dediyi nəql olunur: "Rəsulullahın ﷺ vəfatından bir neçə gecə sonra bir dəfə Əbu Bəkr ﷺ əsr namazını qıldıqdan sonra çıxıb gəzməyə başladı. Bu vaxt o, Həsənin ﷺ uşaqlarla oynadığını gördü və onu çiyninə otuzdurub dedi: "Atam sənə qurban! Ey Əliyə deyil, Peyğəmbərə oxşayan." Həmin vaxt Əli ﷺ kənardan onu izləyib gülürdü." [3]

Hədisdə "Rəsulullahın vəfatından bir neçə gecə sonra" ifadəsi bəzi tarix kitablarında Əlinin ﷺ Əbu Bəkrə ﷺ beyət etməməsi və bir neçə aylıq camaatdan ayrı düşməsi fikrini alt-üst edir. Şübhəsiz ki, bu fikir batil və əsassızdır və Peyğəmbərin ﷺ sevimli nəvələrinin atası Əlinin məqamına da əsla yaraşmayan fikirlərdir. Onun səhabə qardaşlarını tərk etməsi, camaatı parçalaması və ya iddia olunduğu kimi öz haqqı olan xilafətdən imtina etməsi fikri mümkünsüzdür.

---

[1] Buxarinin "Səhih" əsəri, "Peyğəmbərin ﷺ qohumlarının tərifəlayiq xüsusiyyətləri" fəsli, № 3712; "Bihar əl-Ənvar" əsəri, 43/301.

[2] Buxarinin "Səhih" əsəri, "Həsən və Hüseynin ﷺ tərifəlayiq xüsusiyyətləri" fəsli, № 3713.

[3] Əbu Yəlanın "Musnəd" əsəri, № 38, "Dar əl-Məmun Litturas" nəşriyyatı, Huseyn Səlim Əsəd 1984; Hədisi təhqiq edən alim onun isnadının səhih olduğunu bildirmişdir. Hədisin əsli isə əl-Buxaridədir № 3542; "Kəşf əl-Ğummə fi Mərifəti əl-Əimmə", 2/16.

Çünki bütün səhabələr həmin vaxt əs-Siddiqin xəlifə seçilməsi xüsusunda ittifaq etmişdilər. Əli ibn Əbu Talib və Zubeyr ibn Əvvam da həmin beyətdə iştirak etmişdilər. Buna dəlil olaraq Beyhəqinin öz isnadı ilə Əbu Səid əl-Xudridən nəql etdiyi hədisi göstərmək olar. Əbu Səid əl-Xudri رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ dünyasını dəyişdikdən bir müddət sonra səhabələr Səd ibn Ubədənin evinə toplandılar. Onların arasında Əbu Bəkr və Ömər də var idi. Bu zaman ənsardan bir nəfər qalxıb danışmağa başladı və dedi: "Siz bilirsiniz ki, biz Rəsulullahın ﷺ ənsarlarıyıq. Demək biz onun ənsarları olduğumuz üçün xəlifəsi də olmalıdır." Bu zaman Ömər ibn əl-Xəttab dedi: "Nitq söyləyəniniz doğru deyir, bundan başqa bir söz demiş olsaydınız əsla sizə beyət etməzdik." Bunu dedikdən sonra o, Əbu Bəkrin əlindən tutub dedi: "Bu, sizin dostunuzdur, ona beyət edin." Beləliklə Ömər ona beyət etdi, sonra da mühacirlər və ənsarlar ona beyət etdilər. Sonra Əbu Bəkr minbərə çıxaraq insanların üzlərinə nəzər saldı və Zubeyri görmədi. O, Zubeyri çağırtdırıb dedi: "Ey Peyğəmbərin ﷺ bibisi oğlu! Müsəlmanların səfini parçalamaqmı istəyirsən?" O dedi: "Məni qınama ey Rəsulullahın xəlifəsi." Bunu deyərək o, qalxıb Əbu Bəkrə beyət etdi. Sonra o, yenə də insanların üzünə nəzər saldı və Əlini görmədi. O, Əli ibn Əbu Talibi də çağırtdırdı və dedi: "Ey Peyğəmbərin ﷺ əmisi oğlu və kürəkəni! Müsəlmanların səfini parçalamaqmı istəyirsən?" O dedi: "Məni qınama ey Rəsulullahın xəlifəsi." Bunu deyərək o, Əbu Bəkrə beyət etdi." Hafiz Əbu Əli ən-Nisaburi demişdir: "Mən İbn Xuzeymənin belə dediyini eşitmişəm: "Bir dəfə Muslim ibn Həccac gəlib məndən bu hədis barədə soruşdu. Mən də hədisi bir parça kağıza yazaraq ona oxudum." O, dedi: "Bu hədis bir dəvəyə bərabərdir." Dedim: "Bu hədis bir dəvəyə deyil, bədrlənmiş aya bərabərdir." Hədisi İmam Əhməd müxtəsər olaraq rəvayət etmiş, əl-Hakim onu "əl-Mustədrak" əsərində Əfvan ibn Muslimdən, o da Vuheybdən qeyd olunduğu kimi uzun variantda nəql etmişdir.[1]

Bu hadisə heç də Aişədən رضي الله عنها nəql olunan hədislə ziddiyyət təşkil etmir. Belə ki, o, Əlinin رضي الله عنه Peyğəmbərin ﷺ vəfatından altı

[1] əl-Bidayə və ən-Nihayə əsəri, 6/301.

ay sonra beyət etdiyini demişdir. Ona görə ziddiyyət yoxdur ki, Aişə ﵂ öz bildiyini danışmış, Əbu Səid əl-Xudri ﵁ də öz bildiyini danışmışdır. Qaydaya əsasən bilən kəsin sözü bilməyənin sözündən daha üstün hesab olunur.

Aşağıdakı hədis barədə düşün: Əli ibn Əbu Talib ﵁ demişdir: "Qurani Kərim xüsusunda insanlar arasında ən çox əcr qazanan Əbu Bəkr əs-Siddiqdir. İlk dəfə Quranı bir araya toplayan o olmuşdur."[1]

Həmçinin əd-Daraqutni "Fədail əs-Sahəbə və Mənaqibihim" əsərində, öz isnadı ilə Abdullah ibn Cəfərin ﵁ belə dediyini rəvayət etmişdir: "Allah Əbu Bəkrə rəhmət eləsin! O, bizim rəhbərimiz idi, necə də gözəl rəhbər idi. Ondan daya yaxşı tərbiyəçi görmədik.[2] Bir dəfə biz onunla birlikdə evdə oturmuşduq. Bu zaman Ömər ﵁ gəlib izin istədi. Adətən üç dəfə izin istənilərdi. O birinci dəfə izin istədikdə ona izin verilmədi. O ikinci dəfə yenə izin istədi. Bu dəfə də ona izin verilmədi. O üçüncü dəfə izin istədikdə Əbu Bəkr ﵁ ona dedi: "İçəri gir!" O, Peyğəmbərin ﷺ bir neçə səhabəsi ilə birlikdə içəri daxil oldu. Ömər ﵁ Əbu Bəkrə ﵁ dedi: "Ey Rəsulullahın ﷺ xəlifəsi! Bizi nə üçün qapıda gözlətdin? Biz iki dəfə izin istədik amma izin verilmədi, yalnız üçüncü dəfədə izin verildi." Əbu Bəkr ﵁ dedi: "Cəfərin övladları yemək yeyirdilər. Qorxdum ki, içəri girib onların yeməklərinə şərik olasınız."[3]

Hədisdə Əbu Bəkrin Cəfərin ﵁ övladlarına nə qədər qayğı göstərdiyi və onları qoruması açıqlanır.

## İmam Muhəmməd əl-Baqirin tərifləri:

İbn Səd Bəssəm əs-Seyrafinin belə dediyini rəvayət etmişdir: "Mən Əbu Cəfərdən Əbu Bəkr və Ömər barədə soruşdum." O dedi: "Allaha and olsun ki, mən onların hər ikisini özümə dost tutur

[1] əl-Acurrinin "əl-Şəriə" əsəri, 4/1783.

[2] Belə ki, Abdullah ibn Cəfərin anası Əsma bint Umeys ﵂ Cəfər şəhid olduqdan sonra Əbu Bəkrə ﵁ ərə getmiş və ondan Muhəmmədi dünyaya gətirmişdi. Əbu Bəkrin ﵁ vəfatından sonra isə o, Əli ibn Əbu Talibə ﵁ ərə getmiş və ondan da dünyaya uşaq gətirmişdir

[3] əd-Daraqutninin "Fədail əs-Sahəbə va Mənaqibihim" əsəri, mövcud olan on birinci cüz, "Məktəbətu əl-Ğutəba əl-Əsəriyyə" nəşri. Mədinə şəhəri, səh. 48.

və hər ikisi üçün bağışlanma diləyirəm. Əhli-beytimdən qarşılaşdığım hər kəs də onları özlərinə dost hesab edirdilər."[1]

Həmçinin demişdir: "Fatimənin övladlarının yekdil rəyinə görə Əbu Bəkr və Ömər barəsində yalnız yaxşı sözlər söylənilməlidir."[2]

Urva ibn Abdullah qılıncları bəzəməyin hökmü barədə ona sual verdikdə o, belə demişdir: "Qılıncı bəzəməkdə bir qəbahət yoxdur, çünki Əbu Bəkr əs-Siddiq də qılıncını bəzəyərdi." Urva dedi: "Sən ona Siddiq deyirsən?" Bu zaman o, yerindən dik atılaraq qibləyə tərəf yönəldi və dedi: "Bəli, Siddiq. Kim ona Siddiq demirsə Allah onun nə bu dünyada, nə də axirətdə heç bir sözünü təsdiqləməsin."[3]

İmam əl-Baqirin rəvayətinə görə bir bax gör Əli رضي الله عنه Əbu Bəkrlə رضي الله عنه Ömərə رضي الله عنه müxalif olmağı necə xoşlamazdı.[4]

Həbban ibn Hilal demişdir: Yezid ibn Zurey bizə belə demişdi: Muhəmməd ibn İshaq bizə belə demişdir: "Mən, Əbu Cəfər Muhəmməd ibn Əlidən soruşdum: "İnsanların istəyi ilə İraq torpaqlarına rəhbər seçilən şəxs yaxınlarının miras payı məsələsində necə hökm vermişdi?" O dedi: "O, Əbu Bəkrin və Ömərin رضي الله عنهما yolunu tutub getdi." Mən dedim: "Necə? Nə üçün? Axı siz deyirsiniz ki?..." O dedi: "Allaha and olsun ki, onun əhli-əyalı hər zaman onun rəyini əsas götürərdilər." Mən dedim: "Bəs ona mane olan nə idi?" O dedi: "Allaha and olsun ki, o istəmirdi ki, ona "Əbu Bəkrə və Ömərə رضي الله عنهما müxalif oldu" – desinlər."

## İmam Zeyd ibn Əli ibn Hüseynin tərifləri:

Haşim ibn əl-Bərid onun belə dediyini rəvayət etmişdir: "Əbu Bəkr رضي الله عنه şükr edənlərin imamı idi." Sonra o, bu ayəni oxudu: **"Allah şükür edənləri mütləq mükafatlandırar."** Sonra dedi: "Şübhəsiz ki, Əbu Bəkrdən uzaq düşmək Əlidən də uzaq düşmək anlamındadır."[5]

---

[1] "ət-Tabəqat" əsəri, 5/321.
[2] "Siyar əlam ən-Nubəla" əsəri, 4/406.
[3] "Siyər Əlam ən-Nubələ" əsəri, 4/408
[4] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 1/217.
[5] "Siyar əalam ən-Nubəla" əsəri, 5/390.

Həmçinin o, Əbu Bəkr və Ömər barəsində deyərdi: "Mən Əhli-beytimdən kiminsə onları xeyirdən başqa bir şeylə vəsf etdiyini eşitməmişəm."[1]

## Abdullah ibn Həsən ibn Həsən ibn Əlinin tərifləri:

Əhli-beytinin digər nümayəndələri kimi Abdullah ibn Həsən ibn Həsənin də yanında Raşidi xəlifələrin və səhabələrin özünəməxsus yerləri var idi.

Hafiz İbn Əsakir Əbu Xalid ibn əl-Əhmərin belə dediyini rəvayət etmişdir: "Bir dəfə mən Abdullah ibn Həsəndən Əbu Bəkr və Ömər barədə soruşduqda o dedi: "Onların hər ikisinə Allahın salavatı olsun. Onlara salavat verməyənlərin üzərinə isə xeyir-dua nəsib olmasın."[2] [3]

Həmçinin demişdir: "O iki nəfər yadıma düşdükdə onlar üçün Allaha dualar edir, bununla da İzzət və Cəlal Sahibi olan Allaha yaxınlaşıram."[4]

Onların aralarındakı əlaqələrin dərin olmasına Əbu Bəkrin həyat yoldaşı Əsma bint Umeysin aləm qadınlarının hörmətlisi olan Fatiməni yumasını da dəlil gətirmək olar. Ovn ibn Muhəmməd əl-

---

[1] Təbərinin "Tarixul-uməmi val-muluk" əsəri, 7/180.

[2] "Tarixi Diməşq" əsəri, 29/255-256.

[3] Uca Allah Qurani Kərimdə buyurur: "**Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir.**" (ət-Tovbə surəsi, 103). *Ayənin ərəbcəsində hərfi tərcümədə "salavat gətir" deyilir.* Demək "salavat" dua etmək deməkdir. Həmçinin Peyğəmbər ﷺ demişdir: "[Allahummə salli alə ali Əbi Əufə] Allahım! Əbu Əufənin ailəsinə xeyir-dua ver!" əl-Buxarinin "Səhih" əsəri, "Zəkat" kitabı, "İmamın zəkat verən adam üçün xeyir-duası" fəsli, (63). Həmçinin Cabir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, bir dəfə bir qadın Peyğəmbərə ﷺ "Mənim həyat yoldaşım üçün xeyir-dua ver!" – deyə müraciət etdi. Onda Peyğəmbər ﷺ belə dua etdi: "[Səlləllahu aleyki və zəucik] Allah sənə və sənin həyat yoldaşına xeyir-dua versin!" Hədisi Əbu Davud "Sünən" əsərində, "Quran səcdələri" kitabı, "Peyğəmbərdən ﷺ qeyrisinə salavat gətirmək" fəslində səhih isnadla rəvayət etmişdir.

Bütün bu dəlillərdən aydın olur ki, salavatın mənası duadır. İmam Abdullah ibn Həsən رحمه الله də məhz bu mənanı qəsd edirdi.

[4] "Tarixi Diməşq" əsəri, 29/255-256.

Haşimi anasından, o da Əsma bint Umeysdən rəvayət edir ki, Peyğəmbərin ﷺ qızı Fatimə vəsiyyət etmişdi ki, onu əri Əli ibn Əbu Talib yusun. Odur ki, (dünyasını dəyişdikdə) onu Əli ilə Əsma bint Umeys yudu."[1]

Əli ibn Hüseyn İbn Abbasdan rəvayət etmişdir ki, İlk dəfə mafə[2] Fatimə üçün düzəldilmişdir. Bunu da Fatiməyə Əsma bint Umeys öyrətmişdir. Əsma bunu həbəş torpaqlarında ikən görmüşdür.[3]

Beyhəqinin rəvayətində isə deyilir: Əbu Abdullah əl-Hafiz demişdir: Əbu Abdullah Muhəmməd ibn Yaqub əl-Hafiz demişdir: Muhəmməd ibn Abdulvəhhab demişdir: Əbdan ibn Osman əl-İtki Nisaburda demişdir: Əbu Damra İsmayıl ibn Əbu Xaliddən, o da Şabidən rəvayət edərək demişdir: "Fatimə رضي الله عنها xəstələndikdə Əbu Bəkr əs-Siddiq رضي الله عنه onun yanına gəlib izin istədi. Əli رضي الله عنه dedi: "Ey Fatimə, Əbu Bəkr sənin yanına gəlmək üçün izin istəyir." Fatimə dedi: "Ona izin verməyimi istəyirsənmi?" Əli dedi: "Bəli." Fatimə də ona icazə verdi. Əbu Bəkr də gəlib onu razı salacaq söhbət etdi və dedi: "Vallahi ki, mən evimi, malımı, əhli-əyalımı və qohumlarımı yalnız Allahın, Onun Rəsulunun və siz Əhli-beytin razılığını qazanmaq üçün tərk etmişəm." Beləcə onunla xeyli söhbət etdi və Fatimə ondan razı qaldı."[4]

**Fayda:** İbn Sədin "ət-Tabaqat əl-Kubra" əsərində, 8/23 deyilir:

Muhəmməd ibn Musa Ovn ibn Muhəmməd ibn Cəfər ibn Əbu Talibdən, o da anası Ummu Cəfərdən, o da nənəsi Əsma bint Umeysdən rəvayət edərək demişdir: "Mən sənin nənən Fatiməni baban Əli üçün hazırlamışdım. Onların döşəklərinin və yasdıqlarının içərisi lifdən ibarət idi. Əli o zaman Fatimə üçün gözəl bir ziyafət vermişdi. Həmin vaxt o ziyafətin bənzəri olmamışdı. O, öz qalxanını bir az arpa müqabilində bir yəhudinin yanında girov qoymuşdu."

---

[1] Abdurrəzzaqın "əl-Musənnəf" əsəri, 3/409; əl-Beyhəqinin "Sünən əl-Kubra" əsəri, "əl-Məarif" Hindistan nəşri, 3/396; Hakimin "əl-Mustədrak" əsəri, 3/179.

[2] İçərisinə cənazə qoyulub aparılan xərək.

[3] İbn Sədin "ət-Tabaqat əl-Kubra" əsəri, 8/28.

[4] Beyhəqi demişdir: "Bu yaxşı mürsəl hədisdir, isnadı isə Səhihdir." "Sünən əl-Beyhəqi", 6/301.

əl-Hakimin “əl-Mustədrak” əsərində, 3/173 deyilir:

Əbu Yezid əl-Mədəni Əsma bint Umeysin belə dediyini rəvayət etmişdir: “Mən Rəsulullahın ﷺ qızı Fatimənin toyunda iştirak etmişdim. Səhər açıldıqda Peyğəmbər ﷺ gəlib qapını döydü və dedi: “Ey Ummu Əymən, qardaşımı bura çağır.” Əsma dedi: “O sənin qardaşın ola-ola qızını ona verirsən?” Peyğəmbər ﷺ dedi: “Bəli ey Ummu Əymən.” Əli gəldikdə Peyğəmbər ﷺ onun üstünə su səpərək onun üçün dua etdi. Sonra edi: “Fatiməni bura çağır.” Əsma dedi: “Fatimə utana-utana yaxınlaşdı.” Peyğəmbər ﷺ ona dedi: “Sakit ol, mən səni Əhli-beytimdən ən çox sevdiyim birinə ərə vermişəm.” Əsma dedi: “Bunu deyərək o, onun da üstünə su səpdi. Sonra Rəsulullah ﷺ geri döndü və önündə bir qaraltı görüb dedi: “Bu kimdir?” Dedim: “Mənəm, Əsma bint Umeys.” Peyğəmbər ﷺ dedi: “Sən Rəsulullahın ﷺ qızının toyundan gəlirsən?” Dedim: “Bəli.” Sonra o, mənim üçün də dua etdi.”

Zəhəbi “ət-Təlxis” əsərində demişdir: “Bu hədisdə səhv vardır.”

Çünki Əsma bint Umeys həmin vaxt Həbəş diyarında idi və yalnız Xeybər döyüşündən sonra əri Cəfərlə birlikdə geri qayıtmışdı.

## İkinci bəhs

## Əhli-beytin Əbu Bəkrin ﵁ fəzilətləri ilə bağlı rəvayət etdikləri hədislər

**- Əlidən ﵁ nəql olunmuş rəvayət:**

Əli ﵁ demişdir: "Sizə bu ümmətin Peyğəmbərindən ﷺ sonra ən xeyirli insanı barədə xəbər verimmi? Bu Əbu Bəkrdir." Sonra o dedi: "Sizə bu ümmətin Əbu Bəkrdən sonra ən xeyirli insanı barəsində də xəbər verimmi? O da Ömərdir."[1]

## İzzət və Cəlal Sahibi olan Allahın onu xəlifə təyin etməsi ilə ümməti şərəfləndirməsi:

**- Əbu Vailin Əlidən ﵁ nəql olunmuş rəvayəti:**

Əbu Vail demişdir: "Əli ibn Əbu Talibdən ﵁ soruşdular: "Bizlərə özündən sonra xəlifə təyin etməyəcəksənmi?" O, dedi: "Rəsulullah ﷺ xəlifə təyin etmədiyi bir halda mən xəlifəmi təyin edim? Allah məndən sonra insanlara xeyir istəmiş olsa onları xeyirli bir insanın ətrafında birləşdirəcək. Necə ki, Peyğəmbərdən sonra Allah insanları ən xeyirli olan bir insan ətrafında birləşdirmişdi."[2]

---

[1] Hədisi əl-Buxari "Səhih" əsərində, Muhəmməd ibn Hənəfiyyədən, o da Əlidən rəvayət etmişdir № 3671. İmam Əhməd isə "Müsnəd" əsərində Əbu Cuheyfədən bir neçə yerdə (833, 836, 837) və başqalarından rəvayət etmişdir. Həmçinin hədis "əl-Fədail" əsərində (44, 41, 40); əl-Təbəraninin "əl-Kəbir" əsərində, Əbu Musandan, o da Əlidən 1/64; habelə Amr ibn Hureysdən, o da Əlidən 1/65 rəvayət etmişdir. Əbu Nueym "Əxbar əl-İsbahan" əsərində, 1/182; İbn Abdulbərr "əl-İstiab" əsərində öz isnadlarıyla ən-Nəzzal ibn Səburadan, o da Əlidən bir çox başqaları ilə birlikdə rəvayət etmişdir 2/252.

[2] Hədisi əl-Hakim "əl-Mustədrak" əsərində, "Mərifətus-sahəbə" kitabının "Əbu Bəkr ibn Əbu Quhafə" fəslində, 3/84, № 4467 rəvayət etmiş və onun isnadının Səhih olduğunu, lakin Buxari və Muslimin onları öz əsərlərində qeyd etmədiklərini demişdir. Zəhəbi də onun bu fikri ilə razılaşmışdır. Həmçinin hədisi Beyhəqi "Sünən əl-Kubra" əsərində, 8/149, № 16350; Bəzzar "Müsnəd" əsərində, 2/186, № 565 rəvayət etmişdir. Habelə hədisi Heysəmi "əl-Mucəm" əsərində 9/47, zikr etmiş və demişdir: "Bu hədisi Bəzzar rəvayət etmişdir. Hədisin isnadındakı İsmail ibn Əbu əl-Harisdən başqa bütün raviləri Buxarinin ravilərindəndir. İsmailin özü də etibarlı ravidir." İbn Kəsir "əl-Bidayə və ən-Nihayə" əsərində, 5/251 demişdir: "Hədisi Beyhəqi rəvayət etdikdən sonra onun isnadının "Ceyyid" olduğunu demişdir."

## Rəsulullahdan ﷺ sonra ən xeyirli rəhbər o idi:

**- Abdullah ibn Cəfərin رضي الله عنه rəvayəti:**

Rəvayət olunur ki, Abdullah ibn Cəfər demişdir: "Əbu Bəkr bizə rəhbərlik etmişdir. *Amma ondan sonra* insanlardan heç kəs onun kimi bizə rəhbərlik etməmişdir."[1]

## O, Peyğəmbərin ﷺ əməllərinin bənzərini etmiş və onun yolu ilə getmişdir:

**- Abduxeyrin Əlidən رضي الله عنه etdiyi rəvayət:**

Abduxeyr demişdir: "Bir dəfə Əli minbərə qalxıb Rəsulullahı ﷺ xatırlayaraq dedi: "Peyğəmbər ﷺ dünyasını dəyişdikdən sonra Əbu Bəkr xəlifə seçildi və o Peyğəmbərin ﷺ etdiyi əməlləri edərək onun yolunu davam etdi. Beləcə İzzət və Cəlal Sahibi olan Allah onun da canını aldı. Sonra Ömər xəlifə təyin olundu və o da özündən əvvəlkilərin etdiyi əməlləri edərək onların yolunu davam etdirdi və beləcə Allah onun da canını aldı."[2]

## Peyğəmbər ﷺ xəstələndiyi vaxt insanlara namaz qıldırması:

**- Abdullah ibn Abbasın رضي الله عنهما rəvayəti:**

İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ xəstələndikdə Əbu Bəkrə əmr etdi ki, insanlara namaz qıldırsın. Sonra o, bir az yüngüllük hiss edib məscidə çıxdı. Əbu Bəkr bunu hiss etdikdə geri çəkilmək istədi. Lakin Peyğəmbər ﷺ ona işarə etdi ki, davam etsin. Özü isə gəlib Əbu Bəkrin solunda dayandı və Əbu Bəkrin bitirdiyi ayənin davamını oxudu."[3]

---

[1] Hədisi İmam Əhməd əl-Fədail əsərində (148), İmam Şafii əl-Umm əsərində (1/163) rəvayət etmişlər. əl-Fədail əsərini təhqiq edən alimin dediyi kimi rəvayətin isnadı səhihdir.

[2] Hədisi İmam Əhməd "əl-Müsnəd" əsərində, № 1059, 1055 rəvayət etmiş, Şeyx Şueyb əl-Arnaut da onun isnadının həsən olduğunu bildirmişdir. "əl-Fədail" əsərində isə hədis № 72, 427, "əl-Fədail" əsərini təhqiq edən alim onun həsən olduğunu bildirmişdir.

[3] Hədisi İmam Əhməd "əl-Müsnəd" əsərində, № 3355, 2055 rəvayət etmiş, Şeyx Şüeyb əl-Arnaut da onun səhih olduğunu bildirmişdir. Həmçinin hədisi İbn Macə 1/391 və İbn Səd "ət-Tabaqat" əsərində 2/221 rəvayət etmişdir.

## Əbu Bəkr ﷺ Rəsulullahın ﷺ qardaşı və dostu idi:

**- Abdullah ibn Abbasın ﷺ rəvayəti:**

İbn Abbasdan ﷺ nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Əgər ümmətimdən özümə ən yaxın bir dost seçmiş olsaydım Əbu Bəkri seçərdim. Hərçənd o mənim qardaşım və dostumdur."[1]

## Əbu Bəkrin evinin qapısından başqa bütün qapıları bağlayın:

**- Abdullah ibn Abbasın ﷺ rəvayəti:**

İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ vəfatı ilə nəticələnən xəstəliyə tutulduğu zaman başı sarıqlı halda *məscidə* gəlib minbərdə oturdu. Allaha həmd-səna deyib mədh etdikdən sonra dedi: "Həqiqətən, insanlar arasında canını və malını *fəda etməkdə* mənə Əbu Bəkr ibn Əbu Quhafədən daha sadiq olan başqa birisi yoxdur. Əgər mən insanlar arasında özümə ən yaxın dost seçməli olsaydım, hökmən Əbu Bəkri dost seçərdim. Lakin İslamda qardaşlıq *bundan* əfzəldir. Elə isə Əbu Bəkrin qapısından başqa bu məscidə açılan bütün qapıları bağlayın!"[2]

## İbn Abbasın ﷺ Əbu Bəkrə ﷺ verdiyi təriflər:

**- Abdullah ibn Abbasın ﷺ rəvayəti:**

Abdullah ibn Abbasın ﷺ belə dediyi rəvayət olunur: "Mən Ömər ibn Xəttabın Əbu Bəkrə beyət etmək barədə belə dediyini

---

Ümumiyyətlə Peyğəmbərin ﷺ xəstələndiyi vaxt Əbu Bəkrin insanlara namaz qıldırması bir sıra səhabələrdən nəql olunmuşdur:

1 - Əbu Musa: əl-Buxari 678; Muslim 420.

2 - Aişə: əl-Buxari 679; Muslim 418.

3 - Ənəs: əl-Buxari 680, 681; Muslim 419.

4 - İbn Ömər: əl-Buxari 682.

5 - Səhl ibn Səd: əl-Buxari 684; Muslim 421.

[1] Hədisi əl-Buxari "Fədail əs-Sahəbə" kitabında, № 3656, "Əgər ümmətimdən özümə ən yaxın bir dost seçmiş olsaydım..." fəslində rəvayət etmişdir.

[2] Hədisi Buxari "Məscidlərin qapıları" kitabında, "Məscidə açılan qapı və dəhlizlər" fəslində, № 467 rəvayət etmişdir. Əbu Hatim İbn Hibban demişdir: Peyğəmbərin ﷺ "Əbu Bəkrin qapısından başqa bu məscidə açılan bütün qapıları bağlayın." – sözü dəlildir ki, Peyğəmbərdən ﷺ sonra xəlifə Əbu Bəkr ﷺ olmalı idi. Belə ki, Peyğəmbər ﷺ Əbu Bəkrdən başqa insanların xəlifə ola bilməyəcəklərinə işarə etmiş və "Əbu Bəkrin qapısından başqa bu məscidə açılan bütün qapıları bağlayın." - deyə buyurmuşdur. Allah ondan razı olsun. Bax: Səhih İbn Hibban, 15/275, № 6860.

eşitdim: "Aranızda Əbu Bəkr kimi itaət olunmağa layiqli başqa birisi yoxdur."[1]

## Hər zaman Rəsulullahla ﷺ birlikdə olması:

**- İbn Abbasın رضي الله عنهما Əlidən رضي الله عنه nəql etdiyi rəvayət:**

İbn Abbas رضي الله عنهما demişdir: "Ömər vəfat etdikdə çarpayısının[2] üzərinə qoyuldu və insanlar onun ətrafına toplaşıb onun üçün dualar etməyə və cənazə namazı qılmağa başladılar. Həmin vaxt mən də onların arasında idim. Birdən çiynimdən bir nəfərin tutması məni diksindirdi. Baxıb gördüm ki, bu Əli ibn Əbu Talibdir. O, Ömərə rəhmət oxudu və dedi: "Səndən sonra Allah qarşısına sənin əməlinin bənzəri kimi edib çıxmaq istədiyim başqa birisi yoxdur. Vallahi, mən ümid edirəm ki, Allah səni iki dostuna qovuşduracaq. Mən çox vaxt Peyğəmbərin ﷺ belə dediyi eşidərdim: "Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerə* getdim. Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerdən* daxil oldum. Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerə* çıxdım."[3]

## İbn Abbas رضي الله عنهما qeyd edir ki, Ömər Əbu Bəkri özündən üstün sayırdı:

**- Abdullah ibn Abbasın رضي الله عنهما Ömərdən رضي الله عنه nəql etdiyi rəvayət:**

İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Ömər رضي الله عنه demişdir: "Hər hansı bir qövmdə Əbu Bəkr olduğu halda mənim önə keçməyimdənsə boynumun vurulmağı mənim üçün daha sevimlidir."[4]

---

[1] Hədisi İbn Səd "ət-Tabaqat" əsərində 3/182 müxtəsər olaraq rəvayət etmişdir. Hədisin əsli tam variantda Buxarinin "Səhih" əsərində, "Şəri cəzalar" kitabında, "Zinakar hamilə qadının uşağı dünyaya gətirdikdən sonra daşqalaq olunması" fəslində № 6830 rəvayət olunmuşdur.

[2] Onun nəşi nəzərdə tutulur.

[3] Hədisi Buxari "Səhabələrin üstünlükləri" kitabı, "Ömər ibn əl-Xəttabın fəzilətləri" fəslində, № 3677, 3685; Muslim isə "Səhabələrin üstünlükləri" kitabı, "Ömər ibn əl-Xəttabın fəzilətləri" fəslində, № 2389, rəvayət etmişdir.

[4] Hədisi İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində, № 31934, rəvayət etmişdir. Bu hədis Buxaridəki "Şəri cəzalar" kitabının "Zinakar hamilə qadının uşağı dünyaya gətirdikdən sonra daşqalaq olunması" fəslində, № 6830 rəvayət olunan uzun bir hədisin bir hissəsidir.

## Quranı ilk dəfə bir arada toplayan:

**- Əli ibn Əbu Talibin ﷺ rəvayəti:**

Əli ﷺ belə demişdir: "Qurani Kərimin toplanması məsələsində ən çox savaba nail olan kəs Əbu Bəkr əs-Siddiqdir. Quranı ilk dəfə o toplamışdı."[1]

## Mələklərin Bədr döyüşündə onunla birlikdə döyüşməsi:

Əli ﷺ demişdir: "Bədr günü Əliyə və Əbu Bəkrə belə deyildi: "Sizlərdən birinizlə birlikdə Cəbrail, digərinizlə birlikdə isə Mikayıl və İsrafil, böyük mələk döyüşdə iştirak edir." Yaxud delə deyildi: "Bir sıradadır."[2]

## Əli ﷺ Əbu Bəkrin ﷺ doğrudanışan olduğunu vəsf edir:

Əli ibn Əbu Talib ﷺ demişdir: "Rəsulullahdan ﷺ bir hədis eşitdikdə Allah mənə onun vasitəsilə xeyli faydalar bəxş edirdi. Bir başqası hədis danışdıqda isə mən ona and içdirər, and içdikdən sonra ona inanardım. Bir dəfə doğrudanışan Əbu Bəkr mənə danışdı ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Kim bir

---

[1] Hədisi İmam Əhməd "Fədail əs-Sahəbə" əsərində, № 280, 513, 514 rəvayət etmiş və əsəri təhqiq edən alim onun isnadının həsən olduğunu bildirmişdir. Həmçinin hədisi İbn Səd "Təbaqat" əsərində, 3/193; İbn Əbu Davud "əl-Məsahif" kitabında səh. 5; Əbu Ubeyd "Fədail əl-Quran" əsərində, № 213, 538 rəvayət etmişdir. İbn Həcər bu hədisi "Fəthul-Bari" əsərində, 9/12, zikr etmiş və onun həsən olduğunu bildirmişdir. İbn Kəsir isə "Fədail əl-Quran" əsərində, səh. 8, onun isnadının səhih olduğunu demişdir.

[2] Hədisi Əhməd "əl-Müsnəd" əsərində, № 1257; Əbu Yəla 1/283; əl-Bəzzar "əl-Bəhr əz-Zəxxar" əsərində, № 659; əl-Hakim 3/72, səhih olaraq № 4430 rəvayət etmiş və Zəhəbi hədisin Muslimin şərtlərinə müvafiq olduğunu söyləmiş; İbn Əbu Asim "əs-Sünnə" əsərində, № 1217; İbn Səd "ət-Təbaqat" əsərində, 3/175; İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində, № 31954; Heysəmi Əbu Yəlaya, Bəzzara və Əhmədə isnad edərək "əl-Məcma əz-Zəvaid" əsərində, 9/85 rəvayət etmiş və sonra da demişdir: "Əhmədin və Bəzzarın rəvayətindəki ravilər etibarlıdırlar. Həmçinin hədisi Albani "Silsilətul əl-Əhadis əs-Səhihə" əsərində, № 3241; əl-Arnaut "Müsnəd" əsərində, № 1257; Hüseyn Səlim Əsəd isə "Musnəd Əbu Yəla" əsərində № 340, səhih hesab etmişlər.

günah etdikdən sonra gözəl bir şəkildə dəstəmaz alıb, sonra iki rükət namaz qılıb İzzət və Cəlal Sahibi olan Allahdan bağışlanma diləyərsə günahı bağışlanar."[1]

## Əlinin ﷺ Əbu Bəkr və Ömərin xilafətini tərifləməsi:

**- Əlinin ﷺ rəvayəti:**

Rəvayət olunur ki, Cəməl günü Əli ﷺ belə demişdir: "Rəsulullah ﷺ bizlərə rəbərlik məsələsində bir söz deməmişdir. Bunu biz öz aramızda həll etdik və Əbu Bəkr *(Allah ona rəhmət etsin)* rəhbər təyin olundu. O düz yolda oldu və *insanları da* düz yola yönəltdi. Daha sonra Ömər *(Allah ona rəhmət etsin)* rəhbər təyin olundu. O da düz yolda oldu və *insanları* düz yola yönəltdi. Beləcə din bərqərar olmağa başladı."[2]

## Əbu Bəkrlə Ömər ﷺ Cənnət ağsaqqallarının hörmətliləridir:

**- Əlinin ﷺ rəvayəti:**

Əli ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Peyğəmbərlər və Rəsullar istisna olmaqla əvvəl və sonra gəlmiş bütün insan-

---

[1] Hədisi Əhməd "Fədail" əs-Səhabə" əsərində, № 142, 642, "Müsnəd" əsərində, № 2; Əbu Davud "Namaz" fəslində, № 1521; Tirmizi "Namaz" kitabında, № 406 həsən olaraq, "Təfsir əl-Quran" əsərində, № 3006; Nəsai "Əməl əl-Yaum və əl-Leyl" əsərində, № 414, 417; İbn Macə "Sünən" əsərində, № 1395 rəvayət etmişdir. İbn Kəsir Ali İmran surəsinin 135-ci ayəsinin təfsirində bu hədisi zikr etmiş və onun həsən olduğunu bildirmişdir. Həmçinin hədisi Albani həsən hesab etmiş, əl-Arnaut "Müsnəd" əsərində, № 2, Hüseyn Səlim Əsəd isə "Musnəd Əbu Yəla" əsərində № 12, səhih hesab etmişlər.

[2] Hədisi İmam Əhməd "Müsnəd" əsərində, № 921, "Fədail" əsərində, № 477; Hakim "əl-Mustədrak" əsərində, 3/112, № 4558 rəvayət etmişdir. Şeyx Əhməd Şakir İmam Əhməd ibn Hənbəlin "əl-Müsnəd" əsərinə etdiyi haşiyədə hədisi zəif hesab etmişdir 2/181, № 921. Səbəb kimi isə Əlidən ﷺ rəvayət edən kəsin naməlum olmasını göstərmişdir. Əslində isə məlum olmuşdur ki, İmam Əhmədin "əl-Müsnəd" əsərindəki həmin naməlum hesab olunan kəs İbn Əbu Asimin rəvayətindən № 1218, bəlli olduğu kimi Səid ibn Amrdır. Alimlər onu etibarlı ravi hesab etmişlər. Odur ki, hədisin isnadı səhihdir. Vasiyyullah Abbas da hədisi səhih hesab etmişdir.

lar arasında Əbu Bəkrlə Ömər cənnət ağsaqqallarının ən hörmətliləri olacaqlar. Ey Əli onlara bu barədə xəbər vermə."[1]

## Əbu Bəkrin ﷺ Peyğəmbərdən ﷺ sonrakı məqamı:

**- Əlinin ﷺ rəvayəti:**

Qeys əl-Xarifi demişdir: "Mən Əlinin belə dediyini eşitmişəm: "İlk öncə *bizim rəhbərimiz* Rəsulullah ﷺ idi. Ondan sonra rəhbərimiz Əbu Bəkr oldu. Üçüncü rəhbərimiz isə Ömər oldu. Daha sonra fitnəyə məruz qaldıq. Bu fitnə Allahın izni ilə oldu. Allah dilədiyini bağışlayar."[2]

---

[1] Hədisi ət-Tirmizi "əl-Mənaqib" kitabında, "Əbu Bəkr və Ömərin fəzilətləri" fəslində, № 3666, rəvayət etmiş və onun həsən ğarib hədis olduğunu bildirmişdir. Həmçinin hədisi İbn Macə Müqəddiməsində, "Əbu Bəkrin fəziləti" fəslində, № 95; İmam Əhməd "Fədail əs-Sahəbə" əsərində, № 93, 141, 202; Abdullah ibn Əhməd "Zəvaid əl-Musnəd" əsərində, 1/80; Əbu Yəla "Müsnəd" əsərində, № 533, rəvayət etmişlər. Hədisi Albani Tirmizidə və "Silsilətul Əhadis əs-Səhihə" əsərində, № 824; habelə Arnaut "Müsnəd" əsərində səhih hesab etmişlər.

**Fayda**: əl-Mubarakfuri demişdir: "Əbu Bəkrlə Ömər Cənnət ağsaqqallarının ən hörmətliləri olacaqlar." – hədisindəki kəhl sözü lüğətdə 30, 34 və 51 yaş arasında olan kəslərə deyilir. Dünyada ağsaqqal olduqları üçün onlara belə deyilmişdir. Əslində isə adam cənnətdə qoca olmayacaqdır. Necə ki Uca Allah buyurur: **"Yetimlərin mallarını özlərinə verin..."** Odur ki, kim yaşlı halda dünyasını dəyişib cənnətə düşərsə Əbu Bəkrlə Ömər onların ən hörmətliləri olacaqdır. Əgər Əbu Bəkrlə Ömər ağsaqqalların ən hörmətliləridirsə, onda həm də cavanların hörmətliləri olacaqlar. Çünki cənnətdə adam qoca olmayacaq, ora girənlər otuz üç yaşında olacaqlar. Hətta İmam Əhmədin rəvayətində belə deyilir: "Bu iki nəfər peyğəmbər və elçilərdən sonra cənnət ağsaqqallarının və gənclərinin ən hörmətliləri olacaqlar." "Tuhfətul-əhvazi" əsəri, "İhya ət-Turas" nəşriyyatı 10/143-144.

[2] Hədisi İmam Əhməd "əl-Müsnəd" əsərində, "Əli ibn Əbu Talibdən ﷺ rəvayət olunanlar" fəslində, № 895, 1020, 1258, habelə, "Fədail əs-Sahəbə" əsərində, № 241, 242, 244 rəvayət etmişdir. Həmçinin Buxari "əl-Kəbir" əsərində, 7/173; Hakim "əl-Mustədrak" əsərində, 3/71, № 4426 rəvayət etmişdir. Hakim hədisin isnadının səhih olduğunu, lakin Buxari və Muslimin onu öz kitablarında qeyd etmədiyini söyləmiş, Zəhəbi də onu təsdiqləmişdir. Həmçinin Təbərani "əl-Ovsat" əsərində, 2/177, № 1639 rəvayət etmişdir. Heysəmi bu hədisi "Məcma əz-Zəvaid" əsərində, 9/54 zikr etmiş və demişdir: "Bu hədisi Əhməd rəvayət etmiş və demişdir: "Daha sonra fitnəyə məruz qaldıq"- deməklə Əli ﷺ öz təvazökarlığını göstərmişdir." Hədisi həmçinin Təbərani "əl-Ovat əsərində də nəql etmişdir. Lakin Əhmədin raviləri daha etibarlıdır. Həmçinin Arnaut "Müsnəd" əsərində, № 895 onu səhih hesab etmişdir.

# Üçüncü bəhs

## Əhli-beytin öz övladlarına Əbu Bəkr əs-Siddiqin kunya və adlarını vermələri

**1. Əbu Bəkr ibn Əli ibn Əbu Talib:**

O, İmam Hüseynlə birlikdə Kərbəlada qətlə yetirilmişdi. Anası Leyla bint Məsud ən-Nəhşəliyyə idi.

Bu barədə Şeyx əl-Mufid "əl-İrşad" əsərində[1] qeyd etmişdir, "Yəqubinin tarixi" əsərində Əlinin övladları fəslində, Şeyx Abbas əl-Qumminin[2] "Muntəha əl-Amal" əsərlərində isə qeyd olunur ki, onun adı Muhəmməd, kunyası isə Əbu Bəkr idi: "Muhəmmədin kunyası Əbu Bəkr idi..."[3], əl-Məclisinin "Bihar əl-Ənvar"[4] əsərində də bu qeyd olunmuşdur.

Həmçinin "Ənvar ən-Numaniyyə" əsərində deyilir: "Muhəmməd əl-Əsğarın kunyası Əbu Bəkr idi. O və Ubeydullah qardaşları Hüseynlə birlikdə şəhid olmuşdular."[5]

**2. Əbu Bəkr ibn əl-Həsən ibn Əli ibn Əbu Talib:**

O, əmisi Hüseynlə birlikdə Kərbəlada qətlə yetirilmişdir. Bu barədə Şeyx əl-Mufid "əl-İrşad" əsərində, səh. 238, Kərbəlada şəhid olanlar barədə söhbət açarkən demişdir. "Yəqubinin tarixi" əsərində isə Həsənin övladları hissəsində, Şeyx Abbas əl-Qumminin "Muntəha əl-Amal" əsərində, Haşimi oğullarının gənclərindən Kərbəlada şəhid olanlar bəhsində, 1/544; "Umdətut-talib" əsərində, Cullul-mərifə nəşriyyatı, səh. 107.

---

[1] Səhifə 186 və 248.

[2] "Muntəha əl-Amal"əsəri, 1/261.

[3] Əvvəlki mənbə, 1/544.

[4] "Bihər əl-Ənvar" əsəri, 42/120. Bu barədə bir çox başqa mənbələrdə də məlumatlar vardır. İbn Quteybənin "əl-Məarif" əsəri, Heyətul-misriyyə nəşriyyatı 1992-ci il, səh. 210; İbn Sədin "ət-Təbaqat" əsəri, Dar əl-Kutub əl-İlmiyyə nəşriyyatı, 3/14; İbn Cərir ət-Təbərinin "Tarix ər-Rusuli val-Muluk" əsəri, 3/162; İbn Həzm əl-Əndəlusinin "Cəmhəratu Ənsab əl-Arab" əsəri, səh. 230.

[5] əl-Ənvar ən-Numaniyyə, 1/371.

Musab əz-Zubeyri "Nəsəbu Qureyş" əsərində, Həsənin övladları barədə demişdir: "Amr ibn əl-Həsən, əl-Qasim və Əbu Bəkr onun övladlarıdır, onlar çayın kənarında qətlə yetirilmişdilər..."[1]

İbn Anbə isə demişdir: "Şeyx əş-Şərəf əl-Ubeydilinin rəvayətinə görə Əbu Muhəmməd əl-Həsənin on altı övladı olmuşdur. Onlardan beşi qız, on biri isə oğlan olmuşdur. Onlar: Zeyd, əl-Həsən əl-Musənnə, əl-Hüseyn, Talhə, İsmayıl, Abdullah, Həmzə, Yaqub, Abdurrəhman, Əbu Bəkr və Ömərdir. Nəsəblərə aydınlıq gətirən demişdir ki, Abdullah elə Əbu Bəkrin özüdür. O, əl-Qasimi əlavə etmişdir ki, bu əlavə də məqbul hesab olunur..."[2]

**3. Əbu Bəkr Əli (Zeynulabidin):**

Əli Zeynulabidin ibn əl-Hüseyn əş-Şəhidin kunyası Əbu Bəkr idi.

əl-Ərbili demişdir: "Onun ən məşhur kunyası Əbu əl-Həsən idi, Əbu Muhəmməd və Əbu Bəkr deyənlər də vardır." (Kəşf əl-Ğummə" əsəri, Dar əl-Ədva nəşriyatı, Əli Zeynulabidinin tərcümeyi halı.

**4. Əbu Bəkr ibn Musa (əl-Kazım):**

əl-Ərbili demişdir: "əl-Cənabizi demişdir: "Əbu əl-Həsən Musa ibn Cəfər ibn Muhəmməd ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib. Anası Ummu Vələddir[3]. Bu qadın Əli (ər-Rida), Zeyd, Əqil, Harun, əl-Həsən, əl-Hüseyn, Abdullah, İsmayıl, Ubeydullah, Ömər, Əhməd, Cəfər, Yəhya, İshaq, Abbas, Həmzə, Abdurrəhman, əl-Qasim və Cəfər əl-Əsğarı dünyaya gətirmişdir. Deyilənə görə Ömər Muhəmməd və Əbu Bəkr də onun övladlarıdır."[4]

---

[1] "Nəsəbu Qureyş" əsəri, səh. 50.

[2] "Umdətut-talib" əsəri, Muəssəsətu Ənsariyyən nəşriyyatı, səh. 64. Bu barədə qeyd edənlərdən: İbn Cərir ət-Təbəri "Tarix ər-Rusuli val-Muluk" əsərində 3/343; İbn Kəsir əd-Diməşqi "əl-Bidayə və ən-Nihayə" əsərində, 8/189; İbn əl-Əsir "əl-Kamil" əsərində, 3/443; ən-Nuveyri "Nihayətul ərab" əsərində, 20/461; əz-Zəhəbi "Siyar Əlam ən-Nubəla" əsərində, 3/279.

[3] "Ummu Vələd" sözü ərəb sözü olub hərfi tərcüməsi uşağın anası deməkdir. Bu sözü öz ağasından dünyaya uşaq gətirən qadına deyirdilər. Əgər qul olmuş qadın öz ağasından dünyaya uşaq gətirərdisə, onda onu qul kimi satmaq olmazdı. Həmin qadın ağası öldükdən sonra azad qadın sayılırdı.

[4] "Kəşf əl-Ğummə" əsəri, "Dar əl-Ədva" nəşriyyatı, 3/10.

**5. Əbu Bəkr Əli (ər-Rida) ibn Musa (əl-Kazım) ibn Cəfər (əs-Sadiq):**

Əli ər-Ridanın kunyəsi Əbu Bəkr idi. Bunu ən-Nuri ət-Tabrasi "ən-Nəcm əs-Saqib fi Əlqabi və Əsməi əl-Huccəti əl-Ğaib"əsərində qeyd etmiş və demişdir: "14 - Əbu Bəkr. Bu imamın kunyələrindən biridir."

əl-İsfahani demişdir: "Əbus-Salt əl-Həravinin belə dediyi rəvayət olunur: "Bir gün əl-Məmun məndən bir məsələ barədə soruşdu. Mən ona cavab verdim ki: "Bizim Əbu Bəkr həmin məsələ barəsində belə demişdir." İbn Mehran mənə dedi: "Sizin Əbu Bəkr kimdir?" Mən dedim: "Əli ibn Musa ər-Rida, onun kunyası Əbu Bəkrdir."[1]

**6. Əbu Bəkr Muhəmməd (əl-Mehdi əl-Muntəzar) ibn əl-Həsən əl-Əskəri, kunyası Əbu Bəkr idi:**

On iki imam şiələrinin etiqadına görə 1100 ildən də çox əvvəl dünyaya gəlmiş Mehdi əl-Muntəzarın adlarından biri də Əbu Bəkrdir. ən-Nuri ət-Tabrasi "ən-Nəcm əs-Saqib" əsərində bunu 14 saylı ləqəbdə qeyd etmişdir.

Bəs görəsən Mehdi əl-Muntəzarın kunyəsi və ya ləqəbi nəyə görə Əbu Bəkr idi?!

**7. Əbu Bəkr ibn Abdullah ibn Cəfər ibn Əbu Talib:**

"əl-Ənsab əl-Əşraf"[2] əsərinin müəllifi demişdir: "Abdullah ibn Cəfər dünyaya gəldi.... Əbu Bəkr Hüseynlə birlikdə qətlə yetirildi. Onların anaları Rabiədən olan əl-Xausa idi..."

Bunu Xəlifə bin Xəyyat öz "Tarix"[3] əsərində əl-Hurra günü Haşim övladlarından qətlə yetirənlərin adlarında qeyd etmişdir. Doğru olan da məhz İbn Xəyyatın qeyd etdiyidir.

Zəhəbi "Siyar Əlam ən-Nubəla" əsərində demişdir: "Həmçinin Əbu Bəkr ibn Abdullah ibn Ömər ibn əl-Xəttab və Əbu Bəkr ibn Abdullah ibn Cəfər ibn Əbu Talib də qətlə yetirilmişdir..."[4]

---

[1] "Məqatil ət-Talibin" əsəri, səh. 562.

[2] Səhifə 68.

[3] Səhifə 240.

[4] "Siyar Əlam ən-Nudəla" əsəri, "Dar əl-Kitab əl-Arabi" nəşri, 3/29.

İbn əl-Quteybənin "əl-Məarif" əsərində Əbu Bəkr ibn Abdullah ibn Cəfərin anasının adı əl-Hausa bint Xasfə qeyd olunur. İbn Quteybə demişdir: "Abdullah ibn Cəfəin övladları: Cəfər, Əli, Ovn, Abbas, Muhəmməd, Ubeydullah, Əbu Bəkrdir. Bunların anaları Bənu Teymullah bin Sələbə əl-Hausa bint Xasfədir. Saleh, Musa, Harun, Yəhya və Ummu Əbihənin anaları isə Leyla bint Məsud bin Xalid ən-Nəhşəlidir. Əli ibn Əbu Talibdən sonra ona gəlmişdir. Müaviyə, İshaq, İsmayıl və əl-Qasim isə başqa analardandır. əl-Həsənlə Ovn əl-Əsğarın anası isə Cumanə bint əl-Museyyib əl-Fəzariyədir. Cəfərin də həmçinin."[1]

Həmçinin İbn Həzmin "Cəmhəratu Ənsab əl-Ərəb"[2] əsərinə bax. Orada o, Cəfər ibn Əbu Talibin övladlarından Əbu Bəkri də qeyd etmişdir.

**8. Əbu Bəkr ibn əl-Həsən (əl-Musənnə) ibn əl-Həsən (əs-Sibt) ibn Əli ibn Əbu Talib:**

əl-İsfahani rəvayət edərək demişdir: "Bəsrədə İbrahim ibn əl-Həsən əl-Musənnə ilə birlikdə qətlə yetirilənlərdən biri də Əbu Bəkr bin əl-Həsən ibn əl-Həsən idi."[3]

**9. Əbu Bəkr ibn Əbu əl-Əzm ibn Abdullah**... Onun nəsəbi İbrahim əl-Murtəda ibn Musa əl-Kazımda bitir.

Bunu İbn Şədqam əl-Hüseyni "Tuhfətu əl-Əzhar" əsərində qeyd etmişdir. Həmçinin əsəri təhqiq edən bunu "ər-Rəud əl-Mitar"[4] əsərində qeyd etmişdir.

[1] "əl-Məarif" əsəri, səh. 207.

[2] "Cəmhəratu Ənsab əl-Ərəb" əsəri, səh. 69.

[3] "Məqatil ət-Talibin" əsəri, 188.

[4] Səhifə, 277.

# Dördüncü bəhs

## Əhli-beytlə Siddiqin ﷺ ailəsi arasındakı qohumluq əlaqələri

**1. Allahın Rəsulu Muhəmməd ibn Abdullah ﷺ:**

Peyğəmbər ﷺ Əbu Bəkr əs-Siddiqin qızı Aişə ilə ailə həyatı qurmuşdu. Bu qohumluq əlaqəsini tarix və nəsəb alimləri arasında inkar edən olmamışdır.

**2. əl-Həsən ibn Əli ibn Əbu Talib ﷺ:**

O, Həfsa bint Abdurrəhman ibn Əbu Bəkr əs-Siddiqlə evlənmişdi. Bu evlilik barədə ət-Təsturi "Tavarix ən-Nəbi vəl-Al"[1] əsərində İmam əl-Həsənin xanımlarının adlarının arasında qeyd etmişdir. İbn əl-Həbibin "əl-Məhbər" əsərində[2] isə qeyd olunur ki, o Həsən ibn Əli ilə deyil, Hüseyn ibn Əli ilə evlənmişdir. Fikrimcə bu bir xətadır. Ondan sonra o, Asim ibn əl-Xəttaba, daha sonra əl-Munzir ibn əz-Zubeyrə ərə getmişdir. Munzir onun ilk əri olmuş, sonradan yenə onun yanına qayıtmışdır.[3]

**3. İshaq ibn Abdullah ibn Cəfər ibn Əbu Talib:**

O, Ummu Həkim bint əl-Qasim bin Muhəmməd bin Əbu Bəkr əs-Siddiqlə evlənmişdi. Bu qadın Ummu Fərvanın bacısıdır. Bu barədə növbəti bənddə qeyd olunacaq.

İbn Anbə Abdullah ibn Cəfər ibn Əbu Talibin zürriyyəti barədə demişdir: "İshaq əl-Aridinin anası Ummu Vələd[4] olmuşdur"[5].

---

[1] "Təvarix ən-Nəbi vəl-Al" əsəri, səh. 107.

[2] "əl-Məhbər" əsəri, səh. 447.

[3] Həmçinin qeyd olunur ki, Həfsa bint Abdurrəhman bin Əbu Bəkr əs-Siddiq Hüseyn ibn Əliyə ərə getmişdir. Bunu İbn Əsakir İbn Sədın "ət-Tabaqat" əsərinə istinadən, 8/468 nəql etmişdir. Lakin buna şübhə ilə yanaşdığım üçün mətndə yerləşdirmədim.

[4] "Ummu Vələd" sözü ərəb sözü olub hərfi tərcüməsi uşağın anası deməkdir. Bu sözü öz ağasından dünyaya uşaq gətirən qadına deyirdilər. Əgər qul olmuş qadın öz ağasından dünyaya uşaq gətirərdisə, onda onu qul kimi satmaq olmazdı. Həmin qadın ağası öldükdən sonra azad qadın sayılırdı.

[5] "Umdətut-talib" əsəri, Ənsariyyən nəşriyyatı, səh. 37.

Bu barədə həmçinin "Nəsəbu Qureyş"[1] əsərində Cəfər ibn Əbu Talibin övladlarına, bir də İbn Quteybənin "əl-Məarif"[2] əsərinə bax.

**4. Muhəmməd (əl-Baqir) ibn Əli (Zeynulabidin) ibn əl-Hüseyn:**

O, Ummu Fərva bint əl-Qasim bin Muhəmməd bin Əbu Bəkr əs-Siddiqlə evlənmiş və onların Cəfər əs-Sadiq adlı övladları olmuşdur. Bu izdivac barədə qeyd edənlər:

Şeyx əl-Mufid "əl-İrşad"[3] əsərində, Muhəmməd əl-Əaləmi əl-Hairi "Təracim Əalam ən-Nisa"[4] əsərində, İbn Anbə "Umdətut-talib"[5] əsərində, İbn ət-Taqtaqi "əl-Əsiyəli"[6] əsərində, əz-Zubeyri "Nəsəbu Qureyş"[7] əsərində də bunu zikr etmişlər.

Cəfər əs-Sadiqin məşhur bir sözü vardır. Bu söz bir çox mənbələrdə və məxəzlərdə zikr olunmuşdur. ən-Nəsaba İbn Anbə demişdir: "Sonra o, ayrıca Əbu Abdullah Cəfər əs-Sadiqdən söz açdı. Cəfərin anası Ummu Fərva bint əl-Qasim əl-Fəqih ibn Muhəmməd ibn Əbu Bəkrdir. Ummu Fərvanın anası da Əsma bint Abdurrəhmən ibn Əbu Bəkrdir. Buna görə də əs-Sadiq: "Əbu Bəkr məni iki dəfə dünyaya gətirmişdir." – deyərdi. Ona Əmud əş-Şərəf də deyilir."[8]

**5. Musa (əl-Cəun) ibn Abdullah (əl-Məhd) ibn əl-Həsən (əl-Musənnə) ibn əl-Həsən (əs-Sibt) ibn Əli ibn Əbu Talib**:

O, Ummu Sələmə bint Muhəmməd bin Talhə bin Ubeydullah ibn Abdurrəhman bin Əbu Bəkr əs-Siddiq ilə evlənmişdir. Onların Abdullah adlı övladları olmuşdur. Bunu alimlərdən "Təracim Əalam ən-Nisa"[9] əsərinin müəllifi, Əbu Nasr əl-Buxari isə "Sirru əs-

---

[1] "Nəsəbu Qureyş" əsəri, səh. 83.
[2] "əl-Məarif" əsəri, səh. 208.
[3] "əl-İrşad" əsəri, səh. 270.
[4] "Təracim Əalam ən-Nisa" əsəri, səh. 278.
[5] "Umdətut-talib" əsəri, Dar əl-Həyat nəşriyyatı, səh. 225.
[6] "əl-Əsiyəli" əsəri, səh. 149.
[7] "Nəsəbu Qureyş" əsəri, səh. 63.
[8] "Umdətut-talib" əsəri, Ənsariyyən nəşriyyatı, səh. 176.
[9] "Təracim Əalam ən-Nisa" əsəri, səh. 273.

Silsiləti əl-Əlaviyyə”[1] əsərində, Həmçinin “Umdətut-talib”[2] əsərində qeyd etmişdir.

**6. İshaq ibn Abdullah ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib:**

O, Gülsüm bint İsmayıl bin Abdurrəhman bin əl-Qasim bin Muhəmməd bin Əbu Bəkr əs-Siddiq ilə evlənmişdir. Musab əz-Zubeyri demişdir: “İshaq bin Abdullah bin Əli bin əl-Hüseyn bin Əli bin Əbu Talibin övladları: Yəhya... və Xədicə bint İshaq olmuşdur. Xədicənin anası isə Gülsüm bint İsmayıl bin Abdurrəhman bin əl-Qasim bin Muhəmməd bin Əbu Bəkr əs-Siddiqdir. Xədicənin ana tərəfdən olan qardaşı da: əl-Qasim bin İbrahim bin əl-Vəlid bin Muhəmməd bin Hişam bin İsmayıl əl-Məxzumidir.”[3]

---

[1] “Sirru əs-Silsiləti əl-Əlaviyyə” əsəri, səh. 20.

[2] “Umdətut-talib” əsəri, Ənsariyyən nəşriyyatı, səh. 102; Dar əl-Həyat nəşriyyatı, səh. 134.

[3] “Nəsəbu Qureyş” əsəri, səh. 65.

## Beşinci Bəhs

### Fədək şübhəsi

**Fədək:** Ərəb yarımadasında Hicazın ətrafında Xeybər şəhəri yaxınlığında yerləşən bir vahədir. O, Hail məntəqəsinin cənub-qərb bölgəsində yerləşir. Orada əvvəllər əmaliqlər, daha sonra isə yəhudilər məskunlaşmışdı. Həmin ərazi buğda və xurma əkinçiliyi ilə məşhur idi.

O vaxtlar ora ilə Mədinə şəhəri arasında iki-üç günlük məsafə var idi. Tarixdə əvvəllər oralar yəhudi torpağı kimi qeyd olunurdu. Bu keçmiş əsrlərlə bağlı məlumatdır. Hal-hazırda Mədineyi Munəvvərədən təqribən 280 km aralıda, üç saatlıq məsafədə yerləşir və Hail rayonunun tabeçiliyindədir. Hicrətin yeddinci ilinə qədər orada bir yəhudi tayfası məskunlaşmışdı. Sonra Allah onların qəlblərinə qorxu saldı və onlar Peyğəmbərlə ﷺ Fədək bağının yarısı və ya hamısı müqabilində sülh bağladılar.

Peyğəmbər ﷺ vəfat etdikdən sonra Fatimə رضي الله عنها gəlib Peyğəmbərin ﷺ mirasını tələb etdi. Bununla bağlı o, müsəlmanların xəlifəsi Əbu Bəkrin رضي الله عنه yanına getdi və atasından miras qalmış Fədək bağını tələb etdi. Əbu Bəkr isə buyurdu ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir." Beləcə Fatimə رضي الله عنها miras olaraq heç nə götürmədən geri qayıdır.

İbn Şihab demişdir: "Urva ibn Zubeyr رضي الله عنه mənə xəbər verdi ki, möminlərin anası Aişə رضي الله عنها ona belə demişdir: "Rəsulullahın ﷺ vəfatından sonra qızı Fatimə gəlib Əbu Bəkrdən Allahın vaxtilə Peyğəmbərinə ﷺ verdiyi qənimətlərdən qalan miras payını tələb etdi.

Əbu Bəkr رضي الله عنه isə ona dedi: "Rəsulullah ﷺ belə demişdir: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir." Rəsulullahın ﷺ qızı Fatimə də hirslənərək Əbu Bəkrdən küsüb onu tərk etdi. Beləcə onun küskünlüyü vəfatınadək davam etdi. Rəsulullahın ﷺ vəfatından sonra o, altı ay yaşadı. Fatimə Əbu Bəkrdən Rəsulullahdan ﷺ qalan Xeybərdən, Fədək bağından və Mədinədəki sədəqəsindən payını istəyirdi. Əbu Bəkr isə onunla razılaşmadı və belə dedi: "Mən Rəsulullahın ﷺ etdiyi əməllərdən

heç birini tərk edən deyiləm. Onun etdiyi hər bir əməli mən də edəcəyəm. Odur ki, qorxuram onun etdiyi bir əməli tərk etməklə yolumu azım." Onun Mədinədəki sədəqəsinə gəlincə Ömər onu Əliyə və Abbasa vermişdir. Xeybərə və Fədəkə gəlincə, bunu Ömər verməyib demişdir: "Bunlar Peyğəmbərin ﷺ sədəqəsidir. Üzərinə düşən hüquqların və yardımçıların payıdır." Beləcə onları ora rəhbərlik edən valilərin öhdəliyinə vermişdi və bu günə qədər də onlardadır."[1]

Məhz bu məsələyə bəziləri cahilcəsinə və ya məqsədyönlü şəkildə yanaşaraq onların arasında düşmənçiliyin olduğunu və Rəsulullahın ﷺ qızının haqsızlıqla üzləşdiyini iddia etmişlər. Axı heç bu əməl onlara yaraşardımı? Gəlin baxaq!

## Hədisin rəvayətləri:

İndi isə gəlin, "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir." – ləfzinin yalnız Əbu Bəkrdən رضي الله عنه rəvayət olunduğunu iddia edənlərə cavab olaraq onun çoxlu sayda və müxtəlif rəvayətlərdə varid olan ləfzini zikr edək.

Təbəraninin "əl-Mucəm əl-Əvsat" əsərində[2] hədis Huzeyfədən رضي الله عنه rəvayət olunur. O, demişdir: "Peyğəmbər ﷺ demişdir: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir."

Həmçinin Təbərani hədisi İbn Abbasdan da nəql etmişdir. Albani "Səhih əl-Cami" əsərində hədisin aşağıdakı ravilərdən nəql olunduğunu bildirmişdir:

Ömər, Osman, Səd, Talhə, Zubeyr, Abdurrəhman bin Auf, Aişə və Əbu Hureyra رضي الله عنهم.

Malikin Muvatta əsərində isə "2 - Peyğəmbər ﷺ miras qoyurmu?" – fəslində Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Mənim mirasım bir dinar olsa belə bölünmür. Xanımlarımın xərcləri və xidmətçilərimin haqqından sonra yerdə qalan sədəqədir."

Buxaridə isə "Vəqfi idarə edən kimsənin zəhmət haqqı" fəslində Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ belə

---

[1] Səhih əl-Buxari, 4/79, № 3093; Muslim "əl-Cihad və əs-Seyr" kitabı, "Peyğəmbərin: "Miras qoymuruq..." sözü" fəsli, № 1759.

[2] "əl-Mucəm əl-Əvsat" əsəri, Qahirə, "Dar əl-Hərameyn" nəşriyyatı, səh. 223.

demişdir: "Mənim mirasım bir dinar və ya bir dirhəm olsa belə bölünmür. Xanımlarımın xərcləri və xidmətçilərimin haqqından sonra yerdə qalan sədəqədir."

Həmçinin Buxaridə uzun bir rəvayətdə Əli ilə Abbasın Ömər bin Xəttabın ﷺ hüzurunda mübahisə etdikləri qeyd olunur. Həmin məclisdə Osman, Abdurrəhman bin Auf, Səd ibn Əbu Vaqqas və Zubeyr də var idi. Ömər ibn Xəttab onlara dedi: "Sizi and verirəm Öz izni ilə göyləri və yeri saxlayan Allaha! Peyğəmbərin ﷺ, özünü qəsd edərək: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiyimiz sədəqədir"- dediyini bilirsinizmi?" Onlar: "Bəli, demişdir"- deyə cavab verdilər. Sonra Omər Əliyə və Abbasa üz tutub soruşdu: "Sizi and verirəm Allaha! Peyğəmbərin ﷺ belə dediyini bilirsinizmi?" Onlar: "Bəli, demişdir"- deyə cavab verdilər." Bu hədisdə adları zikr olunan səhabələrin Ömərin sözünü təsdiqləmələri "Qoyub getdiyimiz sədəqədir" ləfzinin səhih olduğuna dəlalət edir.

Həmçinin Buxarinin Səhih əsərində "Xumsun vacibliyi" və "Peyğəmbərin ﷺ: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir" fəslində, habelə digər fəsillərdə də bu barədə qeyd olunur.

İmam Əhmədin "Müsnəd" əsərində isə Ömərin ﷺ belə dediyi rəvayət olunur: "Rəsulullah ﷺ demişdir: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir."

Həmçinin "Müsnəd" əsərində Malik İbn Avsun belə dediyi rəvayət olunur: "Mən Ömərin Abdurrəhmana, Talhəyə və Zubeyrə belə dediyini eşitmişəm: "Sizi and verirəm göyləri və yeri saxlayan Allaha!" Başqa bir rəvayətdə isə Sufyan belə rəvayət etmişdir: "Sizi and verirəm Öz izni ilə göyləri və yeri saxlayan Allaha! Rəsulillahın ﷺ: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir" dediyini bilirsinizmi?

**Qeyri Əhli Sünnə mənbələrində isə:**

Peyğəmbərlərin miras qoymadıqları barədə çoxlu rəvayətlər vardır:

Kuleyni əl-Kafi əsərində Əbu Abdullahdan ﷺ rəvayət edərək demişdir: "Peyğəmbər ﷺ demişdir: "Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridir. Belə ki, peyğəmbərlər dinar və ya dirhəm

miras qoymazlar. Onlar elmi miras qoyub getmişlər. Odur ki, kim bu elmdən götürərsə özünə böyük bir pay götürmüş olar."

Məclisi "Miratul-uqul" əsərində[1] bu rəvayət barəsində demişdir: "Birinci hədisin (yəni hal-hazırda qeyd etdiyimiz hədisin) iki isnadı vardır. Birincisi məchuldur, ikincisi isə həsən və etibarlıdır, səhihdən geri qalmır."[2]

Beləliklə hədis sənədlərindən biri ilə etibarlıdır və dəlil kimi keçərlidir. Bu hədis onlarda olduqca məşhurdur.

Xomeyni "əl-Hukumətu əl-İslamiyyə" əsərində bu hədisi "Vilayətu əl-Fəqih" məsələsinin caiz olmasına dəlil gətirmiş və "Səhihə əl-Qidəh" başlığı altında demişdir:

Əli ibn İbrahim öz atasından, o da Həmmad ibn İsadan, o da əl-Qidah Abdullah ibn Məymundan, o da Əbu Abdullahdan رضي الله عنه Rəsulullahın ﷺ belə dediyini rəvayət etmişdir: "Kim elm almaq üçün yolla düşərsə, Allah onu Cənnətə aparan yola yönəldər... Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridir. Belə ki, peyğəmbərlər dinar və ya dirhəm miras qoymazlar. Onlar elmi miras qoyub getmişlər. Odur ki, kim bu elmdən götürərsə özünə böyük bir pay götürmüş olar."

Sonra o bu hədis barədə demişdir: "Hədisin ravilərinin hamısı etibarlıdır, hətta Əli ibn İbrahimin atası İbrahim ibn Haşim hədis elmində etimad olunan etibarlı ravilərdəndir."

Daha sonra Xomeyni Kafi əsərində zəif isnadla varid olmuş eyni mənalı başqa bir hədisi qeyd etmiş və demişdir: "Bu rəəvayət azacıq fərqlə başqa zəif rəvayətdə də varid olmuşdur. Yəni ki, Əbu əl-Buxturiyədək olan sənəd səhihdir, sadəcə Əbu əl-Buxturinin özü zəifdir. Rəvayət isə belədir: "Muhəmməd ibn Yəhya, Əhməd ibn Muhəmməd ibn İsadan, o da Muhəmməd ibn Xaliddən, o da Əbu əl-Buxturidən, o da Əbu Abdullahdan onun belə dediyini rəvayət etmişdir: "Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridir. Belə ki, peyğəmbərlər dinar və ya dirhəm miras qoymazlar. Onlar özlərindən hədisləri miras qoyub gedirlər!"

---

[1] "Miratul-uqul" əsəri, 1/111.

[2] əl-Kafi, 1/34, Savabul-alim vəl-mutəallim fəsli, № 1; Biharul-ənvar, 1/164.

Beləliklə: "Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridir. Belə ki, peyğəmbərlər dinar və ya dirhəm miras qoymazlar. Onlar elmi miras qoyub getmişlər." – hədisi səhihdir. Bunu Xomeyni və Məclisi də təsdiq etmişlər. Elə isə Rəsulullahdan ﷺ səhih olaraq nəql olunmuş bir hədis nə üçün götürülməməlidir. Çünki bizlərin yekdil rəyinə görə dəlil mövcud olduğu təqdirdə ictihada lüzum yoxdur?!! Bəs nə üçün vilayətul fəqih məsələsində bu hədis istifadə olunur, Fədək məsələsində isə yox?!!

## Şübhənin dəf olunması:

**Birinci:** Əbu Bəkr Peyğəmbərin ﷺ əmrinə tabe olmalı idi yoxsa Fatimənin istəyinə? Buna görə nə üçün ona eyib tutulmalıdır?

**İkinci:** Peyğəmbərin ﷺ mirası bölündüyü zaman - əgər onun mirası olubsa – onun varisləri üçdür: Fatimə, xanımları və əmisi Abbas.

Fatiməyə gəlincə ona mirasın yarısı çatmalıdır, çünki o Peyğəmbərin ﷺ qız övladıdır.

Peyğəmbərin ﷺ qızı və əmisi olduğu üçün, xanımlarına mirasın səkkizdə biri çatmalıdır. Əmisi isə mirasdan qalan payı götürür.

Budur Peyğəmbərin ﷺ mirası, yəni məsələ yalnız Fatimə ilə bağlı deyil. Bəs nə üçün Abbas gəlib Peyğəmbərdən ﷺ qalan öz miras payını tələb etməmişdi?

Nə üçün Peyğəmbərin ﷺ xanımları gəlib Peyğəmbərdən ﷺ qalan öz miras paylarını tələb etməmişdilər?

**Üçüncü:** Rəvayət olunur ki, Fatimə sonradan Əbu Bəkrdən razı qalmışdır. Öldükdə də ondan razı halda ölmüşdür. Beyhəqi öz sənədi ilə Şabinin belə dediyini rəvayət etmişdir: "Fatimə رضي الله عنها xəstələndikdə Əbu Bəkr əs-Siddiq رضي الله عنه onun yanına gəlib izin istədi. Əli رضي الله عنه dedi: "Ey Fatimə, Əbu Bəkr sənin yanına gəlmək üçün izin istəyir." Fatimə dedi: "Ona izin verməyimi istəyirsənmi?" Əli dedi: "Bəli." Fatimə də ona icazə verdi. Əbu Bəkr də gəlib onu razı salacaq söhbət etdi və dedi: "Vallahi ki, mən evimi, malımı, əhli-əyalımı və qohumlarımı yalnız Allahın, Onun Rəsulunun və siz Əhli-

beytin razılığını qazanmaq üçün tərk etmişəm." Beləcə onunla xeyli söhbət etdi və Fatimə ondan razı qaldı."[1]

**Dördüncü:** İbn Əbu Hədid "Nəhc əl-Bəlağə" əsərinin şərhində demişdir: "Zəhra qəzəbləndikdə Əbu Bəkr onun yanına gəldi. Ömər də onun yanında idi. Ömər Əbu Bəkr üçün Fatimədən xahiş etdi. Fatimə də ondan razı qaldı."[2]

**Beşinci:** Kimsə desə ki, onu öz mirasından necə məhrum etmək istəyirsiniz? Halbuki, Uca və Nöqsansız olan Allah buyurur: **"Süleyman Davuda varis oldu."[3]** Həmçinin Zəkəriyyə övlad istəyərkən Yəhya barəsində belə buyurmuşdur: **"o həm mənə, həm də Yaqub nəslinə varis olsun."[4]** Sizlər isə deyirsiniz ki, ***"Biz peyğəmbərlər miras qoymuruq. Qoyub getdiklərimiz sədəqədir."*** Bu hədisi Əbu Bəkr deyir, bizim dəlillərimiz isə ayədir. Əgər ayə hədislə ziddiyyət təşkil edərsə ayə üstün sayılır.

**Cavab:** Uca Allahın: **"Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun."[5] –** ayələrinə əsaslanaraq peyğəmbərlərin öz övladlarına miras qoymalarını iddia etmək qəribədir və heç bir yöndən məntiqə uyğun deyil. Səbəbləri isə aşağıdakı kimidir:

**1.** Heç əməlisaleh bir insana Uca və Böyük Allaha dua edərək malına varis olsun deyə övlad diləməsi yaraşarmı. Belə olduğu halda malına varis olsun deyə övlad diləməyi hörmətli peyğəmbər Zəkəriyyaya necə nisbət edə bilərik? Əslində Zəkəriyyə İzzət və Cəlal Sahibi olan Allahdan diləyir ki, ona bir oğul bəxş eləsin ki, özündən sonra Yaqub ailəsinin peyğəmbərlik missiasını davam etdirsin.

**2.** Məşhur olan rəyə görə Zəkəriyya kasıb idi və dülgər işləyirdi. Onun nə qədər mal-dövləti var idi ki, Uca Allaha dua edib varis olaraq övlad istəsin? Peyğəmbərlər ehtiyaclarından artıq pul yığmaz, artıq pulu sədəqə kimi xeyirxah işlərə sərf edərdilər.

---

[1] Beyhəqinin "Sünən əl-Kubra" əsəri, 6/301.

[2] İbn Əbu Hədidin "Nəhc əl-Bəlağə" əsərinin şərhi, 1/57; İbn əl-Heysəmin "Şərh əl-Bəlağə" əsəri, 5/507.

[3] ən-Nəml surəsi, 16.

[4] Məryəm surəsi, 6.

[5] Məryəm surəsi, 5-6.

**3.** "İrs" kəlməsi yalnız mal-dövlətlə əlaqəli deyil, elm, peyğəmbərlik, mülk və digər mənalarda da işlənir. Necə ki, Uca Allah buyurur: **"Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik."**[1] Həmçinin buyurur: **"Məhz onlar – varis olanlardır. O kəslər ki, Firdovs cənnətinə varis olacaqlar; onlar orada əbədi qalacaqlar."**[2] Bu ayələrdə miras kəlmələri mal-dövlətlə bağlı deyil.

**4.** "Şübhəsiz ki, peyğəmbərlər dinar və ya dirhəm miras qoymazlar, onlar yalnız elm miras qoyarlar."- hədisi açıq şəkildə dəlalət edir ki, peyğəmbərlər mal-dövlət miras qoymurlar. Bu da özü-özlüyündə kifayət edir.

Həmçinin Uca Allahın: **"Süleyman Davuda varis oldu."** – ayəsi də belədir. Çünki Seleyman ﵇ Davuddan ﵇ mal-dövlətə deyil, peyğəmbərliyə, hikmətə və elmə varis çıxmışdı. Bunun da iki səbəbi vardır:

**Birinci:** Məlumdur ki, Davudun ﵇ yüz zövcəsi, üç yüz kənizi və çoxlu sayda övladları var idi. Belə olduğu halda necə ola bilər ki, yalnız Süleyman ﵇ ona varis olsun?! Demək Süleymanın ﵇ varis olaraq xüsusiləşdirilməsi doğru deyildir.

**İkinci:** Əgər burada mal-dövlət nəzərdə tutulmuş olsaydı Allahın kitabında bunun qeyd olunması faydasız olardı. Belə ki, övladın öz valideyininə varis olması təbii bir şeydir. Həmçinin mal-dövlətə varis çıxmaq nə Davud﵇, nə də Süleyman ﵇ üçün tərifəlayiq bir xüsusiyyət deyil. Çünki yəhudi və xaçpərəstlərin də övladları valideyinlərinə varis olurlar.

Elə isə atasının malına varis olmaqda Süleymanı xüsusiləşdirməyin nə manısı var!!! Öncəki ayələrdə Süleyman ﵇ mədh olunur və Allahın ona bəxş etdiyi özəl keyfiyyətlər qeyd olunur. Mal-dövlətə varis olmaq isə insanlar arasında yemək, içmək, ölünü dəfn etmək kimi primitiv məsələlərdən hesab olunur. Faydası olmayan bir fikir isə peyğəmbər haqqında söylənilə bilməz. Əksinə onlar haqqında yalnız faydalı və ibrətli olan məsələlər zikr oluna bilər. Yoxsa "filankəs öldü və hər şey oğluna miras qaldı" cümləsi "onu dəfn etdilər" və ya "yeyib içdilər, sonra da yatdılar" cümləsi ilə

---

[1] Fatir surəsi, 32.

[2] əl-Muminun surəsi, 10-11.

eyni dərəcədə olar. Buna bənzər cümlələr isə Quranın mövzusu ola bilməz.

**5.** Məgər Əbu Bəkr, Ömər və Osman bu mal-dövləti alıb özlərinəmi götürdülər? Onlar həmin malı Peyğəmbər ﷺ etdiyi kimi, onun Əhli-beytinə verərdilər. Elə isə onların nə günahı var? Məgər Əbu Bəkr Fədək bağını özünə götürdümü? Bəlkə onu Ömər və ya Osman özünə götürmüşdü? Elə isə nə üçün onlar tənqid olunur?!

Axı nə üçün insanların qəlblərində Əbu Bəkr, Ömər və Osmana qarşı nifrət yaradırsınız?!

**6.** Fərz edək ki, Fədək bağı həqiqətən də Fatimənin miras payı idi. Onun payı mirasın yarısı olur. Yaxşı o dünyasını dəyişdikdən sonra həmin miras kimə qalmalı idi? Təbii ki, ərinə və övladlarına. Onun dörd övladı var idi: Həsən, Hüseyn, Zeynəb və Ummu Gülsüm. Demək əri mirasın dörddə birini, övladları isə ***"kişiyə qadının iki payı"*** qaydasına müvafiq olaraq yerdə qalanı götürməli idilər.

## Əli رضي الله عنه öz xilafəti dövründə Fədəki Fatimənin övladlarına vermədi:

Əgər Əbu Bəkr, Ömər və Osman Fədək məsələsində zalım olmuşdularsa, demək Əli də zalım olmuşdu. Çünki onların heç biri Fədəki öz sahiblərinə verməmişdir. Demək nə Əbu Bəkr رضي الله عنه, nə Ömər رضي الله عنه, nə Osman رضي الله عنه, nə də Əli رضي الله عنه Fədəki öz sahibinə verməmişdir!

Əlidən رضي الله عنه sonra da hakimiyyətə Həsən رضي الله عنه gəlmişdi. Məgər o, Fədək bağını qardaşı Hüseynə və bacısı Zeynəbə verdimi? Xeyr, vermədi. Çünki Ummu Gülsüm həmin vaxt artıq vəfat etmişdi..

Elə isə, nə üçün Əbu Bəkr, Ömər və Osman رضي الله عنهم qınanır, Əli رضي الله عنه isə qınanmır?! Ya hamı qınanmalıdır, ya da heç kəs.

Həbban ibn Hilal demişdir: Yezid ibn Zurey bizə belə demişdi: Muhəmməd ibn İshaq bizə belə demişdir: "Mən, Əbu Cəfər Muhəmməd ibn Əlidən soruşdum: "İnsanların istəyi ilə İraq torpaqlarına rəhbər seçilən şəxs yaxınlarının miras payı məsələsində necə hökm vermişdi?" O dedi: "O, Əbu Bəkrin və Ömərin رضي الله عنهما yolunu tutub getdi." Mən dedim: "Necə? Nə üçün? Axı siz deyirsiniz

ki?..." O dedi: "Allaha and olsun ki, onun əhli-əyalı hər zaman onun rəyini əsas götürərdilər." Mən dedim: "Bəs ona mane olan nə idi?" O dedi: "Allaha and olsun ki, o istəmirdi ki, ona "Əbu Bəkrə və Ömərə ﷺ müxalif oldu" – desinlər."[1]

**7.** Bu barədə başqa bir fikir də vardır ki, guya Fədək Peyğəmbərin ﷺ Fatiməyə verdiyi bir hədiyyə idi. Bəs Peyğəmbər ﷺ onu Fatiməyə necə hədiyyə etmişdi?

Axı bu necə ola bilər? Peyğəmbərin ﷺ yeddi övladı var idi, üç oğlu, dörd qızı. Oğlanları: Abdullah, Qasim və İbrahim Peyğəmbər ﷺ hələ sağ ikən kiçik yaşlarında dünyalarını dəyişmişdilər. Elə isə onların bu məsələyə aidiyyatları yox idi. Peyğəmbərin ﷺ qızlarına gəlincə, onların ən kiçiyi Fatimə ﷺ idi. Ondan böyüyü Ruqayyə, sonra Ummu Gülsüm, sonra da ən böyüyü Zeynəb idi.

Bəziləri iddia edir ki, guya Peyğəmbər ﷺ Fədək bağını digər qızlarına deyil məhz Fatiməyə hədiyyə edib. Peyğəmbərin ﷺ qızı Ruqayyə hicrətin ikinci ilində Peyğəmbər ﷺ Bədr döyüşünə çıxarkən vəfat etmişdi. Ummu Gülsüm ilə Zeynəb isə sonradan vəfat etmişdilər. Ummu Gülsüm hicrətin doqquzuncu ilində, Zeynəb isə hicrətin səkkizinci ilində vəfat etmişdir. Xeybər döyüşü isə hicrətin yeddinci ilinin əvvəlində baş vermişdi. Demək Peyğəmbər ﷺ Xeybəri fəth edərkən onun üç qızı hələ sağ idi: Fatimə, Zeynəb və Ummu Gülsüm. Belə olduğu halda necə ola bilər ki, Peyğəmbər ﷺ qızlarından yalnız birinə hədiyyə vermiş olsun? Heç bu cür sözü Peyğəmbər ﷺ barəsində demək olarmı?

Noman ibn Bəşirin atası Bəşir ibn Səd Peyğəmbərin ﷺ yanına gəlib: "Ey Allahın Rəsulu, mən istəyirəm bu oğluma bağ hədiyyə edim, sən də buna şahid olasan." – deyəndə Peyğəmbər ﷺ bilirdi ki, onun başqa övladları var. Odur ki, Peyğəmbər ﷺ ona belə dedi: "Övladlarının hamısına vermisənmi?" Yəni övladlarının qalanına da vermisənmi, yoxsa təkcə buna vermisən? O: "Xeyir"- deyə cavab verdi. Onda Peyğəmbər ﷺ dedi: "Get, mən haqsızlığa əsla şahidlik etmərəm."[2]

---

[1] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 1/217.

[2] "Səhih Buxari" № 2650; "Səhih Muslim" № 1623.

Həmçinin Peyğəmbər ﷺ demişdir: "Allahdan qorxun və övladlarınız arasında ədalətli olun."[1] Bunu dedikdən sonra necə ola bilər ki, o öz övladlarının arasında ayrıseçkilik salsın!! Haqsızlığa şahidlik etməyən bir kəs özü necə haqsızlıq edə bilər?! Deməli Peyğəmbərin ﷺ Fədək bağını o biri qızlarına deyil, məhz Fatiməyə verməsi iddiası əsassızdır.

**8.** Əgər Peyğəmbər ﷺ həqiqətən də bağı Fatiməyə vermişdisə, onda o nə üçün öz bağını gəlib Əbu Bəkrin vaxtında tələb edirdi? Əgər Fatimə رضي الله عنها Fədəki artıq Peyğəmbərdən ﷺ götürmüşdürsə onda o onu *yenidən* necə tələb edə bilərdi. Axı Fədək bağı hicrətin yeddinci ilindən artıq onun mülkü sayılırdı. Peyğəmbər ﷺ onu Fatiməyə verdikdən dörd il sonra vəfat etmişdi.

**9.** Axı Fatimə رضي الله عنها nə üçün qəzəblənməli idi. O ki Uca Allahın **"Allah sizə övladlarınız haqqında, kişiyə iki qadının payı qədər *pay verilməsini* buyurur"** – ayəsini dəlil gətirərək buna əsasən öz miras payını tələb edirdi. Elə ki, Əbu Bəkr رضي الله عنه ona Peyğəmbərin ﷺ "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir." – hədisini dedi, bu mövzuya son qoyuldu və o geri döndü. Bu bu hədisi, bu qissəni rəvayət edən Aişə رضي الله عنها belə deyir: "Fatimə Əbu Bəkrdən incikli qaldı." Yəni, Fədəki ona vermədiyinə görə qəzəbləndi. Amma hədisdə onun Əbu Bəkrin əleyhinə nə isə bir söz deməsi zikr olunmur. Fatimənin qəzəblənməsi isə sadəcə Aişənin fəhmi idi. Aişə elə başa düşürdü ki, Fatimə incimiş, sıxılmış və Əbu Bəkri danışdırmamışdır. Ola bilsin ki, Fatimənin Əbu Bəkrə heç bir söz deməməsi onun xəstə olmasından dolayı idi. Əslində Əbu Bəkr də onunla oturub-durmurdu. Çünki Fatimə onun nə qohumu deyildi, nə də ki qızı. O, Peyğəmbərin ﷺ qızı və Əlinin رضي الله عنه zövcəsi idi. Belə olduğu halda Əbu Bəkr onu necə ziyarət edə bilərdi? Ona görə də onu ölümündən bir az öncə ziyarət etmişdi. Hətta ən məşhur rəvayətlərə görə Fatimə dünyasını dəyişdikdə onu yuyan, habelə ona xəstə olduğu vaxt baxan Əbu Bəkrin zövcəsi Əsma bint Umeys olmuşdu. Bu baxımdan Fatimənin həqiqə-

[1] "Səhih Buxari" № 2587.

tən də Əbu Bəkrdən incikli olub-olmamasını Allah bilir. Bu sadəcə Aişənin fəhmi idi. Lakin hədisdə Fatimənin Əbu Bəkrə cavab qaytarması, narazılığını bildirməsi qeyd olunmamışdır. O, Peyğəmbərin ﷺ: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiklərimiz sədəqədir." – hədisini Əbu Bəkrdən eşidər-eşitməz sakitcə öz evinə qayıtmışdı. Çünki dünya xanımlarının ən şərəflisi olan Fatimə Peyğəmbərin ﷺ sözünün qarşısında əsla fikir söyləyə bilməzdi.

Qurtubi Aişənin rəvayət etdiyi həmin hədisi şərh edərkən demişdir: "Fatimə Rəsulullahı itirməklə başına gələn müsibətə başı qarışdığından, habelə evdən bayıra çıxmadığna görə Əbu Bəkrlə رضي الله عنه görüşməmişdi. Hədisi rəvayət edən isə bunun bir küskünlük olduğunu vəsf etmişdi. Halbuki Peyğəmbər ﷺ demişdir: "Heç bir müsəlmana üç gündən artıq qardaşı ilə küsülü qalması halal olmaz."[1] Fatimə də halal və haram məsələlərini ən yaxşı bilənlərdən biri idi və əsla Peyğəmbərə ﷺ müxalif ola bilməzdi."

ən-Nəvəvi demişdir: "Fatimənin Əbu Bəkrdən uzaqlaşması iddiasına gəlincə burada onların görüşməməsi nəzərdə tutulur. Demək bu, heç də haram sayılan uzaqlaşma deyildir. Haram olan uzaqlaşma salam verməmək və üzünü çevirməkdir. Hədisdəki "onunla danışmadı" ifadəsi "miras barəsində onunla danışmadı, ondan heç bir şey istəmədi və onunla görüşmək zərurəti olmadığı üçün onunla danışmadı" – mənasındadır. Lakin belə bir hədis yoxdur ki, Əbu Bəkrlə Fatimə qarşılaşdıqda bir-birilərinə salam verməyiblər və danışmayıblar."[2]

Şəkk yoxdur ki, bu cür məsələləri qabartmaq islam ümmətinin birliyinin olmasına xidmət etmir. Belə məsələri yayanlar tarixdəki yanlış məlumatları yayaraq müsəlmanlar arasında kin və ədavətin yaranmasına səbəb olurlar.

[1] Hədisi Buxari Əbu əyyub əl-Ənsaridən "Ədəb" kitabında, "Küskünlük" fəslində nəql etmişdir. "Fəthul-bari" əsəri, 10/492; Səhih Muslim, "Yaxşılıq və qohumluq əlaqələri" kitabı, "Şəri bir üzür olmadan üç gündən artıq küsülü qalmaq" fəsli, 4/1984.

[2] Səhih Muslimin şərhi, 12/73.

# İkinci fəsil

## Möminlərin əmiri Ömər ibn əl-Xəttab رضي الله عنه

**Birinci bəhs: Ömərlə Əhli-beytin رضي الله عنهم bir-birilərini tərifləmələri barəsində rəvayətlər.**

**İkinci bəhs: Əhli-beytin رضي الله عنهم əl-Faruq Ömər ibn əl-Xəttabın رضي الله عنه fəzilətləri barədə rəvayətləri**

**Üçüncü bəhs: Əhli-beytin öz övladlarına Ömər adını vermələri**

**Dördüncü bəhs: Əhli-beytlə Ömərin رضي الله عنهم ailəsi arasındakı qohumluq əlaqələri**

## Birinci bəhs

## Ömərlə Əhli-beytin bir-birilərini tərifləmələri barəsində rəvayətlər

Şəkk yoxdur ki, Əhli-beytlə Ömər əl-Faruq arasında gözəl münasibətin olması hər kəsə məlumdur. Bunun da əsas göstəricisi onların bir-birilərinə verdiyi qarşılıqlı təriflərdir. Həmçinin Ömər ibn Xəttabın Əlinin qızı Ummu Gülsümlə evlənməsi, Əhli-beytin öz övladlarına Ömər adını vermələri də bunu sübut edir. Buxarinin "Səhih" əsərində nəql olunan hədisdə deyilir: "Rəvayət edilir ki, qıtlıq və quraqlıq üz verdikdə Ömər ibn Xəttab Abbas ibn Abdul-Muttəlibin vasitəsilə *Allahdan* yağmur diləyib: "Allahım, biz Peyğəmbərimizin ﷺ vasitəsilə[1] Səndən yağmur diləyərdik, Sən də bizə yağmur endirərdin. İndi isə biz Peyğəmbərimizin ﷺ əmisinin vasitəsilə Səndən yağmur diləyirik, bizə yağmur endir!"– deyər, *Allah da* onlara yağmur nazil edərdi."[2] Göründüyü kimi, Ömər Peyğəmbərin ﷺ əmisi sağ ikən onun duası ilə təvəssül edirdi. Bundan öncə isə o, Peyğəmbərin ﷺ sağlığında onun duası ilə təvəssül edərdilər. İbn Sədin Tabaqat əsərində Ömərin Abbas ibn Abdulmuttalibə belə dediyi rəvayət olunur: "Vallah ki, sənin İslama gəlməyin Xəttabın İslama gəlməyindən mənim üçün daha əziz idi. Çünki sənin İslama gəlməyini Peyğəmbər ﷺ Xəttabın İslama gəlməyindən daha çox istəyirdi."[3]

Ömərin Əlini tərifləməsi barədə İmam Əhmədin "Fədail əs-Sahəbə" əsərində № 1089, Urva ibn Zubeyrdən nəql olunan hədisdə deyilir: "Bir dəfə bir kişi Ömərin yanında Əli barədə xoşagəlməz soz söyləyir. Bu zaman Ömər ona deyir: "Bu məzarın sahibini tanıyırsanmı? Oradakı Muhəmməd ibn Abdullah ibn Abdulmuttalibdir, Əli ibn Əbu Talib də Abdulmuttalibin oğludur.

---

[1] Buna təvəssül deyilir. Təvəssül Peyğəmbər ﷺ sağ olarkən onun etdiyi dua vasitəsilə edilirdi. Onun vəfatından sonra isə əmisi Abbasın duası ilə təvəssül olunurdu. Çünki o, Peyğəmbərin ﷺ qohumu idi.

[2] "Səhih Buxari" № 1010, "Abbas ibn Abdulmuttalibin zikr olunduğu" fəsil.

[3] "Tabaqat əl-Kubra" əsəri, 4/23; "əl-Bidayə və ən-Nihayə" əsəri, 2/298.

Odur ki, Əli barədə yalnız xeyir söylə. Əgər sən ona nifrət bəsləmiş olsan, bu məzarda olana əziyyət vermiş olarsan."[1]

Həmçinin İbn Abdulbərrin "əl-İstiab" əsərində Ömərin belə dediyi rəvayət olunur: "Bizim aramızda ən gözəl hökm verən Əlidir."[2]

İbn Əsakirin "Tarixi Diməşq" əsərində deyilir: "Ömər ibn əl-Xəttab Divan məclisini qurub təxsis olunacaq məbləğləri müəyyənləşdirdikdə Həsənlə Hüseynə Bədr əhlindən olan atalarına veriləcək miqdara bərabər məbləğ təxsis etdi. Çünki onlar Peyğəmbərin yaxınları idilər. Onların hər birinə beş min müəyyən etdi."[3]

İbn Səd bu hədisi uzun şəkildə öz isnadı ilə Cubeyr ibn Huveyris ibn Nəqiddən nəql etmişdir. Hədisdə deyilir ki, bir dəfə Ömər ibn Xəttab Divan məclisində müsəlmanlarla məşvərət edirdi. Bu zaman Əli ibn Əbu Talib dedi: "Hər ili bütün toplanan malı bölüşdür və ondan heç bir şey saxlama." Osman ibn Əffan isə dedi: "İnsanlara bəs edəcək qədər mal-dövlət olduqca çoxdur. Yaxşı olar ki bunun qeydiyyatı aparılsın ki, alanlarla alamayanlar bəlli olsun. Qorxuram ki, vəziyyət geniş vüsət ala."

Valid ibn Hişam ibn Muğira ona dedi: "Ey möminlərin əmiri, mən Şama gəlmişdim. Oranın padşahlarının nə cür divan toplantısı keçirdiklərinin və əsgərləri necə yığdıqlarının şahidi olmuşam." Beləcə Ömər ﵁ onun sözünü götürdü. Sonra o Əqil ibn Əbu Talib, Məxrəmə ibn Nofəl və Cubeyr ibn Mutimi çağırdı. Onlar Qureyşin əsil-nəcabətli ailələrindən idilər. O, dedi: "İnsanları məqamlara görə bölün." Onlar da yazdılar. İlk öncə Haşimi oğullarını, sonra Əbu Bəkr və onun yaxınlarını, sonra Ömər və onun xilafətdəki yaxınlarını yazdılar. Ömər yazıya baxıb dedi: "Vallahi ki, mən də belə istəyirdim. Amma ilk öncə Peyğəmbərin ﷺ ən yaxın qohumlarından başlayın, Öməri isə Allahın onu qoyduğu yerə qoyun." Muhəmməd ibn Ömər demişdir: Usamə ibn Zeyd ibn Əsləm atasından, o da babasından rəvayət edərək demişdir: "Mən

[1] Hədisi təhqiq edən Vasiyyullah Abbas onu səhih hesab etmişdir.

[2] "əl-İstiab" əsəri, 1871 saylı tərcümeyi-hal. Burada ən yaxşı hökm verənimiz deyildikdə, hökm verməkdə ən elmli olanımız nəzərdə tutulur.

[3] İbn Əsakirin "Tarixi Diməşq" əsəri, 14/179.

gördüm ki, Ömər ibn Xəttaba kitab göstərildi. Orada Teym oğulları Haşimi oğullarından sonra, Adiy oğulları isə Teym oğullarından sonra qeyd olunmuşdu. O dedi: "Öməri öz yerinə qoyun. Peyğəmbərə ﷺ daha yaxın olan qohumlarından başlayın." Bu zaman Adiy oğulları Ömərin yanına gəlib dedilər: "Sən Rəsulullahın ﷺ xəlifəsisən, və ya sən Əbu Bəkrin xəlifəsisən, Əbu bəkr isə Rəsulullahın ﷺ xəlifəsidir. Yaxşı olar ki, özünü bunların qeyd etdiyi məqamdan götürməyəsən." Ömər dedi: "Afərin sizə ey Adiy oğulları! Mənim hesabıma yemək istəyirsiniz? İstəyirsiniz ki, savablarım sizə görə bihudə getsin? Vallahi ki, xeyr mənim çagirişımı gözləyin. Ola bilsin ki lap axırda yazılasınız. Mən iki dostumun yolunu gedirəm, onlara müxalif olsam, *məndən sonrakılar da* mənə müxalif olar. Vallahi ki, dünyada əldə etdiyimiz bütün üstünlükləri, habelə axirətdə əldə etmək istədiyimiz bütün savabları yalnız Muhəmmədin ﷺ sayəsində əldə etmək istəyirik. O, bizim şərəfimizdir, onun qövmü isə ərəblərin ən şərəfliləridir."[1]

Zəhəbinin "Siyar Əlam ən-Nubəla" əsərində isə deyilir: "Bir dəfə Ömər (رضي الله عنه) Hüseynə (رضي الله عنه) belə dedi: "Övladım, bəlkə gəlib bir bizi ziyarət edəsən?" Hüseyn (رضي الله عنه) dedi: "Bir dəfə mən onlara getdim. Həmin vaxt o, Müaviyə (رضي الله عنه) ilə birlikdə idi. İbn Ömər isə qapıda gözləyirdi. Ona içəri girməyə izin verilməmişdi. Odur ki, mən İbn Ömərlə birlikdə geri qayıtdım. Bir müddət sonra mən Ömərlə qarşılaşdım və o mənə dedi: "Övladım bizə nə üçün gəlmədin?" Mən dedim: "Mən gəlmişdim, lakin həmin vaxt sən Müaviyə ilə birlikdə idin. Gördüm ki, oğlun İbn Ömərə daxil olmağa icazə verilmədi və o geri qayıtdı. Odur ki, mən də geri döndüm." Ömər dedi: "İcazə baxımından sən Abdullah ibn Ömərdən daha üstünsən. Bizim qəlbimizdə öncə Allah, sonra da sizsiniz." Sonra o, əlini Hüseynin başına qoydu."[2] Bir bax gör Ömərin xilafəti dövründə Hüseynlə Ömərin arasında nə qədər yaş fərqi var idi. Amma buna baxmayaraq Ömər ona *qayğı göstərməkdə* çox həris idi. Məgər bu Ömər əl-Faruqun onlara böyük diqqət yetirməsinə və onları çox sevməyinə dəlalət etmirmi? Allah onlardan razı olsun.

---

[1] "ət-Tabaqat əl-Kubra" əsəri, 3/295, 2960.

[2] "Tarixi Diməşq" əsəri, 14/179.

Buxarinin "Səhih" əsərində Ömərin Abdullah ibn Abbası ﵄ tərifləməsi barəsində İbn Abbasın ﵄ özünün belə dediyi rəvayət olunur: "Ömər məni Bədr döyüşündə iştirak etmiş yaşlı səhabələrlə birlikdə içəri dəvət edirdi. Onlardan bəziləri soruşdular: "Niyə bu uşağı bizimlə birlikdə dəvət edirsən?" Ömər ﵁ dedi: "Çünki o, yaxşı tanıdığınız birinin nəslindəndir."[1]

İbn Abdulbərr Ömərin İbn Abbas ﵄ barəsində belə dediyini nəql etmişdir: "Quranın ən yaxşı tərcümanı Abdullah ibn Abbasdır." Ömər ﵁ onu gördükdə deyərdi: "Bir baxın, yetkin, dili sual verən və ağıllı qəlbə sahib gənc gəlir."[2]

əl-Hakimin "əl-Mustədrak" əsərində Əli ibn Hüseynin belə dediyi nəql olunmuşdur: "Bir dəfə Ömər ibn əl-Xəttab ﵁ Əli ibn Əbu Talibin ﵁ qızı Ummu Gülsümə elçi düşdü və dedi: "Qızını mənimlə evləndir." Əli ﵁ dedi: "Mən onu qardaşım oğlu Abdullah ibn Cəfərə ərə vermək istəyirdim." Ömər dedi: "Qızını mənimlə evləndir. Allaha and olsun ki, insanlar arasında ona məndən daha çox qayğı göstərəcək biri ola bilməz." Beləcə Əli qızını ona verdi. Sonra Ömər mühacirlərin yanına gəldi və dedi: "Məni təbrik etməyəcəksinizmi?" Onlar dedilər: "Kiminlə evlənirsən ey möminlərin əmiri?" O dedi: "Əlinin və eyni zamanda Rəsulullahın ﷺ qızı Fatimənin qızı Ummu Gülsümlə. Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Qiyamət günü mənim səbəbimdən və nəsəbimdən başqa bütün səbəblər və nəsəblər qırılacaqdır."[3]

Zəhəbinin "Siyar Əlam ən-Nubəla" əsərində Muhəmməd ibn Əli ibn əl-Hənəfiyyə demişdir: "Bir dəfə mən bacım Ummu Gülsümün yanında olarkən Ömər bizim yanımıza daxil olub məni qucaqladı. Sonra dedi: "*Ey Ummu Gülsüm,* ona şirniyyat ikram et."[4]

Bax – Allah səni əfv etsin – əgər Ömər ﵁ Əlini və onun zürriyyətini sevmiş olmasaydı Muhəmməd ibn Əlini heç qucaqlayardımı? Ummu Gülsümə deyərdimi ki, ona şirniyyat ver?

---

[1] "Səhih əl-Buxari" əsəri, № 4294, "Fəth günü Peyğəmbərin məqamı" fəsli.

[2] İbn Abdulbərrin "əl-İstiab" əsəri, 1588 saylı tərcümeyi hal, 3/935.

[3] Hədisi Hakim № 4684, 3/153, rəvayət etmiş və Albani "Silsilətu əl-Əhadis əs-Səhihə" əsərində, № 2036 hədisin səhih olduğunu bildirmişdir.

[4] "Siyar Əlam ən-Nubəla" əsəri, 4/115.

Bir dəfə Ömər ibn əl-Xəttab ﵁ Rumlulara qarşı döyüşlə bağlı Əli ﵁ ilə məsləhətləşdikdə Əli ona belə dedi: "Nə zaman bu düşmənin üzərinə özün getmiş olsan, onlarla qrşılaşdıqda onları məğlub edəcəksən. Amma müsəlmanlar üçün qayıda biləcəkləri yeganə mərkəzə çevrilmə.[1] Çünki onların səndən sonra qayıda biləcəkləri ikinci mənbələri yoxdur. Onların üzərinə müharibələrdə təcrübəsi olan şəxslər göndər. Xüsusi məharəti olan və nəsihət qəbul edən kəslər göndər. Əgər Allah zəfər nəsib etsə bu sənin istəyinə uyğun olar. Yox məğlub olsanız yenə də sən müsəlmanlara rəhbərlik etməkdə davam edərsən."[2]

Həmçinin o, Ömər ibn Xəttaba ﵁ müraciət edərək demişdir: "Çalış bir qütb ol ki, ərəblər sənin ətrafında toplansınlar. Özün müharibənin alovunda iştirak etmə. Əgər sən bu dünyanı tərk etsən ərəblər də pərən-pərən olar. Bu zaman sənin yoxluğunla baş verəcək çatışmamazlıqlar sənin mövcudluğunda olanlardan daha çox olacaqdır. Qoy əcnəbilər sabah sənə baxanda desinlər ki, ərəblərin rəhbəri budur. Onu məhv edə bilsəniz rahat olarıq. Bununla da onlar daha çox sənin üzərinə atılacaq və sənə tamah salacaqlar."[3]

Həmçinin o, Ömər ibn əl-Xəttabı ölümündən sonra tərif edərək demişdi: "O, Allah üçün nə qədər çox yaxşı işlər görmüşdü, ayrılikləri düzəltmiş, xəstəlikləri müalicə etmiş, sünnəni dirçəltmiş, fitnələrlə üzləşməmişdir. O saf qəlbli və eybi az olan birisi idi. Xeyir işlər görüb şər işlərdən uzaqlaşmış, Allaha lazımınca itaət edərək Ondan layiqincə qorxmuşdur. Bu dünyadan köçdükdə insanları aydın bir yol üzərində qoyub getmişir. Həmin yola zəlalətdə olan vara bilməz, hidayətə varmış kəslər isə o yoldan azmazlar."[4]

---

[1] Onları özündən asılı vəziyyətə salma. Elə et ki, sən olmasan yanına gedə biləcəkləri bir kəs olsun.

[2] "Nəhc əl-Bəlağə" əsəri, 134-cü xütbə. "Ömər bin əl-Xəttab Rumlulara qarşı döyüş barəsində Əli ilə məsləhətləşdikdə onun söylədiyi sözlər."

[3] "Nəhc əl-Bəlağə" əsəri, səh. 202, 146-cı xütbə. "Ömər bin əl-Xəttab Farslara qarşı döyüş barəsində Əli ilə məsləhətləşdikdə onun söylədiyi sözlər."

[4] "Nəhc əl-Bəlağə" əsəri, səh. 222. "Əlinin ﵁ Ömər ibn Xəttaba ﵁ verdiyi tariflərdən."

İbn Əbu Hədid[1] "Nəhc əl-Bəlağə" əsərini şərh edərkən Əlinin ﷺ sözlərinə aydınlıq gətirərək demişdir: "Filankəs Allah üçün nə qədər çox yaxşı işlər görmüşdü." Burada filankəs deyildikdə Ömər ibn əl-Xəttab nəzərdə tutulur. "Nəhc əl-Bəlağə" əsərini toplamış ər-Radiy Əbu əl-Həsənin[2] xətti ilə yazılmış nüsxədə filankəs sözünün altında Ömərin adını yazılmışdı. Bu barədə mənə şair Fəxxar ibn Məd əl-Musəvi əl-Əvdi demişdi."[3]

Əli ibn Əbu Talib ﷺ Öməri ﷺ bir daha tərif edərək demişdir: "O müsəlmanların valisi olmuş, İslam dini geniş vüsət alana qədər onu yaşamış və yaşatmışdır."[4]

İbn Əbu Hədid demişdir: "əl-Ciran sözü boyunun ön tərəfi mənasındadır. Burada vali deyildikdə isə Ömər ibn əl-Xəttab nəzərdə tutulur."[5]

## İmam Muhəmməd əl-Baqirin tərifləri:

İbn Səd Bəssam əs-Seyrafinin belə dediyini rəvayət etmişdir: "Mən Əbu Cəfərdən Əbu Bəkr və Ömər barəsində soruşduqda o, belə cavab verdi: "Vallahi ki, mən onları özümə rəhbər hesab edirəm və onlar üçün bağışlanma diləyirəm. Əhli-beytimdən kimi gormuşəmsə hamısı onları özlərinə rəhbər hesab etmişlər."[6]

---

[1] İbn Əbu Hədid: O, İzzuddin Abdulhəmid bin Muhəmməd bin əl-Hüseyn bin Əbu Hədid əl-Mədainidir. O, ədib və şairdir. "Nəhc əl-Bəlağə" əsərinin və "əs-Səbu əl-Əlaviyyət" qəsidələrinin ən böyük şərh edəni odur. Hicri tarixi ilə 586-cı ildə anadan olmuş, 655-ci ildə isə Bağdadda vəfat etmişdir. Şeyx Abbas əl-Qummi onun tərcümeyi halını yazmış, "əl-Kunə və əl-Əlqab" əsərində, 1/192 onu tərifləmişdir.

[2] ər-Radiy Əbu əl-Həsən: O, ədib və alim Muhəmməd bin əl-Hüseyn bin Musa bin İbrahim bin Musa əl-Kazımdır. Hicri tarixi ilə 359-cu ildə anadan olmuş, 456-cı ildə isə vəfat etmişdir. Şeyx Abbas əl-Qummi "əl-Kunə və əl-Əlqab" əsərində, 2/272 onun tərcümeyi halını yazmış, onu mədh etmiş və "Nəhc əl-Bəlağə" əsərini həqiqətən də topladığını isbat etmişdir. Bunu inkar edənlərə isə rəddiyyə vermişdir.

[3] İbn Əbu Hədidin "Nəhc əl-Bəlağə" əsərinin şərhi, 12/3.

[4] "Nəhc əl-Bəlağə" əsəri, 4/108.

[5] İbn Əbu Hədidin "Nəhc əl-Bəlağə" əsərinin şərhi, 20/218.

[6] "ət-Tabaqat" əsəri, 5/321.

Həmçinin demişdir: “Fatimənin övladlarının yekdil rəyinə görə Əbu Bəkr və Ömər barəsində yalnız yaxşı sözlər söylənilməlidir.”[1]

## İmam Abdullah ibn Həsən ibn Həsən ibn Əlinin رحمه الله tərifləri:

Əhli-beytinin digər nümayəndələri kimi Abdullah ibn Həsən ibn Həsənin də yanında Raşidi xəlifələrin və səhabələrin özünəməxsus yerləri var idi.

Hafiz İbn Əsakir Əbu Xalid ibn əl-Əhmərin belə dediyini rəvayət etmişdir: “Bir dəfə mən Abdullah ibn Həsəndən Əbu Bəkr və Ömər barədə soruşduqda o dedi: “Onların hər ikisinə Allahın salavatı olsun. Onlara salavat verməyənlərin üzərinə isə xeyir-dua nəsib olmasın.”[2] [3]

Həmçinin demişdir: “O iki nəfər yadıma düşdükdə onlar üçün Allaha dualar edir, bununla da İzzət və Cəlal Sahibi olan Allaha yaxınlaşıram.”[4]

Həmçinin eyni mənbədə Abdullah ibn Həsənin azad etdiyi köləsi Hafs ibn Ömərin belə dediyi rəvayət olunur: “Mən Abdullah ibn Həsənin dəstəmaz aldığını və xüflərinə məsh çəkdiyini görüb soruşdum: “Sən məsh çəkirsən?” O dedi: “Bəli, Ömər ibn əl-Xəttab

---

[1] “Siyar Əlam ən-Nubəla” əsəri, 4/406.

[2] “Tarixi Diməşq” əsəri, 29/255-256.

[3] Uca Allah Qurani Kərimdə buyurur: “**Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir.”** (ət-Tovbə surəsi, 103). *Ayənin ərəbcəsində hərfi tərcümədə “salavat gətir” deyilir.* Demək “salavat” dua etmək deməkdir. Həmçinin Peyğəmbər ﷺ demişdir: “[Allahummə salli alə ali Əbi Əufə] Allahım! Əbu Əufənin ailəsinə xeyir-dua ver!” əl-Buxarinin “Səhih” əsəri, “Zəkat” kitabı, “İmamın zəkat verən adam üçün xeyir-duası” fəsli, (63). Həmçinin Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, bir dəfə bir qadın Peyğəmbərə ﷺ “Mənim həyat yoldaşım üçün xeyir-dua ver!” – deyə müraciət etdi. Onda Peyğəmbər ﷺ belə dua etdi: “[Səlləllahu aleyki və zəucik] Allah sənə və sənin həyat yoldaşına xeyir-dua versin!” Hədisi Əbu Davud “Sünən” əsərində, “Quran səcdələri” kitabı, “Peyğəmbərdən ﷺ qeyrisinə salavat gətirmək” fəslində səhih isnadla rəvayət etmişdir.

Bütün bu dəlillərdən aydın olur ki, salavatın mənası duadır. İmam Abdullah ibn Həsən رحمه الله də məhz bu mənanı qəsd edirdi.

[4] “Tarixi Diməşq” əsəri, 29/255-256.

da məsh çəkərdi. Hər kim Allahla özü arasında Öməri qoyarsa etibarlı sayılar."[1] Yəni Ömər ﷺ şəriəti nəql etməkdə etibarlı insandır.

Həmçinin "Tarixi Diməşq" əsərində nəql olunur ki, bir dəfə Hafs ibn Qeys Abdullah ibn Həsəndən xüflərə məsh çəkmək barəsində soruşduqda o belə cavab verdi: "Məsh çəkə bilərsən, çünki Ömər ibn əl-Xəttab da məsh çəkərdi." O yenə soruşdu: "Mən səndən soruşuram ki, sən məsh çəkirsənmi?" O dedi: "Mən sənə Ömər barəsində xəbər verdiyim halda mənim məsh çəkməyimi və mənim rəyimi soruşmağın yersizdir. Çünki Ömər məndən və yer üzərində olan mənim kimi insanlardan daha xeyirli idi." O yanə soruşdu: "Ey Əbu Muhəmməd, bəziləri deyirlər ki, siz bunu təqiyyə edərək belə deyirsiniz." Bu zaman biz qəbirlə minbərin arasında idik və o belə dedi: "Allahım, bu mənim gizlində və aşkarda olan sözümdür, bundan savayı heç kimin sözünü qəbul etmə." Sonra dedi: "Bu adam iddia edirdi ki, guya Əli çarəsiz halda olub və Rəsulullah ﷺ ona bəzi şeyləri əmr etdiyi halda o həmin əmrləri həyata keçirməmişdir. Əliyə bu növ iftiraların yaxılması artıq kifayətdir. "Rəsulullahın ﷺ Əliyə əmrlər verməsi və onun da bu əmrləri yerinə yetirməməsini iddia etmək Əli üçün bir nöqsandır."[2]

Başqa bir mənbədə[3] isə:

Salim ibn Əbu əl-Cəad demişdir: "Bir dəfə Nəcran əhli Əlinin ﷺ yanına gəlib dedilər: "Ey möminlərin əmiri! Sənin kitabın əlində, şəfaətin dilindədir. Ömər bizləri öz torpaqlarımızdan didərgin salıb, bizləri ora qaytar." O, dedi: "Vay sizin halınıza! Ömər olduqca müdrik insan idi, Ömərin etdiyi bir işi dəyişdirə bilmərəm."

Həccac Şabidən rəvayət edən bir adamın belə dediyini rəvayət etmişdir: "Əli ibn Əbu Talib ﷺ Kufəyə gələndə demişdi: "Mən Ömərin ﷺ etdiyi əməlləri dəyişdirmək üçün gəlməmişəm."

Əbu Abdurrəhman əs-Suləmi demişdir: "Bir dəfə Ramazan ayında gecə namazında[4] Əli ibn Əbu Talib ﷺ bizlərə imamlıq etdi.

---

[1] "Tarixi Diməşq" əsəri, 29/255-256.

[2] "Tarixi Diməşq" əsəri, 29/255-256.

[3] əl-Acurrinin "əş-Şəriə" əsəri, 4/1778, 4/1777; Daraqutninin "Fədail əs-Səhabə" əsəri, 33; İbn Zəncuyanın "əl-Əmval" əsəri, 1/277.

[4] Yəni, təravih namazında.

Sonra o, insanlar gecə namazını qılarkən Kufənin bəzi məscidlərini gəzdi və dedi: "Bizim məscidlərimizi nurlandırdığın kimi Allah da sənin qəbrini nurlandırsın ey Xəttabın oğlu."[1]

Allah sənə rəhm etsin! Həsən və Hüseynə olan sevgi və vəfanı tərənnüm edən aşağıda zikr edəcəyimiz rəvayət barəsində mənimlə bərabər bir yaxşı düşün:

Məmar ibn Raşidin əsərində deyilir:

Abdurrəzzaq Məmardan, o da Zuhridən İbrahim bin Abdurrəhman ibn Aufun belə dediyini rəvayət etmişdir: "Xosrovun Xəzinəsi Ömərin yanına gətirildikdə Abdullah ibn əl-Ərqam əz-Zuhri ona belə dedi: "Onu bölənədək beytul-malamı qoyacaqsan?" Ömər dedi: "Onları paylamayınca heç bir yerə qoymayacağam." Sonra o, belə də əmr verdi və xəzinə məscidin bir tərəfinə yığıldı. Gözətçilər səhərədək onu qorudular. Səhər açıldıqda əmr etdi və xəzinənin üstü açıldı. Orada göz oxşayan saysız hesabsız ləl-cəvahirat var idi. Bu vaxt Ömər ağlamağa başladı. Abdurrəhman ibn Auf ona dedi: "Ey möminlərin əmiri, səni ağladan nədir? Vallahi ki, bu gün şükür etmək, sevinmək və fərəhlənmək günüdür." Ömər dedi: "Xeyir, bu *xəzinə* hansı qövmə verilibsə onların arasına ədavət və nifrət salınıb." Sonra dedi: "İnsanlara bunu ovucla verək yoxsa çəki ilə?" Əli dedi: "Ovucla versək yaxşıdır." Sonra o, hər kəsdən öncə Həsən ibn Əlini çağırdı və ona ovucla qızıl-gümüş verdi. Sonra da Hüseyni çağırıb ona da verdi. Daha sonra başqa insanlara verdi. Sonra bunu qeydiyyata saldı. Mühacirlərin hər biri üçün hər il beş min dirhəm pul təyin etdi. Ənsarın hər biri üçün isə dörd min dirhəm təyin etdi. Safiyyə və Cuveyriyyə istisna olmaqla Peyğəmbərin ﷺ zövcələrinin hər biri üçün on iki min dirhəm təyin etdi. Onların hər biri üçün isə altı min dirhəm təyin etdi."[2]

Bu rəvayət dəlalət edir ki, Əli onun yaxın tərəfdarı idi.

Əli ibn Ömər ibn Əli ibn Hüseyn Cəfər ibn Muhəmməddən, o da öz atasından, o da atasından rəvayət edərək demişdir: "Ömər

---

[1] əl-Acurrinin "əş-Şəriə" əsəri, 4/1781.

[2] Abdurrəzzaqın "Musannəf" əsəri, 11/99.

ibn əl-Xəttab ﷺ minbərdə olarkən Hüseyn ibn Əli ona dedi: Atamın minbərindən en." Ömər dedi: "Vallahi ki, bu sənin atanın minbəridir, mənim atamın minbəri deyil." Əli dedi: "Vallahi ki, bunu ona mən deməmişəm." Ömər isə belə cavab verdi: "Vallahi ki, buna şübhə etmirik."[1]

Bir baxın görün, hətta Əli Ömərin ona hədiyyə etdiyi libası ilə fəxr edirdi. Əbu əs-Səfər demişdir: "Əli bir libası olduqca çox geyinərdi. Ondan soruşdular: "Ey möminlərin əmiri, sən bu libası olduqca çox geyinirsən." O dedi: "Bu libası mənə ən sevimli dostum, seçilmişim, qardaşım və əzizim Ömər ibn əl-Xəttab geyindirmişdi. Ömər Allahdan bağışlanma dilədi, Allah da onu bağışladı." Sonra Əli ağladı."[2]

## Əli ﷺ Ömərə ﷺ nəsihət edir!

Əli ibn Bəzimə Şabidən rəvayət edərək demişdir: "Bir dəfə Əli Ömərə ﷺ belə dedi: "Ey möminlərin əmiri! Əgər iki dostuna qovuşmaq istəyirsənsə ölümün yaxın olduğunu düşün, doyana qədər yemə, izarını[3] o biri tərəfinə də çevirib geyin, paltarını yama və ayaqqabını təmir et. Bu zaman onlara qovuşarsan."[4]

Bu isə vəfadarlığın nadir sübutlarındandır!

Əyyub əs-Sixtiyani Cəfər bin Muhəmməddən, o da atasından rəvayət edərək demişdir: "Ömər yaralandıqda məzarla minbər arasında oturan bir qrup Bədr əhlinə bir nəfərlə xəbər göndərdi. Həmin şəxs gəlib dedi: "Ömər deyir ki, sizi and verirəm Allaha, mənim bu halıma razılıqlamı edirdiniz?" İnsanlar bir anlığa dayandılar. Bu zaman Əli ﷺ dedi: "Allah şahiddir ki, xeyir. Kaş ki, Allah bizim ömrümüzdən kəsib sənə verəydi."[5]

Aşağıdakı rəvayətlər də onların arasındakı sevgi və məhəbbətin nə qədər güclü olduğuna dəlalət edir:

---

[1] Daraqutninin "Fədail əs-Sahəbə" əsəri, 1/34.
[2] Daraqutninin "Fədail əs-Sahəbə" əsəri, 1/36.
[3] İzar – qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanılan örtük.
[4] Daraqutninin "Fədail əs-Sahəbə" əsəri, 1/37.
[5] Daraqutninin "Fədail əs-Sahəbə" əsəri, 1/44.

Əbu Cəfər Muhəmməd ibn Əli demişdir: "Əbu Bəkrlə Ömərin ﷺ fəzilətini bilməyən adam sünnədən bixəbərdir."

İbn Əbu Hazim atasından rəvayət edərək demişdir: "Bir dəfə Əli ibn Hüseyndən Əbu Bəkr və Ömər haqqında, həmçinin onların Rəsulullah ﷺ yanındakı məqamları barədə saruşduqda o, belə cavab verdi: "Bu gün necədirlərsə o zaman da elə idilər. Onların məzarları yanaşıdır."

Zeyd ibn Əli ibn Hüseyn demişdir: "Mən Əbu Bəkrin yerində olsaydım Fədək məsələsində məhz Əbu Bəkrin verdiyi hökmün eynisini verərdim."

Zeyd ibn Əli demişdir: "O mənə dedi: "Ey Haşim! Vallahi, bil ki, Əbu Bəkr və Ömərdən uzaq olmaq Əlidən də uzaq olmaq anlamındadır. İstəyirsən belə et, istəmirsən etmə."

Muhəmməd ibn Əli demişdir: "Fatimənin övladlarının yekdil rəyinə görə Əbu Bəkr və Ömər barəsində yalnız yaxşı sözlər söylənilməlidir."[1]

[1] Daraqutninin "Fədail əs-Sahəbə" əsəri, 61, 73, 76, 83.

## İkinci bəhs

## Əhli-beytin ﷺ əl-Faruq Ömər ibn əl-Xəttabın ﷺ fəzilətləri barədə rəvayətləri

**Onun İslamı qəbil etməsi Peyğəmbərin ﷺ duası nəticəsində olmuşdu:**

**- İbn Abbasın ﷺ rəvayəti:**

İbn Abbasdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahım İslamı Əbu Cəhl ibn Hişam və ya Ömər ibn əl-Xəttabla izzətləndir." Elə həmin gün səhər açıldıqda Ömər Peyğəmbərin ﷺ yanına gedib İslamı qəbul edir.[1]

Həmçinin İbn Abbasdan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahım İslamı Ömərlə izzətləndir."[2]

### Peyğəmbərə ﷺ Əbu Bəkr və Ömərlə məşvərət etmək əmr olunmuşdur:

**- İbn Abbasın ﷺ rəvayəti:**

İbn Abbas ﷺ İzzət və Cəlal Sahibi olan Allahın: **"Onlarla məşvərət et."** – ayəsi ilə bağlı demişdir: "Yəni, Əbu Bəkr və Ömərlə."[3]

### Hər zaman Peyğəmbərlə ﷺ birlikdə olması:

**Abdullah ibn Abbasın ﷺ rəvayəti:**

Əbu Məlikə İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Ömər vəfat etdikdə çarpayısının[4] üzərinə qoyuldu və insanlar

---

[1] Hədisi İmam Əhməd "Fədail əs-Səhabə" əsərində, № (311); Tirmizi "Sünən" əsərində, 5/618, № 3683 rəvayət etmişdir. Tirmizi demişdir: "Bu qərib hədisdir." Hədisi həmçinin Təbərani "əl-Kəbir" əsərində 11/255, № 11657 rəvayət etmişdir. "Fədail əs-Səhabə" əsərini təhqiq edən alim söyləmişdir: "Bu çox zəif isnadla rəvayət olmuşdur. Lakin həmin hədisi gücləndirən başqa rəvayətlər də vardır."

[2] Bu hədisi Hakim "əl-Mustədrak" əsərində 3/89, № 4484 rəvayət etmiş, isnadının "səhih" olduğunu və "Buxari və Muslimin həmin hədisi öz əsərlərində qeyd etmədiyini" söyləmiş, Zəhəbi də onun dediyi ilə razılaşmışdır. Şeyx Albani "Silsilətu əl-Əhadis əs-Səhihə" əsərində № 3225, bu hədisin bütün rəvayətlərini cəm etdikdən sonra onun səhih olduğunu demişdir.

[3] Hədisi hakim "Mərifətus-sahəbə" əsərində, "Ömər ibn əl-Xəttab" fəslində, 3/74, № 4436, rəvayət etmiş və Buxari və Muslimin şərtlərinə uyğun olduğuna görə səhih olduğunu bildirmişdir. Zəhəbi də onun bu fikri ilə razılaşmışdır.

[4] Onun nəşi nəzərdə tutulur.

onun ətrafına toplaşıb onun üçün dualar etməyə və cənazə namazı qılmağa başladılar. Həmin vaxt mən də onların arasında idim. Birdən çiynimdən bir nəfərin tutması məni diksindirdi. Baxıb gördüm ki, bu Əli ibn Əbu Talibdir. O, Ömərə rəhmət oxudu və dedi: "Səndən sonra Allah qarşısına sənin əməlinin bənzəri kimi edib çıxmaq istədiyim başqa birisi yoxdur. Vallahi, mən ümid edirəm ki, Allah səni iki dostuna qovuşduracaq. Mən çox vaxt Peyğəmbərin ﷺ belə dediyi eşidərdim: "Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerə* getdim. Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerdən* daxil oldum. Mən, Əbu Bəkr və Ömərlə birlikdə *filan yerə* çıxdım."[1]

## Ömərin رضي الله عنه söylədiklərinə müvafiqlik:

**Abdullah ibn Abbasın رضي الله عنهما rəvayəti:**

İbn Abbas رضي الله عنهما Ömər ibn əl-Xəttabın رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Abdullah ibn Ubey ibn Səlul öldükdə Peyğəmbəri ﷺ çağırdılar ki, gəlib onun üçün cənazə namazı qıldırsın. Peyğəmbər ﷺ gəlib onun yanına çatdıqda mən ona dedim: "Ey Allahın Rəsulu, İbn Ubey üçün cənazə namazımı qılacaqsan? Axı o, filan vaxt belə-belə demişdi." Mən Abdullah ibn Ubeyin dediyi sözləri bir-bir sadaladım. Bu zaman Peyğəmbər ﷺ gülümsəyib dedi: "Əl çək ey Ömər." Mən yenə ona həmin fikirləri təkrar etdikdə o, buyurdu: "Mənə seçim verildi və mən bunu seçdim. Əgər mən bilsəm ki, yetmişdən çox ona bağışlanma diləsəm Allah onu bağışlayar bunu edərdim." Beləcə Rəsulullah ﷺ onun üçün cənazə namazı qıldı. Az keçmədi ki, "ət-Tovbə" surəsinin aşağıdakı ayələri nazil oldu: **"Onların bağışlanması üçün dua etsən də, etməsən də, *hətta* onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz. *Döyüşə getməyib* arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq *evdə* qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!"–**

---

[1] Hədisi Buxari "Səhabələrin üstünlükləri" kitabı, "Ömər ibn əl-Xəttabın fəzilətləri" fəslində, № 3677, 3685; Muslim isə "Səhabələrin üstünlükləri" kitabı, "Ömər ibn əl-Xəttabın fəzilətləri" fəslində, № 2389, rəvayət etmişdir.

**dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar. Qoy onlar etdikləri *günahların* cəzası olaraq az gülüb çox ağlasınlar. Əgər Allah səni onlardan bir zümrənin yanına göndərsə və onlar *döyüşə* çıxmaq üçün səndən izin istəsələr, de: "Siz bir daha mənimlə *döyüşə* çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz birinci dəfə *evdə* oturmağa razı oldunuz. Elə isə arxada qalanlarla bərabər, siz də *evdə* oturun!" Heç vaxt onlardan ölmüş bir kəsin *cənazə* namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər."[1]** Sonradan mən Peyğəmbərə ﷺ qarşı necə cürət edib belə iş görməyimə təəccüb etdim. Daha doğrusunu isə Allah və Rəsulu bilir."[2]

İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Abdullah ibn Ubeyin atası oğluna belə demişdi: "Övladım, məni kəfənləmək üçün peyğəmbərdən onun libaslarından birini istəyərsən və peyğəmbərə deyərsən ki, mənə cənazə namazı qılsın." Abdullah dedi: "Ey Allahın Rəsulu, sən Abdullahın şərəfinə bələdsən, o, istəyirdi ki sənin libaslarından birini aparıb onunla onu kəfənləyək və sən də onun cənazə namazını qıldırasan." Peyğəmbər ﷺ libaslarından birini ona verdi. Onun üçün namaz qılmaq istədikdə Ömər dedi: "Ey Allahın Rəsulu, sən Abdullahın münafiq olduğunu bildiyin halda indi onun üçün namaz qılacaqsan? Axı Allah sənə bunu qadağan edib." O soruşdu: "Harada?" O dedi: **"Onların bağışlanması üçün dua etsən də, etməsən də, *hətta* onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz."[3]** Peyğəmbər ﷺ dedi: "Mən bağışlanmanı artıracağam." İzzət və Cəlal Sahibi olan Allah bu ayəni nail etdi: **"Heç vaxt onlardan ölmüş bir kəsin *cənazə* namazını qılma, qəbrinin başında da durma."[4]** Həmçinin bu ayə də nazil oldu: **"Sən**

---

[1] "ət-Tovbə" surəsi, 80-84.

[2] Hədisi Buxari "Cənazələr" kitabında, "Münafiqlər üçün cənazə namazı qılmağın bəyənilməməsi" fəslində, № 1366; həmçinin "ət-Tovbə" surəsinin təfsirində № 4672 və № 4671 rəvayət etmişdir.

[3] ət-Tovbə surəsi, 80.

[4] ət-Tovbə surəsi, 84.

**onlar üçün bağışlanma diləsən də, diləməsən də, fərqi yoxdur. Allah onları bağışlamayacaq. Şübhəsiz ki, Allah fasiq adamları doğru yola yönəltməz."**[1] Bir dəfə bir kişi Rəsulullahın yanına daxil olub xeyli müddət orada qaldı. Peyğəmbər ﷺ üç dəfə evdən çıxdı ki, o da onun arxasınca gəlsin, o isə çıxmadı. Bu zaman Ömər evə daxil oldu və Peyğəmbərin ﷺ oturuşundan üzündəki narazılığı hiss etdi. Ömər üzünü kişiyə tutub dedi: "Deyəsən sən Rəsullullaha əziyyət verirsən." Kişi anlayıb ayağa qalxdı. Bu zaman Peyğəmbər ﷺ ona dedi: "Mən üç dəfə ayağa qalxdım ki, birlikdə gedək, sən isə qalxmadın." Onda Ömər dedi: "Ey Allahın Rəsulu, sənin xanımların başqa qadınlarla eyni deyil. Yaxşı olar ki, arada bir örtük olsun. Onların qəlbləri daha safdır." Bu zaman Uca Allah aşağıdakı ayəni nail etdi: **"Ey iman gətirənlər! Sizə yeməyə izin verilməyib *süfrəyə dəvət olunmadıqca* Peyğəmbərin evlərinə girməyin və *əvvəlcədən gəlib* yeməyin hazırlanmasını da gözləməyin. Lakin dəvət olunduqda girin və yemək yedikdən sonra bir-birinizlə söhbətə dalmadan dağılışın. Çünki bu *hərəkətiniz* Peyğəmbəri narahat edir və o sizdən utanır. Allah isə sözün açığını *sizə bəyan etməkdən* utanmır. *Peyğəmbərin* zövcələrindən bir şey istədikdə, pərdə arxasından istəyin. Bu həm sizin qəlbinizə, həm də onların qəlbinə daha çox saflıq gətirər. Sizə Allahın Elçisini narazı salmaq, vəfatından sonra onun həyat yoldaşları ilə izdivac etmək qətiyyən yolverilməzdir. Həqiqətən, bu, Allah yanında böyük günahdır."**[2] Peyğəmbər ﷺ bu barədə Ömərə xəbər göndərdi.

Həmçinin Peyğəmbər ﷺ əsirlər məsələsində Əbu Bəkr və Ömərlə məsləhətləşdi. Əbu Bəkr dedi: "Ey Allahın rəsulu, qövmündən utanıram, gəl əsirlərdən fidyə alaq ki faydalanaq." Ömər ibn əl-Xəttab isə dedi: "Gəl onları öldür." Peyğəmbər ﷺ dedi: "İkiniz də eyni fikirdə olsaydınız edərdim. Sonra o, Əbu Bəkrin fikirinə üstünlük verdi. Uca Allah da bu ayələri nazil etdi: **"Peyğəmbərə yer üzündə *çoxlu kafir* qırmayınca əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə axirəti *qazanmağınızı* is-**

---

[1] əl-Munafiqun surəsi, 6.

[2] əl-Əhzab surəsi, 53.

**təyir. Allah Qüdrətlidir, Hikmət sahibidir.”**[1] Sonra da bu ayə: **“Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq; sonra o qandan bir parça ət yaratdıq; sonra o bir parça ətdən sümüklər yaratdıq; sonra da sümükləri ət ilə örtdük; sonra da onu başqa bir məxluq olaraq xəlq etdik.”**[2] Beləcə sonuncu ayəyədək nail olundu. Ömər dedi: “Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır!” Uca Allah da ayənin sonunu nazil etdi: **“Yaradanların ən yaxşısı olan Allah *ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır!”**[3] [4]

Abdullah ibn Abbas ﷺ demişdir: “Ömər ibn əl-Xəttab mənə belə demişdir: “Bədr döyüşü zamanı Peyğəmbər ﷺ müşriklərə nəzər saldı. Bu zaman onların sayı min nəfər idi. Onun səhabələrinin sayı isə üç yüz on doqquz nəfər idi. Allahın Peyğəmbəri ﷺ üzünü qibləyə çevirib əllərini açdı və dedi: “Allahım mənə verdiyin vədi həyata keçir, Allahım mənə vəd etdiyini bəxş et. Allahım Sən İslam əhlindən olan bu toplumu həlak etsən yer üzərində Sənə ibadət olunmaz.” Beləcə o, üzü qibləyə əllərini açaraq Rəbbinə o qədər dualar etdi ki, sonda örtüyü çiynindən yerə düşdü. Bu zaman əbu Bəkr gəlib onun örtüyünü yerdən götürüb çiyinlərinə qoydu. Sonra da onun arxasında durdu və dedi: “Ey Allahın Peyğəmbəri, bəsdir Rəbbinə dua etdin, Allah verdiyi vədi sənə göstərəcəkdir.” Uca Allah bu zaman bu ayəni nazil etdi: **“O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: “Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm”– deyə du-**

---

[1] əl-Ənfal surəsi, 67-ci ayə.

[2] əl-Muminun surəsi, 12-14.

[3] əl-Muminun surəsi, 14-cü ayə.

[4] Hədisi Təbərani “əl-Kəbir” əsərində, 11/438, № 12244 və “əl-Əvsat” əsərində, 6/16, № 5662 rəvayət etmişdir. Həmçinin hədisi Heysəmi “Məcma əz-Zəvaid” əsərində, 9/67-68 nəql etmiş və demişdir: “Hədisi Təbərani “əl-Kəbir” və “əl-Əvsat” əsərlərində rəvayət etmiş və demişdir: “İkiniz də eyni fikirdə olsaydınız edərdim.”- cümləsini Əbu Ubeydə ibn əl-Fudeyl bin İyad əlavə edib, o isə mötəbər deyil. Digər ravilər isə etibarlıdır.” Hədisi həmçinin Tirmizi “Sünən” əsərində, “Quran təfsiri” kitabında № 3097, nəql etmiş və onu “Həsən səhih” adlandırmışdır. Şeyx Albani də hədisi səhih hesab etmişdir. Hədisin oxşar rəvayətləri də vardır.

**anızı qəbul etmişdi."**[1] Beləcə Allah yardım üçün mələkləri göndərdi.

Əbu Zəmil dedi: "İbn Abbas mənə belə demişdir: "Həmin gün Müsəlmanlardan bir kişi qarşısındakı müşrik döyüşçüyə qalib gələ bilmirdi. Birdən o başının üzərində həm qamçı səsi, həm də atlının belə dediyini eşitdi: "İrəli, ey Həyzum[2]" Bu zaman o, önündəki müşrikin yerə sərildiyini gördü. Onun burunu və üz-gözü qamçı zərbəsindən çapılmış halda idi. Beləcə müşrikin üzü gömgöy göyərmişdi. Ənsar gəlib bu barədə Peyğəmbərə ﷺ xəbər verdikdə o dedi: "Doğru söylədin. Bu üçüncü səmandan gələn yardımdır." Həmin gün müsəlmanlar müşriklərdən yetmiş nəfər qətlə yetirdilər, yetmişini isə əsir götürdülər.

Əbu Zumeyl dedi: "İbn Abbas demişdir: "Müsəlmanlar müşrikləri əsir götürdükdə Peyğəmbər ﷺ Əbu Bəkrlə Ömərə belə dedi: "Bu əsirləri nə edək?" Əbu Bəkr dedi: "Ey Allahın peyğəmbəri, onlar bizim əmioğullarımız və qohumlarımızdır. Məncə onlardan fidyə alsan yaxşı olar. Beləcə bununla bizim kafirlər üzərində gücümüz artar. Habelə, ola bilsin ki, Allah onları İslama hidayət edər." Peyğəmbər ﷺ Ömərdən soruşdu: "Sən nə deyirsən ey Xəttabın oğlu?" Ömər dedi: "Ey Allahın Rəsulu, vallahi ki, yox. Mən Əbu Bəkr kimi düşünmürəm. Fikrimcə bizə imkan versən onların boyunlarını vurardıq. Əliyə imkan ver Əqilin boynunu vursun. Mənə imkan ver filankəsin (Ömərin qohumu) boynunu vurum. Çünki bunlar küfr əhli və küfrün başçılarıdır." Peyğəmbər ﷺ Ömərin rəyinə deyil, Əbu Bəkrin rəyinə üstünlük verdi. Ömər dedi: "Səhərisi gün mən gəlib gördüm ki, Peyğəmbər ﷺ Əbu Bəkrlə birlikdə oturub ağlayırlar." Mən dedim: "Ey Allahın Rəsulu, mənə xəbər verin görüm dostunla sən nə üçün ağlayırsınız. Əgər həqiqətən ağlamalı bir şey varsa mən də ağlayım, yox elə bir şey yoxdursa sizin ağlamanıza dəstək verim." Peyğəmbər ﷺ dedi: "Mənə əsirlərdən fidyə götürmək məsləhət verildiyinə görə ağlayıram, onlara veriləcək əzab mənə bu ağac yaxınlığındakı məsafədən göstərildi." Bunu deyərək o, yaxınlığındakı ağaca işarə etdi. Sonra İzzət və Cəlal Sahibi olan Allah bu ayəni nazil etdi: **"Peyğəmbərə**

---

[1] əl-Ənfal surəsi, 9.

[2] Mələk atının adıdır. Nəvəvinin şərhinə bax, 1134-cü səhifə.

**yer üzündə *çoxlu kafir* qırmayınca əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə axirəti *qazanmağınızı* istəyir. Allah Qüdrətlidir, Hikmət sahibidir. Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı aldığınız *fidyə* müqabilində sizə böyük bir əzab toxunardı. Ələ keçirdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin və Allahdan qorxun. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir."[1]** Beləcə Allah qəniməti müsəlmanlara halal etdi."[2]

## Sükunət Ömərin رضي الله عنه dilindən danışır:

**- Əlinin رضي الله عنه rəvayəti:**

Əli رضي الله عنه rəvayət edərək demişdir: "Əməlisaleh insanlardan söhbət açıldıqda Ömər barədə danışmamaq olmaz. Biz Peyğəmbərin səhabələri belə bir qənaətdə idik ki, sükunət Ömərin dili ilə tələffüz olunur."[3]

## Peyğəmbərlə ﷺ Əbu Bəkr əs-Siddiqdən رضي الله عنه sonra bu ümmətin ən xeyirlisi Ömərdir:

**- Əbu Cuheyfənin Əlidən رضي الله عنه etdiyi rəvayət:**

Əbu Cuheyfə demişdir: "Mən Əlinin belə dediyini eşitmişəm: "Sizə bu ümmətin Peyğəmbərdən ﷺ sonra ən xeyirlisi insanı barədə xəbər verimmi?" İnsanlar: "Bəli"- deyə cavab verdilər. O, dedi: "Əbu Bəkr". Sonra dedi: "Sizə bu ümmətin Əbu Bəkrdən sonra ən xeyirli insanı barədə xəbər verimmi?" İnsanlar: "Bəli"- deyə cavab verdilər. O, dedi: "Ömər." Sonra dedi: "Sizə bu ümmətin

---

[1] əl-Ənfal surəsi, 67-69.

[2] Hədisi Muslim "Cihad" kitabında, "Bədr döyüşündə mələklərin müsəlmanlara yardım etməsi" fəslində, № 1763, rəvayət etmişdir.

[3] Hədisi Təbərani "əl-Əvsat" əsərində, 5/359, № 5549; Əbu Nueym "əl-Hilyə" əsərində, 4/152 rəvayət etmişdir. Heysəmi "Məcma əz-Zəvaid" əsərində, 9/67, demişdir: "Hədisi Təbərani "əl-Əvsat" əsərində həsən isnadla rəvayət etmişdir. Hədisin sonunu isə İbn Əbu Şeybə "Musənnəf" əsərində, 6/354, № 31974; Abdurrəzzaq öz "Musənnəf" əsərində, 11/222, № 20380 rəvayət etmişdir. İmam Əhməd isə "Müsnəd" əsərində, 1/106, № 834 əvvəlki əlavə ilə birlikdə rəvayət etmişdir." əl-Arnaut demişdir: "Hədisin isnadı güclüdür." Fədail əsərində, 310, Vasiyyullah Abbas onun səhih olduğunu bildirmişdir.

Ömərdən sonra ən xeyirli insanı barədə xəbər verimmi?" İnsanlar: "Bəli"- deyə cavab verdilər, o isə susdu."[1]

## Əbu Bəkrlə Ömər ﷺ Cənnət ağsaqqallarının hörmətliləridir:

**- Əlinin ﷺ rəvayəti:**

Əli ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Peyğəmbərlər və Rəsullar istisna olmaqla əvvəl və sonra gəlmiş bütün insanlar arasında Əbu Bəkrlə Ömər cənnət ağsaqqallarının ən hörmətliləri olacaqlar. Ey Əli onlara bu barədə xəbər vermə."[2]

## Dostlarından nəsihət qəbul etməsi:

**- İbn Abbasın ﷺ rəvayəti:**

İbn Abbas ﷺ demişdir: "Bir dəfə Uyeynə ibn Hisn ibn Huzeyfə qardaşı oğlu əl-Hurr ibn Qeysin evinə qonaq gəldi. O, Ömərə yaxın olan kəslərdən biri idi. Yaşlı və ya cavan olmasından asılı olmayaraq qarilər Ömərin məclisinin iştirakçıları və məşvərət etdiyi insanlar idi. Uyeynə öz qardaşı oğluna dedi: "Ey qardaşım oğlu, bu əmirin yanında sənin hörmətin var, mənim üçün bir izin istə." O dedi: "Sənin üçün izin istəyərəm." İbn Abbas dedi: "əl-Hurr Uyeynə üçün izin istədi, Ömər də ona izin verdi. Uyeynə Ömərin yanına daxil olduqda dedi: "Xoş gördük ey Xəttabın oğlu! Vallahi ki, bizə ehtiram göstərmirsən və aramızda ədalətlə hökm vermirsən." Bu zaman Ömər qəzəbləndi və az qaldı ki, ona hücum etsin. Bu vaxt əl-Hurr ona dedi: "Ey möminlərin əmiri, Uca Allah Öz

---

[1] Hədisi İmam Əhməd "Fədail əs-Sahəbə" əsərində, 1/95, № 44, 45, rəvayət etmiş, Vasiyyullah Abbas da onun səhih olduğunu bildirmişdir. Habelə "Müsnəd" əsərində № 871 də də rəvayət etmişdir. Hədisin isnadı həsəndir. Bu hədis müxtəlif rəvayətlərlə Əlidən nəql olunmuşdur.

[2] Hədisi ət-Tirmizi "əl-Mənaqib" kitabında, "Əbu Bəkr və Ömərin fəzilətləri" fəslində, № 3666, rəvayət etmiş və onun həsən ğarib hədis olduğunu bildirmişdir. Həmçinin hədisi İbn Macə Müqəddiməsində, "Əbu Bəkrin fəziləti" fəslində, № 95; İmam Əhməd "Fədail əs-Sahəbə" əsərində, № 93, 141, 202; Abdullah ibn Əhməd "Zəvaid əl-Musnəd" əsərində, 1/80; Əbu Yəla "Müsnəd" əsərində, № 533, rəvayət etmişlər. Hədisi Albani Tirmizidə və "Silsilətul Əhadis əs-Səhihə" əsərində, № 824; habelə Arnaut "Müsnəd" əsərində səhih hesab etmişlər.

Peyğəmbərinə xitab edərək buyurur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər."**[1] Şəkk yoxdur ki, bu adam cahillərdəndir. Vallahi ki, bu ayə oxunduqdan sonra Ömər sakitləşdi. O, Allahın kitabı qarşısında duran kəslərdən idi."[2]

Ubeydullah ibn Abdullah İbn Abbasın ona belə xəbər verdiyini rəvayət etmişdir: "Ömərin sonuncu həcc ziyarəti zamanı Abdurrəhman ibn Auf Minada ikən ailəsinin yanına gəldi və məni orada gördü. Abdurrəhman dedi: "Mən Ömərə belə dedim: "Ey möminlərin əmiri, həcc mövsümündə bütün insanlar bura toplaşır. Təklifim budur ki, Mədinəyə qayıtmağa tələsməyəsən. Şəkk yoxdur ki, Mədinə hicrət, sünnət və salamatlıq diyarıdır. Sən fiqh əhlini və hörmətli insanları bir yerə toplayıb onların fikrini öyrənərsən." Ömər dedi: "Mədinəyə qayıdan kimi belə edəcəyəm."[3]

## İbn Abbasın رضي الله عنهما Ömərdən رضي الله عنه çəkinməsi və onun elmindən faydalanmağa hərisliyi

**- İbn Abbasın رضي الله عنهما rəvayəti:**

Ubeyd ibn Hənin demişdir: "Mən İbn Abbasın رضي الله عنه belə dediyini eşitmişəm: "Mən Rəsulullaha ﷺ qarşı bir-birinə dəstək verən iki qadın barədə Ömərə sual verməк istəyirdim. Bir il gözlədim, lakin məqam tapa bilmədim. Nəhayət onunla birlikdə həcc ziyarəti məqsədi ilə səfərə çıxdım. Biz Zəhranda olarkən Ömər subaşına getdi və məndən dəstəmaz alması üçün su istədi. Mən suyu gətirib onun əlinə tökməyə başladım. Bu vaxt macal tapıb soruşdum: "Ey möminlərin əmiri, Rəsulullaha ﷺ qarşı bir-birinə dəstək olan iki qadın kim idi?" Sözümü bitirməmiş o, dedi: "Aişə və Həfsə."[4]

---

[1] əl-Əraf surəsi, 199.

[2] Hədisi Buxari "Təfsir" kitabında, "əl-Əraf surəsi" fəslində, № 4642; və "Kitab və sünnədən möhkəm yapışmaq" kitabında, "Rəsulullahın ﷺ sünnələrinə riayət etmək" fəslində, № 7286 rəvayət etmişdir.

[3] Hədisi Buxari "Mənaqib əl-Ənsar" kitabında, "Peyğəmbər ﷺ və səhabələrinin Mədinəyə gəlişi" fəslində, № 3928, rəvayət etmişdir.

[4] Hədisi Buxari "Uca Allahın: **"Əgər ikiniz də Allaha tövbə etsəniz, *yaxşı olar*. Çünki hər ikinizin qəlbi *günaha* meyl etmişdir." –** ayəsinin təfsir" fəslində, № 4915, rəvayət etmişdir.

## İzzət və Cəlal Sahibi olan Allahdan çox qorxması

**- Abdullah İbn Abbasın رضي الله عنهما rəvayəti:**

İbn Abbas رضي الله عنهما demişdir: "Ömər mənə belə demişdir: "Dünya və onun içindəkilər mənə məxsus olsaydı Qiyamət gününün şiddətini görməmək üçün onları fidyə verərdim." İbn Abbas dedi: "Mən dedim: "Sən Rəsulullahın ﷺ dostu olmusan və o səndən razı halda səndən ayrılmışdır. Həmçinin sən Əbu Bəkrin də dostu olmusan və o da səndən razı halda ayrılmışdır. Sonra da müsəlmanlara ədalətlə rəhbərlik etmisən." O dedi: "Bu sözləri mənim üçün bir daha təkrar et."[1]

## Ömərin رضي الله عنه yüksək məqamı:

**- Əlinin رضي الله عنه rəvayəti:**

Qeys əl-Xarifi demişdir: "Mən Əlinin belə dediyini eşitmişəm: "İlk öncə *bizim rəhbərimiz* Rəsulullah ﷺ idi. Ondan sonra rəhbərimiz Əbu Bəkr oldu. Üçüncü rəhbərimiz isə Ömər oldu. Daha sonra fitnəyə məruz qaldıq. Bu fitnə Allahın izni ilə oldu. Allah dilədiyini bağışlayar."[2]

---

[1] Hədisi İmam Əhməd "Fədail əs-Sahəbə" əsərində, № 584 rəvayət etmişdir; Vasiyullah Abbas hədisin səhih olduğunu bildirmişdir. Hədisi həmçinin Hakim "əl-Mustədrak" əsərində, 3/98, № 4515; İbn Səd "Tabaqat" əsərində 3/354 rəvayət etmişdir. Hədisi Heysəmi "Məcma əz-Zəvaid" əsərində, 9/76 tam formada nəql etmiş və demişdir: "Hədisi Əbu Yəla rəvayət etmişdir, raviləri də etibarlıdır."

[2] Hədisi İmam Əhməd "əl-Müsnəd" əsərində, "Əli ibn Əbu Talibdən رضي الله عنه rəvayət olunanlar" fəslində, № 895, 1020, 1258, habelə, "Fədail əs-Sahəbə" əsərində, № 241, 242, 244 rəvayət etmişdir. Həmçinin Buxari "əl-Kəbir" əsərində, 7/173; Hakim "əl-Mustədrak" əsərində, 3/71, № 4426 rəvayət etmişdir. Hakim hədisin isnadının səhih olduğunu, lakin Buxari və Muslimin onu öz kitablarında qeyd etmədiyini söyləmiş, Zəhəbi də onu təsdiqləmişdir. Həmçinin Təbərani "əl-Ovsat" əsərində, 2/177, № 1639 rəvayət etmişdir. Heysəmi bu hədisi "Məcma əz-Zəvaid" əsərində, 9/54 zikr etmiş və demişdir: "Bu hədisi Əhməd rəvayət etmiş və demişdir: "Daha sonra fitnəyə məruz qaldıq"- deməklə Əli رضي الله عنه öz təvazökarlığını göstərmişdir." Hədisi həmçinin Təbərani "əl-Ovat əsərində də nəql etmişdir. Lakin Əhmədin raviləri daha etibarlıdır. Həmçinin Arnaut "Müsnəd" əsərində, № 895 onu səhih hesab etmişdir.

## Əlinin ﷺ Öməri ﷺ tərifləməsi:

**- Əlinin ﷺ rəvayəti:**

Rəvayət olunur ki, Cəməl günü Əli ﷺ belə demişdir: "Rəsulullah ﷺ bizlərə rəbərlik məsələsində bir söz deməmişdir. Bunu biz öz aramızda həll etdik və Əbu Bəkr *(Allah ona rəhmət etsin)* rəhbər təyin olundu. O düz yolda oldu və *insanları da* düz yola yönəltdi. Daha sonra Ömər *(Allah ona rəhmət etsin)* rəhbər təyin olundu. O da düz yolda oldu və *insanları* düz yola yönəltdi. Beləcə din bərqərar olmağa başladı."[1]

İbn əl-Hənəfiyyə demişdir: "Mən atama dedim: "Peyğəmbərdən ﷺ sonra insanların ən xeyirlisi kimdir?" O dedi: "Əbu Bəkr." Mən dedim: "Sonra kimdir?" O dedi: "Sonra Ömər." Mən dedim: "Bəs sən?" O dedi: "Sənin atan sadə müsəlmanlardan biridir."[2]

**- Abbasın ﷺ rəvayəti:**

Abbas ﷺ demişdir: "Necə də gözəl insandır Ömər. O mənim qonşum idi. Onun gecəsi qiyamda, gündüzü isə orucla və insanların ehtiyaclarının ödənilməsi ilə keçirdi. Allahdan dilədim ki, onu mənə yuxuda göstərsin. İlin sonunda Allah onu mənə yuxuda göstərdi. O utancaq halda bazardan qayıdırdı. Mən ondan soruş-

---

[1] Hədisi İmam Əhməd "Müsnəd" əsərində, № 921, "Fədail" əsərində, № 477; Hakim "əl-Mustədrak" əsərində, 3/112, № 4558 rəvayət etmişdir. Şeyx Əhməd Şakir İmam Əhməd ibn Hənbəlin "əl-Müsnəd" əsərinə etdiyi haşiyədə hədisi zəif hesab etmişdir 2/181, № 921. Səbəb kimi isə Əlidən ﷺ rəvayət edən kəsin naməlum olmasını göstərmişdir. Əslində isə məlum olmuşdur ki, İmam Əhmədin "əl-Müsnəd" əsərindəki həmin naməlum hesab olunan kəs İbn Əbu Asimin rəvayətindən № 1218, bəlli olduğu kimi Səid ibn Amrdır. Alimlər onu etibarlı ravi hesab etmişlər. Odur ki, hədisin isnadı səhihdir. Vasiyyullah Abbas da hədisi səhih hesab etmişdir.

[2] Hədisi Buxari "Səhih" əsəridə, № 3671 Muhəmməd ibn Hənəfiyyədən, o da Əlidən; İmam Əhməd "Müsnəd" əsərində, № 833, 836, 837 və başqa bir çox yerlərdə Əbu Cuheyfədən; həmçinin "əl-Fədail" əsərində 1/39, № 40, 41, 44 rəvayət etmişdir. ət-Təbəraninin "əl-Kəbir" əsəri, Əbu Musanın Əlidən etdiyi rəvayət 1/64 və Amr ibn Hureysin Əlidən etdiyi rəvayət 1/65; Əbu Nueymin "Əxbar əl-İsbahan" əsəri, 1/182; İbn Abdulbərrin "əl-İstiab" əsəri, Nəzzal ibn Səbranın Əlidən etdiyi rəvayət, 2/252. Bu hədisi Əlidən rəvayət edənlər çoxdur.

dum: "Sənə nə etdilər və ya nə ilə qarşılaşdın?" O dedi: "Mərhəmətli Rəbbim olmasaydı mənim taxtım uçardı."[1]

**- Misvar ibn Məxrəmənin İbn Abbasdan ﵄ etdiyi rəvayət:**

Misvar ibn Məxrəmə demişdir: "Ömər yaralandıqda çox ağrıyırdı. İbn Abbas onun ağrısını azaltmaq məqsədi ilə ona dedi: "Ey möminlərin əmiri, sakit ol, sənin Rəsulullahla gözəl dostluğun olub. O, dünyasını dəyişdikdə səndən razı idi. Sonra sənin Əbu Bəkrlə gözəl dostluğun olub. O da dünyasını dəyişdikdə səndən razı idi. Daha sonra sən onların dostları ilə dostluq etmisən. Bil ki, onlardan ayrıldıqda da onlar səndən razı olacaqlar."

Ömər dedi: "Rəsulullahın ﷺ dostluğuna və razılığına gəlincə, bu Uca Allahın mənə bəxş etdiyi bit lütfdür. Əbu Bəkrin dostluğuna və razılığına gəlincə, bu da Uca Allahın mənə bəxş etdiyi bir lütfdür. Mənim bu iniltimə gəlincə isə bu sən və sənin dostların üçündür. Vallahi ki, dünya qədər qızıl mənə məxsus olsaydı, mən onu Allah yolunda fidyə verərdim ki, bircə Allahın əzabını görməyim.[2]" [3]

İbn Abbas ﵄ demişdir: "Ömər yaralandıqda onun yanına daxil oldum və dedim: "Səni Cənnətlə müjdələyirəm, ey möminlərin əmiri. İnsanlar kafir olarkən sən İslamı qəbul etdin. İnsanlar Rəsulullaha ﷺ qarşı olarkən sən onunla birlikdə vuruşdun. Rəsulullah ﷺ səndən razı halda dünyadan köçdü. Sənin xəlifəliyə layiqli olmağına heç kim ixtilaf etməyib, həmçinin şəhid kimi ölürsən." O dedi: "Bir daha təkrar et." Mən bir daha bunları təkrar etdim. O dedi: "Özündən başqa heç bir məbud olmayan Allaha and olsun ki, dünya qədər qızıl-gümüş mənə məxsus olsaydı, mən onu Allah

---

[1] Hədisi İmam Əhməd "Fədail əs-Sahəbə" əsərində, 2/1166, № 1762; İbn Səd "ət-Tabaqat" əsərində, 3/375 rəvayət etmişdir. Vasiyyullah ibn Abbas hədisin isnadının həsən olduğunu demişdir.

[2] Həmin an Ömərin qəlbinə qorxu düşmüşdür ki, o öz boynunda vacib olan rəiyyətinin haqqlarını layiqincə yerinə yetirməmiş olsun. İniltisinin səbəbi də bu idi. Və ya onun iniltisi ona edilən təriflərin fitnəsindən qorxduğu üçün idi. "Fəth əl-Bari" əsəri, 2/1671.

[3] Hədisi Buxari "Fədail əs-Sahəbə" kitabında, "Ömər ibn əl-Xəttabın fəzilətləri" fəslində, № 3692 rəvayət etmişdir.

yolunda fidyə verərdim ki, bircə Qiyamətin dəhşətini görməyim."[1]

[1] Hədisi İbn Hibban "Səhih" əsərində, "Fəzilətlər" kitabında № 6891 rəvayət etmiş, əl-Arnaut da onu səhih hesab etmişdir. Həmçinin Əbu Yəla İbn Abbasın Müsnədində № 2731 rəvayət etmiş, Hüseyn Səlim Əsəd də onu səhih hesab etmişdir. Habelə Hakim əl-Mustədrak əsərində, "Mərifətus-sahəbə" kitabında "Ömər ibn əl-Xəttabın fəziləti" fəslində 3/98, № 4515 rəvayət etmiş və hədis barədə bir söz söyləməmişdir. Zəhəbi də onunla razılaşmışdır. Hədisin ləfzi Hakimə məxsusdur.

## Üçüncü bəhs

## Əhli-beytin öz övladlarına Ömər adını vermələri

Əhli-beytdən Ömər adını daşıyan kəslərin bəziləri bunlardır:

**Ömər əl-Ətraf ibn Əli ibn Əbu Talib:**

Onun anası Ummu Həbib əs-Səhba ət-Təğlubiyyə idi və o, Riddə döyüşlərində götürülmüş əsirlərdən idi. [1]

**Ömər ibn əl-Həsən ibn Əli ibn Əbu Talib:**

Onun anası Ummu Vələddir[2]. O, əmisi Hüseynlə birlikdə Kərbəlada şəhid olmuşdu. Umdətut-talib[3] əsərinə bax. əl-Yaqubi öz "Tarix" əsərində demişdir: "Həsənin səkkiz oğlu var idi: Həsən, Zeyd, Ömər, Qasim, Əbu Bəkr, Abdurrəhman, Talhə və Abdullah. Onlar müxtəlif qadınlardan idilər."

**Ömər ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib:**

ət-Təsturi demişdir: "Əbu Hənifə əd-Dəynuri və İbn Əasam əl-Kufi onun Ömər adlı oğlu olduğunu isbat etmişlər. Əbu Hənifə əd-Dəynuri Taff hadisəsini və orada ölənlər barədə məlumatları qeyd etdikdən sonra demişdir: "Onun Əhli-beytindən iki nəfərdən başqa heç kim sağ qalmadı. Onlardan biri Əli əl-Əsğar idi. O həddi-büluğa yenicə çatırdı. Digəri isə Ömər idi. Onun isə dörd yaşı

---

[1] Bu barədə bir çox mənbələrdə qeyd olunur: "Sirru əs-Silsilətu əl-Ələviyyə" əsəri, səh. 123, Ömər əl-Ətrafın tərcümeyi halı; "Muntəha əl-Amal" əsəri, 1/261, orada demişdir: "Ömər və Ruqayyə əl-Kubra əkiz idilər"; "Bihar əl-Ənvar" əsəri, 42/120; "əl-İrşad" əsəri, "Möminlərin əmiri Əlinin övladları" fəsli, 1/354, Dar əl-Mufid nəşriyyatı; əl-Bəlaziri "Ənsab əl-Əşraf" əsərində, Əli ibn Əbu Talibin övladları barədə demişdir: "Ömər ibn əl-Xəttab Əlinin oğluna Ömər adı vermiş və ona Muvarriq adlı bir xidmətçi oğlan bağışlamışdı. "Ənsab əl-Əşraf" əsəri, 2/12, Şeyx Muhəmməd Baqir əl-Məhmudi həmin əsəri təhqiq edərək əlavələr etmişdir. Muəssəsətu əl-Əalami nəşriyyatı, Beyrut hicri-1394, miladi-1974.

[2] "Ummu Vələd" sözü ərəb sözü olub hərfi tərcüməsi uşağın anası deməkdir. Bu sözü öz ağasından dünyaya uşaq gətirən qadına deyirdilər. Əgər qul olmuş qadın öz ağasından dünyaya uşaq gətirərdisə, onda onu qul kimi satmaq olmazdı. Həmin qadın ağası öldükdən sonra azad qadın sayılırdı.

[3] "Umdətut-talib" əsəri, Muəssəsətu Ənsariyyən nəşriyyatı səh. 64, 116; Cullul-mərifə nəşriyyatı, səh. 108.

var idi. Həmin gün Yəzid Ömər ibn əl-Hüseynə belə demişdi: "Oğlumla güləşərsənmi?" O, həmyaşıd oğlu Xalidi nəzərdə tuturdu. Ömər dedi: "Bəli, mənə də qılınc ver, ona da, qoy vuruşaq. Sən də bax gör hansımız daha səbirliyik." Bunu eşidən Yəzid onu qucaqlayır və deyir: "Bu danışıq mənə tanış gəlir, ilanın övladı da ilan olar." İbn Əasam əl-Kufi də buna bənzər rəvayət etmişdir. Sadəcə onun rəvayətində Ömərin yeddi yaşının olduğu qeyd olunur."[1]

**Ömər (əl-Əşraf) ibn Əli (Zeynulabidin) ibn əl-Hüseyn əş-Şəhid:**

Onun anası da Ummu Vələd idi. əl-Əşraf ləqəbini daşımasının səbəbi əl-Ətraf ləqəbini daşıyan Ömər ibn Əli ibn Əbu Talibindən seçilməsi üçün idi.[2]

[1] Təsturunin "Risalətun Fi Tavarix ən-Nəbi val-al" əsəri, Qum nəşriyyatı, səh. 83; Dar əş-Şərafə nəşriyyatı səh. 122-123.

[2] "əl-İrşad" əsəri, səh. 261; "Umdətut-talib" əsəri, səh. 223; "Kəşf əl-Ğummə" əsəri, Dar əl-Ədva nəşriyyatı, 2/272; "əl-Əsiyəli" əsəri, səh. 276.

## Dördüncü bəhs

## Əhli-beytlə Ömərin ﷺ ailəsi arasındakı qohumluq əlaqələri

**1. Allahın Rəsulu Muhəmməd ibn Abdullah ﷺ:**

O, Ömər ibn əl-Xəttabın qızı Həfsa ilə evlənmişdi. Bu evlilik barədə bütün kitablarda yazılıb və isbata da ehtiyacı yoxdur.

**2. Ummu Gülsüm bint Əli ibn Əbu Talib ﷺ:**

Ömər ibn əl-Xəttab ﷺ onunla evlənmişdi.

Bu məsələ də nəsəblərlə bağlı bütün kitablarda sabit olub və təkzibolunmaz bir həqiqətdir. İstəyən "əl-Əsiyəli Fi Ənsab ət-Talibin" əsərinə[1] baxa bilər.

O, "Möminlərin əmiri Əli ibn Əbu Talibin qızları" fəslində demişdir: "Ummu Gülsümün anası Fatimə əz-Zəhra idi. Onunla Ömər ibn əl-Xəttab evlənmiş və Ömərdən onun Zeyd adlı övladı dünyaya gəlmişdir. Sonda o, Abdullah və Cəfərə ərə getmişdir."[2]

Zeyd ibn Ömər deyərdi: "Mən iki xəlifənin övladıyam."[3] O, Ömərlə əlini nəzərdə tuturdu.

---

[1] İbn ət-Taqtaqinin "əl-Əsiyəli" əsəri, səh. 58. Mehdi ər-Rəcainin təhqiqi.

[2] "əl-Əsiyəli" əsəri, səh. 58.

[3] "əl-Vafi bilvafəyat" əsəri, 1-ci cild, Zeyd ibn Ömərin tərcümeyi halı; "Tarix əl-İslam" əsəri, 1/502, Müaviyənin məclisindəki başqa bir rəvayətlə birlikdə.

# Üçüncü fəsil

## Möminlərin Əmiri Osman ibn Əffan رضي الله عنه

**Birinci bəhs: Osmanla Əhli-beytin رضي الله عنهم bir-birilərini təriflənmələri barəsində rəvayətlər**

**İkinci bəhs: Əhli-beytin Zin-nureyn ləqəbli Osman ibn Əffana رضي الله عنه verdiyi tərifləriə bağlı rəvayətlər**

**Üçüncü bəhs: Əhli-beytin öz övladlarına Osman adını vermələri**

**Dördüncü bəhs: Əhli-beytlə Osmanın رضي الله عنه ailəsi arasındakı qohumluq əlaqələri**

## Birinci bəhs:

## Osmanla Əhli-beytin رضي الله عنهم bir-birilərini təriflələməri barəsində rəvayətlər

Bu raşidi xəlifənin də halı digər səhabə qardaşları kimidir. O da Peyğəmbərin ﷺ Əhli-beytinin fəzilətlərinə bələd idi. Odur ki, onları layiq olduqları şəkildə tərifləyərdi. İbn Kəsir "əl-Bidayə və ən-Nihayə" əsərində demişdir: "...Deyilənə görə Ömər ibn əl-Xəttabla Osman ibn Əffan at üzərində Abbasın yanından keçərkən ona hörmət əlaməti olaraq atdan düşərdilər."[1]

İbn Kəsir demişdir: "Osman ibn Əffan رضي الله عنه Həsənlə Hüseynə رضي الله عنهما hörmət göstərər və onları sevərdi. Osman ibn Əffan evində mühasirədə olarkən Həsən ibn Əli qılıncını çəkib onu qoruyurdu. Osman isə ona bir şey olacağından ehtiyat edirdi. Ona görə də onu Allaha and verdirdi ki, evinə qayıtsın ki, Əlinin də qəlbi rahat olsun, onun üçün qorxmasın."[2]

Əli də qardaşı Osmanı hər zaman müdafiə edərdi, Allah onların hər birindən razı olsun. O, insanları toplayaraq Quranın cəm olunmasında Osmanın misilsiz rolunu qeyd edərək onu tərifləyərdi. Suveyd ibn Ğafələ əl-Cufi demişdir: "Mən Əli ibn Əbu Talibin رضي الله عنه belə dediyini eşitmişəm: "Ey insanlar, Osman barədə həddinizi aşmayın. Siz deyirsiniz ki, o, Quranı dürüst toplamayıb. Vallahi ki, o, Quranı topladıqda bizim, yəni Muhəmmədin ﷺ səhabələrinin hamısını bir yerə cəm etdi və dedi: "İnsanların ixtilaf etdikləri bu qiraətlər barəsində nə deyirsiniz?" Halbuki o zaman insanlar bir-biriləri ilə rastlaşdıqda belə deyirdilər: "Mənim qiraətim sənin qiraətindən daha yaxşıdır. Mənim qiraətim sənin qiraətindən daha üstündür." Bu isə küfrə bənzəyir. Biz dedik: "Sənin rəyin nədir, ey möminlərin əmiri?" Osman dedi: "Məncə insanları vahid Quran üzərində cəm etmək lazımdır. Əgər bu gün sizlər bu cür ixtilaf edirsinizsə sizdən sonra gələnlər daha şiddətli ixtilaf edəcəklər."

---

[1] əl-Bidayə və ən-Nihayə əsəri, 7/162.

[2] əl-Bidayə və ən-Nihayə əsəri, 8/36.

Biz də dedik: "Necə də gözəl buyurursan." Sonra o, Zeyd ibn Sabiti və Səid ibn Ası yanına çağırtdırdı və dedi: "Biriniz desin, digəriniz isə yazsın. Hər hansı bir şeydə ixtilaf etsəniz mənə müraciət edin." Beləcə onlardan biri dedi, digəri iə yazdı. İzzət və Cəlal Sahibi olan Allahın kitabında yalnız bircə yerdi ixtilaf etdilər, əl-Bəqərə surəsində. Biri "Tabut", digəri isə "Tabuh" dedi. Onlar Osmana ﷺ müraciət etdilər və o, dedi: "Tabut." Əli dedi: "Əgər mən də o zaman onun kimi rəhbər olsaydım, mən də onun etdiyi kimi edərdim." İnsanlar Suveyd ibn Ğafələyə dedilər: "Səni and veririk Özündən başqa heç bir məbud olmayan Allaha. Sən bunları Əlidən ﷺ eşitmisənmi?" O dedi: "Özündən başqa heç bir məbud olmayan Allaha and olsun ki, bunları Əlidən ﷺ eşitmişəm."[1]

## Əlinin Osmanı ﷺ tərifləməsi:

Rəvayət olunur ki, Mutarrif ibn Şixxir belə demişdir: "Mən *gördüyünüz* bu yerdə Əli ilə rastlaşdım və o dedi: "Bizim yanımıza Osmanı sevdiyinə görəmi gəlmədin?" O, bunu iki dəfə soruşdu. Dostları onun yanından getdikdən sonra isə dedi: "Əgər onu sevirsənsə bil ki, o, bizim xeyirlimiz və fəzilətlimiz idi."[2]

Budur, müsəlmanların seyyidi Həsən ibn Əli möminlərin əmiri Osmanın zülm olunaraq qətlə yetirilməsinə etiraz etmişdir:

Əta ibn Əclan Asim ibn Süleymanın belə dediyini rəvayət etmişdir: "Bir dəfə Həsən ibn Əli Osman qətlə yetirildikdən sonra onun qatillərinə xitabən belə dedi: "Bu əməli edən üzlər qaralsın! Haqsız yerə bu qanı axıdanlar ümmətin ən nifrət olunası kəsləridir. Vallahi ki, möminlərin əmirinin təkidi olmasa idi sizlər barədə rəyimiz sabit idi."[3]

Bir baxın, Həsən bir ay müddətində Əlinin də razılığı ilə Osmanın müdafiəsində durmuşdu. Osman isə ona bir şey olacağından ehtiyat edirdi!

---

[1] əl-Acurrinin "əş-Şəriə" əsəri, 4/1784.

[2] Əhməd ibn Hənbəlin "Fədail əs-Sahəbə" əsəri, 1/468, № 761; İbn Əbu Asimin "əs-Sünnə" əsəri, 2/573, № 1211.

[3] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 3/1131.

Əta ibn Əclan Asim ibn Süleymandan Həsən ibn Əlinin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Osmanın evinə gedib bir ay müddətində onun keşiyində durdum. Həmin vaxt Osman ﷺ mühasirədə idi. Mənim ora getməyim Əlinin izni ilə baş vermişdi. O, bir gün belə mənə ora getməyi qadağan etmədi. İnsanlar toplaşdığı gün o, qalxıb Osmana belə dedi: "Ey möminlərin əmiri, nə üçün insanları *onlara qarşı vuruşmağa* qoymursan? Vallahi ki, onları qətlə yetirmək sənə halaldır. İnsanlar *onlara qarşı vuruşmaqda* ciddidirlər. Sən sadəcə izin ver onlarla vuruşsunlar." Osman dedi: "Ey qardaş oğlu, sənin üzərindəki haqqımla səndən tələb edirəm, çıx get ailənin yanına."[1]

Muhəmməd ibn Ziyad demişdir: "Əli Həsənə belə dedi: "Kişinin yanına get." Həsən dedi: "Mən getdim, amma o and içdi ki gərək qayıdasan."[2]

İbrahim ibn Muhəmməd ibn Səd öz atasından rəvayət edərək demişdir: "Abdullah ibn Ömər, Usamə ibn Zeyd, Muaz ibn Əfra və Əbul-Yəsar Osmanı müdafiə etmək üçün cümə günü onun yanında olarkən Həsən ibn Əli də içəri daxil olub Osmanın yanına gəldi və dedi: "Bizə əmr et *onlarla vuruşaq.* Mən sənin əmrin olmadan səndən başqasının arxasında namaz qılmaqdan xəcalət çəkirəm." Osman dedi: "Sənə rəhm olunsun ey qardaşım oğlu. Həqiqətən də sən pak bir zürriyyətdənsən. Şübhəsiz ki, namaz müsəlmanların ən fəzilətli əməllərindəndir. Onlar Allaha itaət etdikdə sən də et. Onlar Allaha asi olsalar sən asi olma. Səndən xahişim budur ki, atanın yanına gedəsən və ona əmr edəsən ki, bu adamları geri qaytarsın." Həsən dedi: "Mən vuruşub səni müdafiə edəcəyəm." Osman dedi: "Səndən tələb edirəm ki, vuruşmayasan." Beləcə o, evdən çıxdı. Osman Usamədən də *eyni şeyi* tələb etdi, o da çıxdı. Sonra Adiy oğulları gəlib Abdullah ibn Öməri də çıxartdılar."[3]

---

[1] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 4/1213.
[2] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 4/1213.
[3] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 4/1215.

Hətta Həsən ibn Əli Osmanı müdafiə edərkən yaralanmışdı da. Allah onların hər birindən razı olsun.

Harun ibn Ömər demişdir: Əsəd ibn Musa demişdir: Muhəmməd ibn Talhə demişdir: Safiyyənin mövlası Kinanə demişdir: "Mən Osmanın qətlə yetirilməsi hadisəsinin şahidi olmuşam. Evdən Qureyşin dörd nəfər gənci məcburi şəkildə çıxarıldı. Onlar Osmanı müdafiə edirdilər. Sonra o, Həsən ibn Əlinin, Abdullah ibn Zubeyrin, Muhəmməd ibn Hatibin və Marvan ibn Həkəmin adlarını çəkdi."[1]

Hüseyn ibn Əli ﷺ barədə daha bir rəvayəti nəzərinizə çatdırırıq. Muhəmməd ibn Hatib demişdir: "Bir dəfə Hüseyn ibn Əlinin yanında Osman xatırlandı. Bu zaman o belə dedi: "İndi möminlərin əmiri Əli ibn Əbu Talib ﷺ bura gələcək. Ondan Osman barəsində soruşarsınız." Əli gəldikdə onlar Osman ﷺ barədə ondan soruşdular. Əli əl-Maidə surəsinin aşağıdakı ayəsini oxudu: **"İman gətirib yaxşı işlər görənlərə, *Allahdan* qorxaraq iman gətirib saleh əməllər etdikləri, sonra *yenə Allahdan* qorxaraq iman gətirdikləri, sonra *yenə də Allahdan* qorxaraq yaxşı işlər gördükləri təqdirdə, *haram edilməmişdən əvvəl* daddıqları şeylərə görə heç bir günah gəlməz. Allah yaxşı iş görənləri sevir."[2]** O ayəni oxuduqca belə deyirdi: "Osman iman gətirənlərdən idi. Osman Allahdan qorxanlardan idi." Daha sonra o bu ayəni oxudu: **"O müttəqilər ki, bolluqda da, qıtlıqda da, *mallarından Allah yolunda* xərcləyər, qəzəblərini boğar və insanları bağışlayarlar. Allah yaxşı iş görənləri sevər.[3]"[4]**

---

[1] İbn Şibbənin "Tarix əl-Mədinə" əsəri, 4/1298.

[2] əl-Maidə surəsi, 93.

[3] Ali İmran surəsi, 134.

[4] əl-Acurrinin "əş-Şəriə" əsəri, 5/2336.

## İkinci bəhs

## Əhli-beytin Zin-nureyn ləqəbli Osman ibn Əffana ﷺ verdiyi təriflərlə bağlı rəvayətlər

### Osmandan ﷺ mələklər belə utanırdı:

**- Möminlərin anası Həfsanın ﷺ rəvayəti:**

Həfsa bint Ömər ﷺ demişdir: "Bir gün Rəsulullah ﷺ mənim yanıma daxil oldu. O, libasını ayaqlarının arasına çırmalayıb oturdu. Bu zaman Əbu Bəkr icazə istədi. Rəsulullah ﷺ olduğu vəziyyətdə ona izin verdi. Bir az sonra Ömər içəri daxil olmaq üçün izin istədi. Rəsulullah ﷺ olduğu vəziyyətdə ona da izin verdi. Ömər də içəri daxil oldu. Daha sonra bir sıra səhabələr də izin istəyib içəri daxil oldular. Sonra Əli də içəri daxil olmaq üçün izin istədi. Rəsulullah ﷺ olduğu vəziyyətdə ona da izin verdi. Daha sonra Osman ibn Əffan gəlib icazə istədi. Bu an Rəsulullah ﷺ libasının ətəyini aşağı çəkdi, sonra ona izin verdi. Onlar bir müddət söhbət etdikdən sonra çıxıb getdilər. Mən dedim: "Ey Allahın Rəsulu! Əbu Bəkr, Ömər, Əli və digər səhabələr sənin yanına daxil olduqda sən olduğun vəziyyətdə qaldın və heç tərpənmədin. Amma Osman sənin yanına daxil olduqda libasının ətəyini aşağı çəkdin?" O dedi: "Mələklərin həya etdiyi bir şəxsdən mən necə həya etməyim?"[1]

### İnsanlar Osmanın ﷺ qanını tələb etməsəydilər başlarına daş yağardı:

**- Zəhdəm əl-Cəraminin İbn Abbasdan ﷺ etdiyi rəvayət:**

Zəhdəm əl-Cərami demişdir: "Bir gün İbn Abbas bizlərə xütbə verdi və belə dedi: "Əgər insanlar Osmanın ﷺ qanını tələb etməsəydilər başlarına səmadan daş yağardı.[2]

---

[1] Hədisi İmam Əhməd Möminlərin anası Həfsadan ﷺ "Müsnəd" əsərində, № 26509; "əl-Fədail" əsərində, № 748 rəvayət etmişdir. əl-Arnaut və Vasiyyullah Abbas hədisi səhih hesab etmişlər. Hədisin Aişədən ﷺ nəql olunan şahidləri də vardır ki, onu da İmam Muslim "Səhabələrin fəzilətləri" kitabında, "Osman ibn Əffanın fəzilətləri" fəslində № 2401 rəvayət etmişdir.

[2] Hədisi Təbərani "əl-Kəbir" əsərində, "Cənnətlə müjdələnmiş on səhabə" fəslində, Osman ibn Əffanın nəsəbində 1/84, № 122; habelə, "əl-Əvsat" əsərində

## Əlinin Osmanı ﷺ sevməsi və onun qanından uzaq olması:

**- Qeys ibn Abbadın Əlidən ﷺ etdiyi rəvayət:**

Qeys ibn Abbad demişdir: "Cəməl günü mən Əlinin belə dediyini eşitdim: "Allahım Osmanın qanından Sənə sığınıram. Osman qətlə yetirildiyi gün ağlım başımdan çıxdı və özümü itirdim. O gün mənə beyət etmək üçün yanıma gəldilər. Mən onlara dedim: "Vallahi ki, mən Rəsulullahın ﷺ: "Mələklərin həya etdiyi bir şəxsdən mən necə həya etməyim" – dediyi kəsi qətlə yetirənlərin beyətini qəbul etməkdən utanıram. Mən Osman dəfn olunmadan beyət qəbul etməkdən Allahdan utanıram." İnsanlar dağılışıb getdilər. Osman dəfn olunduqdan sonra insanlar geri qayıtdılar və məndən yenidən beyət qəbul etməmi istədilər. Mən onlara dedim: "Allahım bu təklifə görə Səndən qorxuram." Sonra mənə cəsarət gəldi və insanların beyətini qəbul etdim. Onlar mənə: "Ey möminlərin əmiri!"– deyə müraciət etdikdə sanki ürəyim ağrıdı və dedim: "Allahım məndən alıb Osmana ver ki, məndən razı qalasan."[1]

---

2/379, № 3453 rəvayət etmişdir. Hədisi Heysəmi "Məcma əz-Zəvaid" əsərində, 9/97 nəql edərək Təbəraninin "əl-Kəbir" və "əl-Əvsat" əsərlərinə nisbət etmiş və demişdir: "əl-Kəbir" əsərindəki hədisin raviləri etibarlıdır." Həmçinin hədisi İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində, 6/360, № 32034, Əbu Muleyhin İbn Abbasdan rəvayət etdiyi ləfzlə rəvayət etmişdir. Hədisin ləfzi belədir: "Əgər insanlar Osmanın qətlə yetirilməsində yekdil rəydə olsaydılar Lut qövmünün başına daş yağdığı kimi başlarına səmadan daş yağardı."

[1] Hədisi Hakim "əl-Mustədrak" əsərində, "Mərifətu əs-Səhabə" kitabının, "Möminlərin əmiri Zun-nureynin fəziləti" fəslində 3/101, № 4527 rəvayət etmiş və demişdir: "Bu hədis Buxari və Muslimin şərtlərinə müvafiq olaraq səhihdir. Lakin hədisi Buxari və Muslim rəvayət etməmişdir." Zəhəbi də onun bu fikri ilə razılaşmışdır. İbn Kəsir "əl-Bidayə və ən-Nihayə" əsərində 7/193, demişdir: "Böyük hafiz İbn Əsakir Əlinin Osmanın qanından uzaq olduğunu bildirən, Əlidən nəql olunan rəvayətləri cəm etmişdir. Əli, öz xütbə və moizələrində buna and içər və bildirərdi ki, onu öldürməyib, öldürülməsinə də əmr verməyib, habelə öldürülməsinə razılığını bildirməyib, əksinə bunun qarşısını almağa çalışıb, lakin bacarmayıb. Bir çox hədis alimlərindən nəql olunanlar bunu sübut edir."

**- İbn Əbu Leylənin Əlidən ﷺ etdiyi rəvayət:**

Abdurrəhman ən ibn Əbu Leylanın belə dediyi rəvayət olunur: "Mən Əlinin əllərini qaldırıb belə dediyini gördüm: "Allahım Osmanın qanından Sənə sığınıram.[1]

## Osman ﷺ Allah tərəfindən əzəldən ən gözəl aqibət yazılmış insanlardandır:

**- Muhəmməd ibn Hatibin Əlidən ﷺ etdiyi rəvayət:**

Muhəmməd ibn Hatib demişdir: "Mən Əlinin belə dediyini eşitmişəm: **"Əzəldən ən gözəl aqibət yazılmış insanlara gəldikdə isə, onlar Oddan uzaqlaşdırılmış olacaqlar."**[2] Osman da onlardandır."[3]

## Osman ﷺ iman gətirib *Allahdan* qorxan, sonra yenə iman gətirib *Allahdan* qorxan kimsələrdəndir:

**- Muhəmməd ibn Hatibin Əlidən ﷺ etdiyi rəvayət:**

Muhəmməd ibn Hatib demişdir: "Mən Əlidən Osman barədə soruşdum və o dedi: "O, iman gətirib *Allahdan* qorxan, sonra yenə iman gətirib *Allahdan* qorxan kimsələrdəndir."[4] O, ayəni sonadək oxumadı."[5]

---

[1] Hədisi İmam Əhməd "əl-Fədail əs-Səhabə" əsərində, № 727 rəvayət etmişdir. Vasiyyullah Abbas hədisi səhih hesab etmişdir. Hədisin uzun versiyasını Hakim "əl-Mustədrak" əsərində, 4/51, № 4583 rəvayət etmiş və onun səhih olduğunu bildirmişdir. Hədisi həmçinin İbn Səd "ət-Tabaqat" əsərində, 3/82 rəvayət etmişdir.

[2] əl-Ənbiya surəsi, 101.

[3] Hədisi İmam Əhməd "əl-Fədail əs-Səhabə" əsərində № 771; İbn Əbu Asim "əs-Sünnə" əsərində 3/198; və İbn Cərir "Təfsir" əsərində 17/75 rəvayət etmişdir. Hədisin isnadı "əl-Fədail" əsərinin təhqiqçisinin də dediyi kimi səhihdir.

[4] əl-Maidə surəsi, 93.

[5] Hədisi İmam Əhməd "əl-Fədail əs-Səhabə" əsərində, № 770 rəvayət etmişdir. "əl-Fədail əs-Səhabə" əsərində digər bir yerdə hədisin ləfzi belədir: **"*Allahdan* qorxaraq iman gətirib saleh əməllər etdikləri, sonra *yenə Allahdan* qorxaraq iman gətirdikləri, sonra *yenə də Allahdan* qorxaraq yaxşı işlər gördükləri təqdirdə..."** Ümid edirik ki, doğru rəvayət də elə budur. "əd-Durr əl-Mənsur" əsərində əl-Maidə surəsinin təfsirində də belə qeyd olunur. əl-Mərvazinin "əl-Fitən" əsəri, 1/83. Hədisin isnadı "əl-Fədail" əsərinin təhqiqçisinin də dediyi kimi səhihdir.

## Əli və Aişə Osmanı ﵁ qətlə yetirənləri lənətləmişlər:

**- Muhəmməd ibn Hənəfiyyənin atasından etdiyi rəvayət:**

Muhəmməd ibn Hənəfiyyə demişdir: “Əliyə xəbər verdilər ki, Aişə xurmalıqda Osmanı qətlə yetirənləri lənətləyir. O, əllərini göyə qaldırıb dedi: “Osmanı qətlə yetirənləri mən də lənətləyirəm. Harada olurlarsa olsunlar Allah onlara lənət eləsin.” O, bu sözləri ik və ya üç dəfə təkrar etdi.”[1]

[1] İmam Əhmədin “əl-Fədail əs-Səhabə” əsərində, № 773 rəvayət etmişdir. Hədisin isnadı “əl-Fədail” əsərinin təhqiqçisinin də dediyi kimi səhihdir. əl-Mərvazinin “əl-Fitən” əsəri, 1/95; Səid ibn Mənsurun “Sünən” əsəri, 2/336, № 2943.

# Üçüncü bəhs

## Əhli-beytin öz övladlarına Osman adını vermələri

**1. Osman ibn Əli ibn Əbu Talib ﷺ:**

O, Hüseynlə birlikdə Kərbəlada şəhid olmuşdur. Onun anası Ummul-bənin bint Hizam əl-Vahidiyyə sonra da əl-Kilabiyyədir. Bir sıra tartərcümeyi-hal və tarix alimləri bunu öz əsərlərində qeyd etmişlər.[1]

**2. Osman ibn Əli ibn əl-Hüseyn ﷺ:**

Onun barəsində ət-Təsturinin Qamus ər-Rical əsərində qeyd olunur.

[1] Onlardan: əl-Mufidin "əl-İrşad" əsəri səh. 186-428; Muhəmməd Rida əl-Həkiminin "əl-Əayan ən-Nisa" əsəri səh. 51; əl-Yaqubinin "Tarix" əsəri, "Əlinin övladları" fəsli; Şeyx Abbas əl-Qumminin "Muntəha əl-Amal" əsəri 1/544; ət-Təsturinin "Təvarix ən-Nəbi val-al" əsəri, əş-Şəriqa nəşriyyatı, "Əmirul-mumininin övladları" fəsli, səh. 115; İbn Taqtaqinin "əl-Əsiyəli" əsəri səh. 57-də deyilir: "Osman Taff günü qətlə yetirilən Ummul-bəninin övladıdır; Musab əz-Zubeyrinin "Nəsəbu Qureyş" əsəri, əl-Məarif nəşriyyatı səh. 43; əl-Bəlazri "Ənsab əl-Əşraf" əsərində 2/192 demişdir: "Oğlanları Osman, Cəfər əl-Əkbər və Abdullah Hüseynlə birlikdə qətlə yetirilmişdilər." ("Ənsab əl-Əşraf" əsəri, Muhəmməd Baqir əl-Məhmudinin təhqiqi, əl-Əalami nəşriyyatı, 2/192). Həmçinin bax: Təbərinin "Tarix" əsəri, 3/126; Xəlifə ibn Xəyyatın "Tarix" əsəri, səh. 234; İbn əl-Əsirin "əl-Kamil fit-tarix" əsəri, 3/443; "əl-Bidayə və ən-Nihayə" əsəri, 7/323.

## Dördüncü bəhs

## Əhli-beytlə Osmanın ﷺ ailəsi arasındakı qohumluq əlaqələri

### 1. Peyğəmbərin ﷺ qızları Ruqayyə və Ummu Gülsüm ﷺ:

Hər ikisinin əri Osman ibn Əffan ibn Əbul-As ibn Umeyyə ibn Abduşəms ibn Abdumənaf ibn Qusey ibn Kilab olmuşdur. Osman ibn Əffanın anası isə Ərva bint Kureyz ibn Rabiə ibn Həbib ibn Abduşəms ibn Abdumənafdır. Ərvanın anası isə əl-Bəyda Ummu Həkim bint Abdulmuttalib bin Haşim ibn Abdumənafdır. O da Peyğəmbərin ﷺ bibisi və öz növbəsində onun atası Abdullahın əkiz bacısı idi. Yəni Osman ibn Əffan ata tərəfdən Əməvi Mənafi, ana tərəfdən isə Mənafi, ana nənəsi tərəfdən isə Haşimi idi.

Bu qohumluq əlaqəsinin dəqiqləşdirilməsi üçün heç bir dəlilə ehtiyac yoxdur. Bütün mənbələrdə bu öz əksini tapmaqdadır.

Bax: "Səhih əl-Buxari" əsəri, "Peyğəmbərin ﷺ səhabələrinin fəzilətləri" kitabı, "Osman ibn Əffanın fəzilətləri" fəsli, № 3699.

### 2. Ummu əl-Qasim bint əl-Həsən ibn əl-Həsən ibn Əli ibn Əbu Talib:

Onunla Osman ibn Əffanın oğlu Mərvan ibn Əban evlənmişdir.

Musab əz-Zubeyri demişdir: "Ummu əl-Qasim bint əl-Həsən Marvan ibn Əban ibn Osman ibn Əffanın yanında idi. Ondan Muhəmməd ibn Mərvan adlı oğlu olmuşdu. Daha sonra o Hüseyn ibn Abdullah ibn Ubeydullah ibn əl-Abbas ibn Abdulmuttalibə ərə getmiş və onun yanında da vəfat etmişdir. Ummu əl-Qasimin ondan uşağı olmamışdır."[1]

### 3. Fatimə bint əl-Hüseyn (əş-Şəhid) ibn Əli ibn Əbu Talib:

Onunla Osman ibn Affanın oğlu Abdullah ibn Amr evlənmişdir.

---

[1] "Nəsəbu Qureyş" əsəri, səh. 53.

Ondan Muhəmməd əd-Dibac adlı oğlu olmuş və o, ana tərəfdən qardaşları Abdullah əl-Mahd, əl-Həsən əl-Musəlləs və Əhlibeytdən olan başqaları ilə birlikdə əl-Mənsur əd-Dəvaniqinin həbsxanasında hicri tarixi ilə 145-ci ildə qətlə yetirilmişdir. Ondan əvvəl Fatimə Həsən əl-Musənənin yoldaşı olmuş, ondan Abdullah əl-Mahd, Həsən əl-Musəlləs və İbrahim əl-Ğimr adlı övladları olmuşdu. Bəzi alimlər bu nəsəbi qeyd etmirlər. Necə ki, Əli Muhəmməd Dəxil: "Fatimə bint Hüseyn" adlı əsərində bu barədə heç bir qeydiyyat aparmamış və Fatimənin yalnız Həsən əl-Musənnə ilə evləndiyini bildirmişdir. Həmçinin "Əayan ən-Nisa Abral-usur əl-Muxtəlifə" əsərində Fatimə bint əl-Hüseynin tərcümeyi halını qeyd edərək onun Həsən əl-Musənnə ilə evliliyini, ondan olan övladlarını və o övladların əl-Mənsur əl-Davaniqinin həbsxanasında saxlanıldığını, sonra da orada qətlə yetirildiyini zikr etmişdir. Lakin müəllif Fətimənin həmin övladları ilə birlikdə onların ana tərəfdən olan qardaşları Muhəmməd əd-Dibac ibn Abdullah ibn Amr ibn Osman ibn Əffanın da orada qətlə yetirildiyini qeyd etməmişdir.

## 4. İshaq ibn Abdullah ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib:

O, Aişə bint Amr ibn Asim ibn Ömər ibn Osman ibn Əffanla ailə həyatı qurmuşdur.

Musab əz-Zubeyri demişdir: "İshaq ibn Abdullah ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talibin oğlu Yəhyadır. Yəhyanın anası isə Aişə bint Ömər ibn Asim ibn Ömər ibn Osman ibn Əffandır. Aişənin anası isə Gülsüm bint Vahb ibn Abdurrəhman ibn Vahb ibn Abdullah əl-Əkbər ibn Zəma ibn əl-Əsvaddır." (Nəsəbu Qureyş, səh. 65). Həmçinin İbn Həzm "Cəmhəratu Ənsab əl-Ərab" əsərində Abdullah ibn Əli ibn əl-Hüseynin əl-Ərqat ləqəbli övladının olduğunu qeyd etmişdir. Lakin onun anasının adını: Aişə bint Ömər ibn Asim ibn Osman ibn Əffan ibn Əbul-As ibn Umeyyə kimi qeyd etmişdir.

## 5. Ummu Gülsüm bint Abdullah ibn Cəfər ibn Əbu Talib:

Onunla Əban ibn Osman ibn Əffan evlənmişdir.

əd-Dinuri bu xüsusda demişdir: "Əlinin doğma bacısı Ummu Gülsüm bint Abdullah ibn Cəfər (ət-Təyyar) ibn Əbu Talib onun yoldaşı idi."

## 6. İbrahim ibn Abdullah ibn əl-Həsən ibn əl-Həsən ibn Əli ibn Əbu Talib:

O, Muhəmməd əd-Dibac ibn Abdullah ibn Amr ibn Osman ibn Əffanın qızı Ruqayyə əs-Suğra ilə evlənmişdir.

İbn Həzm demişdir: "...Abdullah ibn Amr ibn Osman ibn Əffan əl-Mutarrifin oğlu Muhəmməd əl-Əkbər, Muhəmməd əl-Əsğar və əl-Qasimdir. Muhəmməd əl-Əsğar, əd-Dibac ləqəbi ilə tanınmışdır. ...Muhəmməd əd-Dibacın övladı isə: Abduləziz, Xalid... Ruqayyə əl-Kubra, Abdullah, Osman, əl-Qasim... və Ruqayyə əs-Suğradır. Ruqayyə əl-Kubra Muhəmməd ibn Hişam ibn Abdulmalik ibn Marvanla evlənmiş, Ruqayyə əs-Suğra isə İbrahim ibn əl-Həsən ibn əl-Həsən ibn Əli ibn Əbu Taliblə evlənmişdir."[1]

**Həmçinin o, Səkinə ilə evlənmişdi:**

Zeyd ibn Amr ibn Osman ibn Əffan. Deyilənə görə Süleyman ibn Abdulmalik ona boşanmağı əmr etmişdi, elə də olmuşdu.[2]

---

[1] "Cəmhəratu Ənsab əl-Arab" əsəri, səh. 83. Abbas əl-Qummi bu barədə demişdir: "Mənsur Muhəmməd əd-Dibacı yanına çağırdı. Onun qızı Ruqayyə İbrahim ibn Abdullah ibn əl-Həsənin yoldaşı idi."

[2] "Şəzərat əz-Zəhəb" əsəri, 2/82; "Tarixi Diməşq" əsəri, 37/153, № 9696; "Vafəyat əl-Əyan" əsəri, 1/378, № 268; "Nur əl-Əbsar" əsəri, səh. 268; əl-Mustavinin "Əlam ən-Nisa" əsəri, səh. 124; "əl-Əlam" əsəri, 3/106; "əl-Mihbər" əsəri, səh. 438; və buna bənzər bir sıra mənbələr.

# Son söz

İzzət və Cəlal Sahibinin izni ilə bu əsərdə onlarla müxtəlif hədis və rəvayətlərə əsaslanaraq Peyğəmbərin ﷺ Əhli-beyti ilə üç xəlifə arasındakı əlaqələrə işıq salmağa çalışdıq. Həmin dəlillər onların arasında nə qədər dərin sevgi əlaqələrinin olduğunu göstərir. Onların bir-birlərini tərif etmələri, yardım etmələri barədə rəvayətlər olduqca çoxdur. İnsaflı olan aqil insan anlayır ki, onların barəsində yayılan əsassız fikirlər həqiqətdən olduqca uzaqdır. Həmin uydurma rəvayətlərin yayılması heç bir xeyir gətirmir, əksinə fitnə-fəsadın geniş vüsət almasına səbəb olur. Bu cür böhtanların yayılmasından və doğru yolda olduqdan sonra azmaqdan Allaha sığınırıq.

Allahın izni ilə gəldiyimiz əsas nəticələr bunlardır:

1. Racih rəyə görə Əhli-beyt deyildikdə haşimi oğulları nəzərdə tutulur. Çünki onlara sədəqə haram buyurulmuşdur.

2. Möminlərin anaları Əhli-beytdəndirlər.

3. Haşimilərin şəcərəsi ən şərəfli nəsildir, onları sevmək Peyğəmbəri ﷺ sevməyə aiddir. Onları sevmək fərz və vacibdir və müsəlman onları sevməklə savab qazanır.

Onların sevilməsinin şərtləri aşağıdakılardır:

4. Onlar İslam üzərində mültəzim olmalıdırlar. Əgər onlar kafir olsalar onları sevmək və tərəflərini saxlamaq olmaz.

5. Onlar Peyğəmbərin ﷺ hidayətinə tabe olmalıdırlar.

6. Səhabə: Peyğəmbəri ﷺ mömin olduğu halda görüb, İslam üzərində ölmüş kəsə deyilir.[1]

7. Əhli-beytlə səhabələrin bir sıra sabit və məşhur fəzilətləri vardır və əqidə kitablarında onları sevməyin zəruriliyi buyurulur.

8. Əbu Bəkr əs-Siddiqlə رضي الله عنه Əhli-beyt arasındakı isti münasibətlər dörd yöndən araşdırıldı: qarşılıqlı təriflər, qohumluq əlaqələri, Əbu Bəkr əs-Siddiqin رضي الله عنه kunyasının Əhli beytə verilməsi, onların fəziləti barədə Peyğəmbərdən ﷺ nəql olunmuş rəvayətlər.

---

[1] əl-İsabə əsəri, səh. 8.

9. Fədək bağı ilə bağlı şübhələr ondan çox dəlillə dəf olundu.

10. Ömər ibn əl-Xəttabla رضي الله عنه Əhli-beyt arasındakı isti münasibətlər dörd yöndən araşdırıldı: qarşılıqlı təriflər, qohumluq əlaqələri, Ömərin رضي الله عنه adının Əhli beytə verilməsi, onların fəziləti barədə Peyğəmbərdən ﷺ nəql olunmuş rəvayətlər.

11. Osman ibn Əffanla رضي الله عنه Əhli-beyt arasındakı isti münasibətlər dör yöndən araşdırıldı: qarşılıqlı təriflər, qohumluq əlaqələri, Osmanın رضي الله عنه adının Əhli beytə verilməsi, onların fəziləti barədə Peyğəmbərdən ﷺ nəql olunmuş rəvayətlər.

Beləliklə də biz öz araşdırmamızla məqsədimizi yekunlaşdırırıq. Allahdan hidayət, müvəffəqiyyət və Muhəmməd ümmətinin itaət üzərində birləşməsini diləyirəm.

# Ən mühüm məxəzlər və mənbələr

1. "Əbna əl-İmam Fi Misir vaş-Şam: Həsən və Hüseyn ﷺ", İbn Tabataba Yəhya ibn Muhəmməd ibn əl-Qasim əl-Hüseyni əl-Ələvi (vəfatı, hicri tarixi ilə 478-ci il). Cullul-mərifə və ət-Tovbə nəşriyyatları, Səudiyyə, Cənab Yusuf ibn Abdullah Cəmələl-leyl də ondan faydalanmışdır. əl-Varraq ləqəbli İbn Sadaqa əl-Hələbi onun nüsxəsinə hicri tarixi ilə 1180-ci ildə əlavələr etmişdir. Həmçinin Əbu əl-Avn Muhəmməd əs-Səffarayni (vəfatı, hicri tarixi ilə 1188-ci il), habelə Muhəmməd ibn Nəssar İbrahim əl-Məqdisi hicri tarixi ilə 1350-ci il. Birinci nəşr hicri 1425 = miladi 2004.

2. "əl-İrşad Fi Hucəcilləh Aləl-ibad" əsəri, şeyx Mufid Muhəmməd ibn Muhəmməd ibn ən-Noman əl-Akbəri (vəfatı, hicri tarixi ilə 413-cü il), Dar əl-Mufid nəşriyyatı, Ali beyt nəşriyyatının təhqiqi hicri 1414 = miladi 1993.

3. əs-Səxavinin "İsticlab İrtiqa əl-Ğuraf" əsəri, əl-Bəşair əl-İslamiyyə yayın evi, Beyrut, miladi 2000, Xalid Əhməd əs-Summi təhqiqi.

4. "əl-İstiab Fi Mərifəti əl-Əshab" əsəri, İbn Abdulbərr əl-Əndəlusi.

5. "Əsma əs-Sahəbə ər-Ruvat va Ma Likulli Vahidin Minəl Adəd" əsəri, İbn Həzm (vəfatı, hicri tarixi ilə 456-cı il). əl-Kutub əl-İlmiyyə nəşriyyatı, Beyrut-Livan hicri 1412 = miladi 1992. Seyid Kisravi Həsənin təhqiqi.

6. "əl-Əsma Val-musahərat Bəynə Əhlil-beyti Vəs-sahəbə" əsəri, Əbu Muaz əl-İsmaili, Mubərratu əl-Ali val-Əshab - əl-Küveyt – hicri 1427-ci il.

7. "əl-İsabə Fi Təmyiz əs-Sahəbə" əsəri, İbn Həcər əl-Əsqəlani (vəfatı, hicri tarixi ilə 852-ci il). əl-Əfkar əd-Duvaliyyə nəşriyyatı.

8. "Usul əl-Kafi" əsəri, Muhəmməd ibn Yaqub əl-Kuleyni, (vəfatı, hicri tarixi ilə 329-cu il). Əhluz-zikr nəşriyyatı, Muhəmməd Cəfər Şəmsuddinin təhqiq və əlavələri ilə.

9. "əl-Əsiyəli Fi Ənsab ət-Talibin" əsəri, Safiyyuddin Muhəmməd ibn Tacəddin ibn ət-Taqtaqi əl-Həsəni, (vəfatı, hicri tarixi ilə 709-cu il). Mehdi ər-Rəcainin təhqiqi, Ayətullah əl-Uzma əl-Məraşi ən-Nəcəfi kitabxanası.

10. “Əyan ən-Nisa” əsəri, Şeyx Muhəmməd Rida əl-Həkimi.

11. “əl-Al Vəs-səhabə Məhəbbə Və Qarabə: Muəlləqat Zətu Dəlalə Amiqa Aləl-əlaqə əl-Həmimə Bəynə əl-Al Vəl-əshab” əsəri, – Əli ibn Həməd ət-Təmimi – Məbərrətul-ali Val-əshab – Küveyt, hicri 1429.

12. “Ənsab əl-Əşraf” əsəri, əl-Əlami müəssisəsinin nəşri, Beyrut-Livan, hicri 1394 = miladi 1974. Şeyx Muhəmməd Baqir əl-Məhmudinin təhqiqi.

13. “əl-Ənvar ən-Numaniyyə” əsəri, Nimətu əl-Cəzairi əl-Musəvi (vəfatı, hicri tarixi ilə 1112-ci il). İranın Cab şirkətinin nəşri.

14. “Bihar əl-Ənvar” əsəri, - əl-Məclisi – İhya ət-Turas əl-Arabi nəşriyyatı, Beyrut, üçüncü nəşr, hicri 1403.

15. “əl-Bidayə Və ən-Nihayə” əsəri, Əbul-fida İbn Kəsir (vəfatı, hicri tarixi ilə 774-cü il). Darul-fikr nəşriyyatı, Beyrut-Livan hicri 1419 = miladi 1998. Sidqi Cəmil əl-Əttarın təhqiqi.

16. “Tarix əl-Uməmi Val-muluk” əsəri, - ət-Təbəri – Beyrut, Livan, üçüncü nəşr hicri 1403. Əbul-Fadl İbrahimin təhqiqi.

17. əl-Yaqubinin “Tarix” əsəri, Əhməd ibn Əbu Yaqub ibn Cəfər ibn Vahb, (vəfatı, hicri tarixi ilə 284-cü il).

18. “Tarixi Diməşq” əsəri, İbn Əsakir – İhya ət-Turas əl-Arabi yayın evi, Beyrut, birinci nəşr, hicri 1421.

19. “Təvil əl-Ayat Fi Fədail əl-İtrati ət-Tahira” əsəri, əl-İstrabadi ən-Nəcəfi, Mədrasətu əl-İmam əl-Mehdi, birinci nəşr hicri 1407.

20. “Təracim Əalam ən-Nisa” əsəri, Muhəmməd Hüseyn əl-Əlami əl-Hairi.

21. “Təfsir əl-İmam əl-Əskəri” əsəri, Mədrasətu əl-İmam əl-Mehdi, birinci nəşr hicri 1409, Qum.

22. “Təlqih Məfhum Əhl əl-Əsər Fi Uyun ət-Tarix Vəs-siyar” əsəri, Cəmaləddin Əbul-Fərac Abdurrəhman ibn əl-Cəuzi (vəfatı, hicri tarixi ilə 597-ci il). Dar əl-Ərqam nəşriyyatı.

23. “Tavarix ən-Nəbi Vəl-al” əsəri, Muhəmməd Təqiy ət-Təsturi, Dar əş-Şərafə nəşriyyatı, İran, hicri 1416. Şeyx Mahmud əş-Şərifi, Əli əs-Səkərci.

24. “Əs-səna Əl-mutəbədil Bəynə əl-Al Vəl-əshab” əsəri, Mərkəz əl-Buhus Vəd-dirasət – Mubərratul Ali Vəl-əshab, Küveyt, hicri 1427.

25. "Cəmhəratu ən-Nəsəb" əsəri, İbn əl-Kəlbi Əbu əl-Munzir Hişam ibn Muhəmməd ibn əs-Saib əl-Kəlbi (vəfatı, hicri tarixi ilə 204-cü il). əl-Küveyt hicri 1403 = miladi 1983. Abdussəttar Əhməd Fəracın təhqiqi.

26. "Cəmhəratu Ənsab əl-Arəb" əsəri, İbn Həzm əz-Zahiri əl-Əndəlusi Əbu Muhəmməd Əli ibn Əhməd ibn Səid (vəfatı, hicri tarixi ilə 456-cı il). Dar əl-Məarif nəşriyyatı, Misir.

27. "əl-Cəuhəra Fi Nəsəbi ən-Nəbi Və Əshabihi əl-Aşara" əsəri, Muhəmməd ibn Əbu Bəkr əl-Ənsari ət-Tilimsani əl-Bərri (vəfatı, hicri tarixi ilə 681-ci il). Mərkəz Zayid Lit-turas Vət-tarix nəşriyyatı, BƏƏ, hicri 1421 = miladi 2001, D. Muhəmməd ət-Tuvncinin təhqiqi.

28. "əl-Xisal" əsəri, İbn Babaveyh əl-Qummi, Əli Əkbər əl-Ğifarinin təhqiqi, Qumda müəllimlər tərəfindən nəşr olunur.

29. "Zəxair əl-Uqba Fi Mənaqib Zəvil-qurba" əsəri, Əbu əl-Abbas Əhməd ibn Muhəmməd ət-Təbəri əl-Məkki (vəfatı, hicri tarixi ilə 694-cü il). əs-Sahəbə kitabxanası, Ciddə hicri 1415 = miladi 1995. Əkram əl-Buşinin təhqiqi.

30. "Zura əs-Səhab Fi Mərviyyati əl-Fədail Bəynə əl-Ali və əl-Əshab" əsəri, Mubərratul Ali Vəl-əshab, Əhməd Abdulğani ən-Nuculi əl-Cəməl, Ğazzə Muhəmməd Fəudə, Əli ibn Həməd ət-Təmimi, Said Subhi Qatum, Mubərratul Ali Vəl-əshab, əl-Küveyt, hicri 1429.

31. "ər-Rahiq əl-Məxtum" əsəri, Safiyyurrəhman əl-Mubarakfuri, Dar əl-Vəfa əl-Mənsura və Dar əl-Muğni nəşriyyatları, ər-Riyad hicri 1420 = miladi 2000.

32. "Sirru əs-Silsilətu əl-Ələviyyə" əsəri, Əbu Nasr əl-Buxari Səhl ibn Abdullah (vəfatı, hicri tarixi ilə 357-ci il). Bağdadda nəşr olunmuşdur, Muhəmməd Sadiq Bəhr əl-Ulum ona təqdim yazmışdır. Deyilənə görə Əbu Nasr əl-Buxari hicri 341-ci ilədək yaşamışdır.

33. "əs-Silsilətu əs-Səhihə" əsəri, əl-Albani, əl-Məarif kitabxanası, ər-Riyad, hicri 1422 = miladi 2002.

34. Əbu Davudun "Sünən" əsəri, Əbu Davud əs-Sicistani, Dar əs-Salam nəşriyyatı, ər-Riyad, miladi 2001.

35. Tirmizinin "Sünən" əsəri, Muhəmməd ibn İsa ət-Tirmizi, Dar əs-Salam nəşriyyatı, ər-Riyad, miladi 2001.

36. "Siyar Əalam ən-Nubəla" əsəri, əz-Zəhəbi, Dar ər-Risalə nəşriyyatı, Beyrut, on birinci nəşr, miladi 2001.

37. "əş-Şəcəratu əl-Muhəmmədiyyə" əsəri, Muhəmməd ibn Əsad əl-Cuvvani (vəfatı, hicri tarixi ilə 588-ci il). əl-Küveyt miladi 1996. Xalid Suud əz-Zeydin əlavələri ilə.

38. "əş-Şəcəratu ən-Nəbəviyyə Fi Nəsəbi Xayri əl-Bəriyyə" əsəri, Cəmaluddin Yusuf ibn Həsən ibn Abdulhadi əl-Məqdisi ibn əl-Mubərrid bu əsərə baxıb onu tamamlamışdır. (vəfatı, hicri tarixi ilə 909-cu il). Dar əl-Kəlim ət-Tayyib nəşriyyatı Dəməşq, Dar İbn Kəsir nəşriyyatı Beyrut. Dəməşq və Beyrut hicri 1416 = miladi 1995.

39. "əş-Şəriə" əsəri, Əbu Bəkr Muhəmməd ibn əl-Hüseyn ibn Abdullah əl-Acurri əl-Bağdadi (vəfatı, hicri tarixi ilə 360-cı il). Təhqiq etmişdir: Doktor Abdullah ibn Ömər ibn Süleyman əd-Dəmici. Dar əl-Vatan nəşriyyatı, ər-Riyad, Səudiyyə, ikinci nəşr, hicri 1420 = miladi 1999.

40. İbn Hibbanın "Səhih" əsəri, İbn Hibban əl-Busti, Muəssəsətu ər-Risalə, Beyrut, ikinci nəşr hicri 1414. Şüeyb əl-Arnautun təhqiqi.

41. Buxarinin "Səhih" əsəri, İmam əl-Buxari, Dar əs-Salam, ikinci nəşr, ər-Riyad.

42. Muslimin "Səhih" əsəri, İmam Muslim ibn əl-Həccac, Dar əs-Salam, ikinci nəşr, ər-Riyad.

43. "əs-Sahifə əs-Səccadiyyə əl-Kamilə" əsəri, İmam Zeynulabidin.

44. "ət-Tabaqat əl-Kubra" əsəri, Muhəmməd ibn Səd ibn Muni əz-Zuhri (vəfatı, hicri tarixi ilə 230-cu il). Dar İhya ət-Turas əl-Arabi nəşriyyatı, Beyrut, Livan.

45. "Umdətu ət-Talib Fi Ənsab Ali Əbu Talib" əsəri, Cəmaluddin Əhməd ibn Əli əl-Hüseyni İbn əl-Ənba (vəfatı, hicri tarixi ilə 828-ci il). Ənsariyyən nəşriyyatı, Qum hicri 1417 = miladi 1996.

46. "Fəth əl-Bari Bişərhi Səhih əl-Buxari" əsəri, İbn Həcər əl-Əsqəlani Əhməd ibn Əli (vəfatı, hicri tarixi ilə 852-ci il). Dar əl-Fikr nəşriyyatı, Beyrut, Livan, hicri 1420 = miladi 2000.

47. "Fədail əs-Sahəbə" əsəri, Əhməd ibn Hənbəl, Dar İbn əl-Cəuzi nəşriyyatı, ər-Riyad, ikinci nəşr, hicri 1420.

48. "əl-Qamus əl-Muhit" əsəri, Əbu Tahir Muhəmməd Məcdud-din Muhəmməd ibn Yaqub əş-Şirazi əl-Feyruzabadi (vəfatı, hicri tarixi ilə 817-i il). ər-Risalə müəssisəsi, Beyrut, Livan, Muhəmməd əl-Əraqsusinin işi ilə. Hicir 1416 = miladi 1996.

49. "əl-Kafi (əl-Usul)" əsəri, əl-Kuleyni, Əli Əkbər əl-Ğifarinin təhqiqi, Dar əl-Kutub əl-İslamiyyə nəşriyyatı, üçüncü nəşr, hicri 1388.

50. "Kitab ən-Nəsəb" əsəri, Əbu Ubeyd əl-Qasim ibn Sələm (vəfatı, hicri tarixi ilə 224-cü il). Dar əl-Fikr, Beyrut, Livan, Məryəm Muhəmməd Xeyruddərin təhqiqi, hicri 1410 = miladi 1989.

51. "Kəşf əl-Ğummə Fi Mərifəti əl-Əimmə" əsəri, əl-Ərbili, Dar əl-Ədva, Livan, hicri 1421 = miladi 2000.

52. "Kəşf əl-Ğummə Fi Mərifəti əl-Əimmə" əsəri, Əbu əl-Həsən Əli ibn İsa Əbu əl-Fəth əl-Ərbili (vəfatı, hicri tarixi ilə 693-cü il). Dar əl-Ədva, Beyrut, Livan hicri 1421 = miladi 2000.

53. "Lisan əl-Arab" əsəri, İbn Mənzur Cəmaluddin Əbu əl-Fadl Muhəmməd ibn Məkram ibn Əli əl-Misri əl-İfriqi (vəfatı, hicri tarixi ilə 711-ci il). Dar əl-Məarif nəşriyyatı, Misir, Abdullah əl-Kəbir və başqalarının təhqiqi.

54. "Məcma əz-Zəvaid" əsəri, əl-Heysəmi, Dar əl-Fikr nəşriyyatı, Beyrut, hicri 1412 = miladi 2000.

55. "əl-Məhbər" əsəri, Əbu Cəfər Muhəmməd ibn Həbib (vəfatı, hicri tarixi ilə 245-ci il). Dar əl-Əfaq əl-Cədidə nəşriyyatı, Beyrut, Livan, D.Elza Lixten Mişteytirin təhqiqi.

56. "əl-Muxtəsər əs-Sağir Fi Siyrati əl-Bəşir ən-Nəzir" əsəri, Abduləziz ibn Muhəmməd İbrahim ibn Sədullah ibn Cəmaə (vəfatı, hicri tarixi ilə 767-ci il). Aləm əl-Kitab nəşriyyatı, Beyrut, Livan, D. Muhəmməd Kəmaləddin İzzəddinin təhqiqi, hicri 1408 = miladi 1988.

57. "əl-Muxtəsər Min Kitab əl-Muvafaqa Bəynə Əhlil-beyt Vəssəhabə" əsəri, əz-Zəməxşəri Mahmud ibn Ömər ibn Muhəmməd əz-Zəməxşəri əl-Xəvarizmi (vəfatı, hicri tarixi ilə 538-ci il). Dar əl-Hədis nəşriyyatı, Misir, miladi 2001. Seyyid İbrahim Sadiqin təhqiqi.

58. əl-Məsudinin "Muruc əz-Zəhəb" əsəri.

59. "əl-Mustədrak" əsəri, əl-Hakim ən-Nisaburi, Dar əl-Kutub əl-İlmiyyə nəşriyyatı, Beyrut, birinci nəşr hicri 1411.

60. "Musnəd" əsəri, Əbu Yəla əl-Mousuli, Dar əl-Kutub əl-Mamun nəşriyyatı, Diməşq, Hüseyn Səlim Əsədin təhqiqi.

61. İmam Əhmədin "Müsnəd" əsəri, Əhməd ibn Hənbəl, Muəssəsətu Qurtuba, əl-Qahirə.

62. İbn Əbu Şeybənin "Musənnəf" əsəri, Əbu Bəkr ibn Əbu Şeybə, ər-Ruşd kitabxanası, ər-Riyad, birinci nəşr, hicri 1409. Kamal Yusuf əl-Hutun təhqiqi.

63. "əl-Məarif" əsəri, Əbu Muhəmməd Abdullah ibn Muslim ibn Quteybə (vəfatı, hicri tarixi ilə 279-cu il). əl-Heyə əl-Misriyyə əl-Ammə Lil-kutub, miladi 1992. D. Sərvət əl-Ukkaşənin təhqiqi.

64. "Məali ər-Rutab Limən Cəməa Bəynə Şərafey əs-Suhbəti Vən-nəsəb" əsəri, Musaid Salim əl-Abd əl-Cadir, Dar əl-Bəşair əl-İsləmiyyə nəşriyyatı, Beyrut, Livan, Musaid Salim əl-Abd əl-Cadir kitabxanası, əl-Küveyt, hicri 1425 = miladi 2004.

65. "Mucəm əl-Buldən" əsəri, Yaqut əl-Həməvi, Dar əl-Fikr nəşriyyatı, Beyrut.

66. "Məqatil ət-Talibin" əsəri, Əbul-fərac əl-Əsfəhani, (vəfatı, hicri tarixi ilə 356-cı il). Dar əl-Mərifə, Beyrut, Livan, hicri 1426 = miladi 2005. Seyyid Əhməd Saqrın təhqiqi.

67. "Muntəha əl-Amal Fi Təvarix ən-Nəbiyyi Vəl-al" əsəri, Şeyx Abbas əl-Qummi, əd-Dar əl-İslamiyyə nəşriyyatı, Beyrut, əl-Fəqih kitabxanası, əs-Salimiyyə, əl-Küveyt, Ə. Nadir ət-Təqinin tərcüməsi, ən-Nəşr əl-İslami müəssisəsinin növbəti nəşri, Qum, İran.

68. "Nəsəbu Qureyş" əsəri, Əbu Abdullah Musab ibn Abdullah əz-Zubeyri (vəfatı, hicri tarixi ilə 236-cı il). Dar əl-Məarif nəşriyyatı, Misir, İ. Lifi Profensalın təhqiqi.

69. "Nəhc əl-Bəlağə" əsəri, Muhəmməd Abdənin təhqiqi, Dar əl-Əndəlus nəşriyyatı, Beyrut.